AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

ISSN 2709-247X (Print)
ISSN 2709-2488 (Online)

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

ELMİ-METODİK JURNAL

2021, №2/235

JOURNAL of PRESCHOOL
and PRIMARY EDUCATION

Jurnalın indekslənməsi/ İndexed by

Azərbaycan Respublikasının
Prezidenti yanında
Ali Attestasiya Komissiyası

**MƏKTƏBƏQƏDƏR və İBTİDAİ TƏHSİL**
Elmi-metodik jurnal. 1970-ci ildən «Azərbaycan məktəbi» jurnalına əlavə kimi nəşr olunur. Jurnal 2000-ci ildən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyinin elmi-metodik nəşri kimi fəaliyyətini davam etdirir. ISSN 2709-247X (Print) lSSN 2709-2488 (Online)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 05 may 1997-ci il tarixli Nizamnaməsi ilə təsdiq edilmiş, Ədliyyə Nazirliyində «İbtidai məktəb və məktəbəqədər tərbiyə» adı ilə dövlət qeydiyyatına alınmışdır. Qeydiyyat şəhadətnaməsi № 544. 2009-cu ildə jurnalın adı dəyişilərək «Məktəbəqədər və ibtidai təhsil» adlandırılmışdır (AR Ədliyyə Nazirliyinin 11/648 №-li, 20.05.2009-cu il tarixli məktubu).

«Məktəbəqədər və ibtidai təhsil» jurnalı məktəbəqədər və ibtidai təhsil sahəsində elmi-nəzəri məqalələrin, müasir dövrün tələblərinə uyğun milli və xarici təcrübəni praktik və nəzəri baxımdan əks etdirən araşdırma materiallarının nəşrini həyata keçirir. Jurnalda təlimin məzmununu, tərbiyəçi və müəllimlərin, psixoloq və defektoloqların pedaqoji təcrübəsini ümumiləşdirən məqalələrə yer verilir. Müasir təlim texnologiyalarının, pedaqoji innovasiyaların təbliği, ailə-məktəb, müəllim-şagird, tərbiyəçiuşaq münasibətlərinin pedaqoji-psixoloji aspektlərini əks etdirən yazıların dərci jurnalda daim diqqət mərkəzində saxlanılır. Məqalələr Azərbaycan, rus, ingilis və türk dillərində dərc olunur. Müəlliflərin şəxsi maraqlarını əks etdirən, elmi-metodiki nəticəsi olmayan məqalələr qəbul edilmir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.

---

**PRESCHOOL and PRIMARY EDUCATION**

Scientific and methodological journal. It has been published since 1970 as a supplement to the «Azerbaijan Journal of Educational Studies». The journal has been operating as the scientific-methodical publication of the Ministry of Education of the Republic of Azerbaijan since 2000. ISSN 2709-247X (Print) ISSN 2709-2488 (Online)
The journal «Preschool and primary education» publishes scientific and theoretical articles in the field of preschool and primary education, research materials reflecting national and international experience from a practical and theoretical point of view in accordance with the modern requirements. The journal also publishes articles summarizing the content of training, the pedagogical experience of educators, teachers, psychologists and disability specialists. Promotion of modern learning technologies, pedagogical innovations and articles that reflect pedagogical and psychological aspects of family-school, teacher-student, educator-child relationships are always in the focus of the journal. Articles are published in Azerbaijani, Russian, English and Turkish languages. Articles that reflect the conflict of interests and have no scientific methodological purpose are not accepted. The journal is among the recommended scientific publications of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.

---

© Məktəbəqədər və ibtidai təhsil / Preschool and Primary Education, 2021

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
**"Məktəbəqədər və ibtidai təhsil" jurnalı**

**Baş redaktor əvəzi**
Böyükağa Mikayıllı

**Redaksiya heyəti**

Akif Abbasov (Azərbaycan Respublikası Təhsil İnstitutu)
Asəf Zamanov (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Aydın Əhmədov (Azərbaycan Respublikası Təhsil İnstitutu)
Azadxan Adıgözəlov (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Bibixanım İbadova (Azərbaycan Respublikası Təhsil İnstitutu)
Elvin Rüstəmov (Azərbaycan Respublikası Təhsil Nazirliyi)
Esmira Ağayeva (İ.Əfəndiyev adına Elitar Gimnaziya)
Fərrux Rüstəmov (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Həqiqət Hacıyeva (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Xalidə Musayeva (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
İradə Məlikova (74 nömrəli tam orta məktəb)
Könül Pirverdiyeva (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Laləzər Cəfərova (Azərbaycan Respublikası Təhsil İnstitutu)
Müseyib İlyasov (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Nabat Rəfiyeva (316 nömrəli Körpələr evi-uşaq bağçası)
Nərminə Alnağıyeva (Azərbaycan Respublikası Təhsil Nazirliyi)
Pavel Luşin (Ukrayna Pedaqoji Elmlər Akademiyası)
Ramiz Əliyev (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Səidə Əhmədova (TDM, Psixoloq)
Şəhla Əliyeva (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
Təranə Mirzəyeva (Göyçay şəhər, 3nömrəli tam orta məktəb)
Vaqif Əmiraslanov (Bakı Sosial-Pedaqoji Kolleci)
Vəfa Məmmədova (155 nömrəli tam orta məktəb)
Vidadi Xəlilov (Azərbaycan Respublikası Təhsil İnstitutu)
Vidadi Orucov (Lənkəran Dövlət Universiteti)
Vira Remajevskaya («Lewenia» Təhsil və Reabilitasiya Mərkəzi, Ukrayna)

**Redaksiya**
Kəklik Məmmədova, İlhamə Əsədova, Məhəbbət Əliyeva, Landa Cəfərova, Aytən Həsənova, Nərgiz Muradova, Leyla Məmmədova, Arzu Nuruzadə

**Redaksiyanın ünvanı:**
AZ 1118, Bakı şəhəri, Nəsimi küçəsi 37
Telefon: (+994) 50 344 96 76
E-mail: mit_j@mail.ru
http://ppe-journal.edu.az

THE MINISTRY OF EDUCATION OF THE REPUBLIC OF AZERBAIJAN
**Journal of Preschool and Primary Education**

**Deputy Editor-in-Chief**
Boyukagha Mikayilli

**Editorial Board**

Akif Abbasov (Education Institute of the Republic of Azerbaijan)
Asef Zamanov (Azerbaijan State Pedagogical University)
Aydin Ahmadov (Education Institute of the Republic of Azerbaijan)
Azadkhan Adigozalov (Azerbaijan State Pedagogical University)
Bibikhanim Ibadova (Education Institute of the Republic of Azerbaijan)
Elvin Rustamov (Ministry of Education of the Republic of Azerbaijan)
Esmira Aghayeva (Elite Gymnasium named after I. Efendiyev)
Farrukh Rustamov (Azerbaijan State Pedagogical University)
Hagigat Hajiyeva (Azerbaijan State Pedagogical University)
Irada Malikova (Secondary school No. 74)
Konul Pirverdiyeva (Azerbaijan State Pedagogical University)
Khalida Musaeva (Azerbaijan State Pedagogical University)
Lalazar Jafarova (Education Institute of the Republic of Azerbaijan)
Museib Ilyasov (Azerbaijan State Pedagogical University)
Nabat Rafieva (Kindergarten-Nursing Home No. 316)
Narmina Alnaghieva (Ministry of Education of the Republic of Azerbaijan)
Pavel Lushin (Academy of Pedagogical Sciences of Ukraine)
Ramiz Aliyev (Azerbaijan State Pedagogical University)
Saida Akhmedova (ESC, Psychologist)
Shahla Aliyeva (Azerbaijan State Pedagogical University)
Tarana Mirzeyeva (Goychay city, Secondary school No. 3)
Vafa Mammadova (Secondary school No. 155)
Vagif Amiraslanov (Baku Socio-Pedagogical College)
Vidadi Khalilov (Education Institute of the Republic of Azerbaijan)
Vidadi Orujov ( Lankaran State University)
Vira Remajevskaya (Education and Rehabilitation wwCenter «Lewenia», Ukraine)

**Editorial team**
Kaklik Mammadova, Ilhama Asadova, Mahabbat Aliyeva, Landa Jafarova, Aytan Hasanova, Nargiz Muradova, Leyla Mammadova, Arzu Nuruzadeh

**Adress:**
37 Nasimi St., Baku, Azerbaijan 1118
Tel: (+994) 50 344 96 76
E-mail: mit_j@mail.ru
http://ppe-journal.edu.az

İÇİNDƏKİLƏR / №2,2021

• PEDAQOGİKA

**Elza Mollayeva**
Gender sosiallaşmasının mahiyyəti və müasir konsepsiyalarda ona yanaşmalar 9-20

**Şərafət Baxışova**
Məktəbəqədər yaşlı uşaqlarda məntiqi və riyazi təfəkkürün inkişafı 21-33

**Nigar Muradova**
Kiçikyaşlı məktəblilərin iqtisadi tərbiyəsində sinifdənkənar işlərin təşkilati və pedaqoji əsasları 35-50

**Almaz Əhmədova**
Təsviri fəaliyyət məşğələlərində uşaqların estetik tərbiyə imkanları 51-58

• METODİKA

**Gülər Bayramova**
İbtidai təhsil səviyyəsində STEM təlim metodu 59-67

**Həqiqət Hacıyeva**
Həyat bilgisi və onun tədrisi metodikası fənninin tədrisində insani dəyərlərin aşılanması 69-79

• AİLƏ VƏ MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏ

**Rüxsarə Tağıyeva**
Məktəbəqədər təhsil müəssisəsi və ailə arasında əlaqələrin qurulması 81-91

CONTENTS / № 2, 2021


- P E D A G O G Y

**Elza Mollayeva**
The essence of gender socialization and the approach
of modern concepts to gender-role socialization 9-20

**Sharafat Bakhishova**
Pedagogical and psychological bases of preparation
of children for school training 21-33

**Nigar Muradova**
Organizational and pedagogical bases of extracurricularactivities
in the economic education of young schoolchildren 35-50

**Almaz Akhmadova**
Opportunities for aesthetic education of children in
descriptive activities 51-58

- METHODOLOGY

**Gular Bayramova**
STEM training method at the primary education level 59-67

**Hagigat Hajiyeva**
In teaching the subject of life knowledge and
its teaching methods inculcation of human values 69-79

- F A M I L Y and P R E S C H O O L

**Rukhsara Tagiyeva**
Building the relationship between preschool educational
institutions and families 81-91

# THE ESSENCE OF GENDER SOCIALIZATION AND THE APPROACH OF MODERN CONCEPTS TO GENDER-ROLE SOCIALIZATION

**Elza Mollayeva**
Baku State University, Doctor of Pedagogical Sciences,
E-mail: elzamollayeva@rambler.ru
https://orcid.org/0000-0002-5128-8214

**Abstract.** In modern times, the socialization of the individual is one of the factors that play a key role in its harmonious development. It is as a result of socialization that a person integrates into society and assimilates its social norms, rules of behavior, cultural and mental values. Each of the micro, meso, macro and mega factors has a unique role in socialization. Each factor plays a basic role for the next, and gender classification has recently been included in this classification. Gender socialization is the process of identifying female and male characteristics by a child, which is based on gender identity. Gender identity is a fundamental human expres sion of one's gender (female or male). There are various concepts in the field of modern gender science about gender socialization, and each of them makes its own scientific contribution to gender theory.

**Keywords:** gender socialization, gender inequality, socialization factors, gender identity, gender typology, gender concepts

**To cite this article:** Mollayeva E.(2021) The essence of gender socialization and the approach of modern concepts to gender-role socialization. *Journal of Preschool and Primary Education*, V.235, İssue II, pp. 9-20
**Article history:** Received – 10.04.2021; Accepted – 25.04.2021.

# GENDER SOSİALLAŞMASININ MAHİYYƏTİ VƏ MÜASİR KONSEPSİYALARDA ONA YANAŞMALAR

**Elza Mollayeva**
Bakı Dövlət Universiteti, pedaqogika üzrə elmlər doktoru,
E-mail: elzamollayeva@rambler.ru
https://orcid.org/0000-0002-5128-8214

**Annotasiya.** Məqalədə gender sosiallaşmasından, müasir konsepsiyalarda ona yanaşmalardan söhbət gedir. Qeyd olunur ki, müasir dövrdə şəxsiyyətin sosiallaşması onun ahəngdar inkişafında əsas rol oynayan amillərdən biridir. Məhz sosiallaşma nəticəsində insan cəmiyyətə inteqrasiya edərək, onun sosial normalarını, davranış qaydalarını, mədəni və mental dəyərlərini mənimsəyir. Sosiallaşmada mikro, mezo, makro və meqaamillərin hər birinin özünəməxsus rolu vardır. Hər bir amil özündən sonrakı mərhələ üçün baza rolunu oynayır və son dövrlərdə bu təsnifata gender sosiallaşması da daxil edilmişdir. Gender sosiallaşması qadın və kişiyə məxsus cəhətlərin uşaq tərəfindən eyniləşdirilməsi (identifikasiyası) prosesidir. Gender identikliyi insanın özünü hansı cinsə (qadın və ya kişi) aid etməsi ilə ifadə olunan hissdir.

**Açar sözlər:** gender sosiallaşması, gender bərabərsizliyi, sosiallaşma amilləri, gender identikliyi, cinsi tipləşdirmə, gender konsepsiyaları.

**Məqaləyə istinad:** Mollayeva E.. (2021) Gender sosiallaşmasının mahiyyəti və müasir konsepsiyalarda ona yanaşmalar. «Məktəbəqədər və ibtidai təhsil», № 2 (235), səh. 9-20
**Məqalə tarixçəsi:** göndərilib – 10.04.2021; qəbul edilib – 25.04.2021.

## Giriş / *Introduction*

Şəxsiyyətin sosiallaşması onun ictimai inkişafında əsaslı rola malikdir və bu proses fərdin cəmiyyətə, müxtəlif tipli sosial qrup və birliklərə inteqrasiyasını nəzərdə tutur. Şəxsiyyətin sosiallaşması fərdin mədəniyyət keyfiyyətlərini, sosial norma və sərvətləri mənimsəməsi sayəsində mümkün olur. Həmin keyfiyyətlərin, norma və sərvətlərin əsasında şəxsiyyət sosial əhəmiyyət kəsb etməyə başlayır.

Sosiallaşma uşaq yaşlarından, ailədə başlayır, yəni ailə uşağın düşdüyü ilk cəmiyyətdir. İlkin sosial laşma, yəni ailədə sosiallaşma hər bir insanın həyatında həlledici dövr olmaqla, onun sonrakı inkişa fına öz təsirini göstərir. Fərd sosiallaşmaqla yanaşı, yeni bacarıq və vərdişlər qazanmaqla yeni sosial rolları həyata keçirməyə başlayır. İlkin sosiallaşma fərdin həyatında həlledici məqam olaraq, onun sosial həyatında sonrakı inkişaf yollarını müəyyən edir – fərd yeni bacarıq və vərdişlər əldə edir və beləliklə, yeni sosial rolları icra etməyə başlayır. Sosiallaşma prosesində sosial qrupun, təşkilatın şəxsiyyətə təsiri özünü qabarıq şəkildə göstərir. Belə qruplarda insan müəyyən statuslar qazanır ki, onlar da iki yerə bölünür – sosial və şəxsi statuslar. Sosial status iki istiqamətdə özünü büruzə verir:

– insanın cinsi, milliyyəti, dini mənsubiyyəti ilə şərtlənən və doğularkən əldə edilmiş status;

– təhsil, peşə, vəzifə ilə assosiasiya edilərək, sonradan qazanılmış status.

Sosial statusdan başqa insanın şəxsi statusu sosial qrupda yiyələndiyi vəzifəni və cəmiyyətin ona verdiyi sosial qiyməti özündə əks etdirir.

Şəxsiyyətin sosial inkişafında gender sosiallaşması mühüm əhəmiyyətə malikdir. Gender sosiallaşması qadın və kişiyə məxsus cəhətlərin uşaq tərəfindən identifikasiya edilməsi prosesidir ki, bunun da əsasında gender eyniləşdirməsi durur. Gender identikliyi insanın, fundamental olaraq, özünü hansı cinsə (qadın və ya kişi) aid etməsində ifadə olunan hissdir. Gender identikliyi insanın özünüdərkində və mənlik konsepsiyasının təşəkkülündə əsas konsepsiayalardandır. Müasir gender yanaşmalarına görə, gender eyniləşdirməsi insana anadangəlmə verilmir və onun gender sosiallaşmasının səviyyəsi, yaşadığı cəmiyyətin cinslərarası münasibətlər sisteminə qoşulması, sosial münasibətlərə girməsi ilə şərtlənərək, sosial təcrübə əsasında yaranır.

## *Əsas hissə / Main part*

Gender sosiallaşması uşaq yaşlarından başlayır və bu zaman o, özünə uyğun (yəni cəmiyyət tərəfindən qəbul edilmiş, qadın və kişiyə uyğun davranış nümunələri əsasında) olan cinsi və ya gender rolunu mənimsəməyə başlayır. Uşaqların gender sosiallaşması daha çox əcnəbi tədqiqatçılar tərəfindən tədqiq

edilmişdir. İ. S. Kon qeyd edir ki, gender sosiallaşmasının fəal subyekti gender mədəniyyətinin ona təklif etdiyi rol və davranış modelini qəbul edən, yaxud rədd edən insan özüdür [İ. S. Kon, 2003].

Gender sosiallaşması iki amilə – gender rolunun subyektiv qəbul olunması və ya hiss edilməsini şərtləndirən gender identikliyinin formalaşmasına və onun ictimai ifadəsində özünü büruzə verən gender rollarının mənimsənilməsinə əsaslanır ki, bunlar da özündə peşə və ailədaxili rolları birləşdirir.

Mövcud elmi ədəbiyyatda gender rollarının, müxtəlif irqlərdə qadın – kişi etalonunun, dini, mədəni amillərin bu rollara təsirinin şərtiliyi müəyyən mənada verilmişdir. Dünya xalqlarının hər birində, demək olar ki, özünəməxsus gender – qadın-kişi rolları və maskulinlik–feminlik etalonu mövcuddur. Bu da "bütün zamanlar və xalqlar üçün universal qadın və kişi obrazının" olmaması anlamını verir [Popova L.V., 2004].

Tədqiqatçı D.V. Kolesova görə, cinsi mənsubiyyətə iki aspektdən yanaşmaq lazımdır: **birinci aspekt** dövrdən, müxtəlif təsirlərdən və tərbiyənin xüsusiyyətlərindən asılı olmayan ümumbəşəri, anadangəlmə hansı cinsə mənsubluğu ifadə edir. **İkinci aspekt** isə cəmiyyətin spesifikliyi ilə şərtlənən cinsi mənsubiyyətin tarixi zəruriliyini əks etdirir. Tədqiqatçıya görə, cinsi rol "cinsi identikliyin kon kret tarixi təzahürüdür" [Kolesov D.V., 1986].

Gender sosiallaşmasında ictimai əmək bölgüsündəki rolların diferensiallaşması da öz təsirini göstərir, belə ki, gender diferensiallaşması əsasında fəaliyyət sahələri hər bir cinsin rahatlığını təmin edən və ənənəvi qadın – kişi sferası sayılan bölgünü yaradır.

Şəxsiyyətin gender identikliyinin, cinsi psixoloji keyfiyyətlərinin yaranması və təşəkkülündə **cinsi identiklik** və **cinsi tipləşdirmə** əsaslı rola malikdir.

**Cinsi identiklik** hər bir insanın özünü cəmiyyətdə mövcud olan cinsi obraz və nümunəyə həm zahirən, həm də daxilən bənzətməsini nəzərdə tutur. Müəyyən cinsə mənsubluğun dərk edilməsini ifadə edən cinsi identiklik ontogenezin cinsi sosiallaşmasının və özünüdərkin mürəkkəb prosesi ilə şərtlənir. Cinsi diferensiallaşma uşağın mənsub olduğu cinsə, yəni kişi və ya qadın cinsinə aid psixoloji xüsusiyyətlərin, xarakterik davranışın formalaşmasını büruzə verir ki, bu amillər də məktəbəqədər yaş dövründə sosiallaşma prosesinə daxildir.

Məktəbəqədər yaş dövründə gender sosiallaşması problemini araşdıran A.V. Petrovski və O.V.Prozumentik gender identikliyinin, zahiri və xarici olmaqla, iki səviyyəsini müəyyən etmişlər. **Zahiri səviyyə** geyim, saç düzümü, davranış qaydaları ilə, **daxili səviyyə** isə qadın və kişi stereotiplərinin fərqini, spesifikliyini özündə birləşdirir.

Cinsi tipləşdirməyə əsasən, uşaq aid olduğu cinsin şəxsi xarakterini, cavab reaksiyasını, qadın və kişiyə məxsus zövq atributlarını mənimsəyir. Cinsi tipləşdirmə uşağın həyatında üç yaşa qədər sabit xarakterdə olur, yəni uşaq özünü tipik olaraq oğlan və ya qız kimi qəbul edir.

Tədqiqatçı alimlər cinsi-rol sosiallaşmasının üç səviyyəsini – adaptasiya-uyğunlaşma, fərdi və inteq rasiya səviyyəsini müəyyən etmişlər. **Birinci səviyyədə,** adaptasiya dövründə oğlan və qızlara xas olan xarakterik dəyər və normaların uyğun vasitə və fəaliyyət yolu ilə mənimsənilməsi nəzərdə tutulur. **İkinci,** fərdi səviyyədə fərddə hamı kimi olmaq istəyi ilə özünəməxsusluq arasında ziddiyyət yaranır, belə ki, oğlan və ya qız cəmiyyətin hər bir cinsə aid olan davranış və normalarını qəbul etməyə məcbur olsalar da, sonradan özündə maskulin və ya femin xüsusiyyətlərin dominantlığı ilə əlaqədar müəyyən çətinliklər ortaya çıxır. **Üçüncü səviyyədə** fərdin cəmiyyətdə mövcud olan dəyərlər baxımından mənsub olduğu cinsi ideal şəkildə təmsil etməsi ilə onun doğulduğu vaxtdan başlayan sosiallaşma prosesi arasında inteqrasiya gedir.

Gender sosiallaşması insanı doğulandan ömrünün sonunadək müşayiət edən prosesdir və bu prosesdə məktəbəqədər dövrün sosial-pedaqoji əhəmiyyəti elmi şəkildə əsaslandırılmışdır. Məhz bu yaş dövründə oğlan və qızlarda bu və ya digər cinsə aid tələblər, maraqlar, dəyərlər, davranış qaydaları formalaşmağa başlayır, onların bəzi şəxsi keyfiyyətlərində fərqlər özünü göstərməyə başlayır.

Bəs məktəbəqədər dövrün gender sosiallaşmasında hansı mexanizmlər əsaslı rola malikdir? Elmi-pedaqoji ədəbiyyatda bu mexanizmlər belə təsnifatlandırılmışdır:

**Özünü valideyinlərə bənzətmə (imitasiya)**. Bu zaman qızlar öz analarına, oğlanlar isə atalarına bənzəməyə çalışırlar. Belə ki, qızlar çox erkən yaşlardan analarının bəzək əşyaları və kosmetik vasitələri ilə, oğlanlar isə kişilərə məxsus atributlarla maraqlanmağa başlayırlar.

**Cinsi-rol identikləşməsi.** Uşağın özünü öz roluna uyğunlaşdırması prosesidir ki, bu proses məktəbə qədər yaşlarda intensiv və rahat gedir, çünki identifikasiya obyekti valideynlər olur.

**Cinsi-rol aspekti** davranışın qiymətləndirilməsi və onun gender rollarının tələbləri ilə uyğun gəlib-gəlməməsini nəzərdə tutur.

Məktəbəqədər yaş dövrünün cinsi-rol aspektində inkişaf konsepsiyasının xarici elmi ədəbiyyatlarda işlənməsi vəziyyətini rus tədqiqatçı-alimi T. A.Repina özünün “Uşaqların cinsi-rol sosiallaşmasının problemləri” [Repina T.A., 2004] əsərində geniş şərh etmişdir. Bu konsepsiyalar özündə ənənəvi və müasir yanaşmaları ifadə edir ki, bunlar da aşağıdakılardan ibarətdir.

Z.Freydin, C.Vaytinqin təmsil etdikləri **ənənəvi psixoanaliz konsepsiyasına** görə, uşağın cinsi-rol inkişafında onun valideyni ilə eyniləşmə mexanizmi əsaslı rola malikdir. Burada uşağın şəxsiyyətinin formalaşmasında cinsi amil önə çəkilir ki, bu, oğlanlarda “Edip”, qızlarda isə “Elektra” kompleksinin mövcudluğuna səbəb olur. Z.Freyd uşağın psixi inkişafını sosial mühitə daha ziddiyyətli uyğunlaşma kimi qəbul edərək, uşağın öz cinsindən olan valideyni ilə identifikasiya prosesi onun cəmiyyətdə uğurla sosiallaşmasına şərait yaradır.

Kişi və qadının davranış modelləri, öz xüsusiyyətlərinə görə, bir-birinə əksdir

və hər cinsin anadan gəlmə bioloji xarakteri ilə müəyyən olunur. Psixoanalizin müasir tərəfdarları uşaqlarda cinsi identikliyin formalaşması prosesində bioloji amillə bərabər, onların erkən yaşda qazandıqları sosial təcrübə və sosial amilin rolunu da önə çəkirlər.

**Biheviorist konsepsiyaya** əsasən, uşağın davranışı təqlid və modelləşdirmə vasitəsilə formalaşır ki, bu zaman uşaq yalnız öz cinsindən olan valideynini deyil, həm də əks cinsdən olan həmyaşıdının valideynini, bacı və qardaşını, onun üçün önəmli olan yaşıdlarını təqlid edir. Bu prosesdə uşaq tərəfindən identifikasiya edilmiş davranış modeli konkret insana aid olmur və ümumiləşdirilmiş xarakter daşıyır. Bu zaman uşaq insanların geyimini, davranışını, müxtəlif şəraitlərdə özünü necə aparmalarını müşahidə edir, məsələn, qızlar məktəbəqədər yaş dövründə analarının ayaqqabılarını, paltarlarını geyməyi, zinət əşyalarını taxmağı xoşlayır və kosmetik vasitələrlə maraqlanırlar. Oğlanlar isə kişilərə məxsus kəmər, döş nişanları, papaq kimi hərbi xarakterli atributlara daha böyük maraq göstərirlər. Uşaqlarda öz cinslərinə aid tipik davranışın yaranmasında ətrafdakıların (valideyn, tərbiyəçi, böyük bacı-qardaş, həmyaşıdlar) femin və maskulin davranışı təbliğ edən gender stereotiplərini özündə ehtiva edən davranışları rol oynayır.

A.Kolberqin **koqnitiv-genetik yanaşmasına** görə, uşağın cinsi-rol inkişafı koqnitiv yetişmədən asılıdır ki, bu zaman uşağın ümumi intellektual inkişafı əsas amil kimi çıxış edir. Burada əsas məlumat mənbəyi kimi böyüklər çıxış edir, uşağın cinsi rollar haqqında baxışları passiv proses olmayıb, uşağın öz sosial təcrübəsinə və umumiləşdirmələrinə əsasən formalaşır. Cinsi sosiallaşmanın birinci mərhələ sində uşağın öz cinsinə aid keyfiyyətlərini dərketmə prosesi gedir və öz cinsinin müsbət cəhətlərini qiymətləndirməyə başlayır.

**Müasir psixoloji cins konsepsiyasının** tərəfdarları olan C.Stokkard, M.Conson təsdiq edirlər ki, qadın və kişi psixologiyası arasında fərqlər o qədər də böyük deyil və əsas bioloji yox, həyat boyu formalaşan sosial cinsdir. Uşaqda öz cinsinə aid xarakterik şəxsi keyfiyyətlərin və maraqların formalaşması onun körpəlikdən cinsə aid davranışı mənimsəməsindən, onu əhatə edənlərin sosial gözləmələrindən asılı olur. Burada məsuliyyət daha çox ailənin və tərbiyəvi təsirlərin üzərinə düşür.

XX əsrin 20 – 30-cu illərində cinsi-rol problemi psixologiya, xüsusilə pedologiya elmləri tərəfindən öyrənilirdi. Bu sahədə A.B.Zalkind, M.M.Rubinşteyn, N.A.Rıbkin və başqaları müəyyən tədqiqatlar aparmışdılar. Hər iki sahədə cinsi diferensiallaşma ilə bağlı fikir müxtəlifliyi özünü göstərirdi ki, bura da da cinsi inkişafda bioloji və sosial faktora üstünlüyün verilməsi onları fərqləndirirdi.

A.İ.Zalujnı, S.S.Molojavıy, A.B.Zalkind və sosio-genetik istiqamətin digər tərəfdarları bioloji faktorun rolunu inkar etməsələr də, cinsi inkişafda sosial mühitin, xüsusilə psixoseksual inkişafda cinsi tərbiyənin əhəmiyyətini sübut etdilər.

Cinsi sosiallaşmanı tədqiq edən müasir psixoloq və pedaqoqlar diqqəti daha çox müxtəlif amillərə və cinsi-rol inkişafının mexanizminə yönəldirlər. T.A.Re-

pina uşağın cinsi identikləşməsinin inkişafında həmyaşıdlarının təsirini xüsusilə vurğulayır. O, yalnız bir mexanizmin tam uyğunluğunu yox, müxtəlif amilləri qeyd edir ki, buraya da təqlid, identifikasiya, ətrafdakı insanların davranışlarının müşahidəsi, cinslər haqqında məlumat və s. daxildir. Bu gün cəmiyyət özü uşaqların uğurlu cinsi-rol sosiallaşmasında, gender rollarının mənimsənilməsində, onlarda qadın və kişi xüsusiyyətlərinin formalaşmasında maraqlıdır. Gender sosiallaşmasında ictimai mühit, tərbiyə aparıcı amillər olmaqla yanaşı, bu prosesin məqsədyönlü olması və gender tərbiyəsinin məktəbəqədər yaş dövründən başlanmasını zəruri edir [Repina T.A., 2004].

Bu gün məktəbəqədər yaş dövrünün gender sosiallaşmasında oğlan və qızların xüsusiyyətlərinin bu aspektdən nəzərə alınması vacib şərt kimi ortaya çıxır. Düzdür, müxtəlif yaş dövrlərində uşaqların gender sosiallaşması eyni səviyyədə getsə də, tədqiqatçı-alimlər oğlan və qızlar arasında spesifik bölgünün mövcudluğunu qeyd edirlər.

Tədqiqatçıların bəziləri belə hesab edirlər ki, gender sosiallaşması oğlanlarda qızlara nisbətən ziddiyyətli və mürəkkəb proses kimi gedir ki, bu da bioloji və sosial amillərlə şərtlənir.

**Psixoanaliz konsepsiyasının** tərəfdarlarına görə, oğlanlar əvvəlcə özlərini anaları ilə identikləşdirsələr də, sonradan erkən yaşdakı qadın identikliyini kişi identikliyi ilə dəyişmək ehtiyacı yaranır. Bu barədə qızlarda heç bir çətinlik olmur, belə ki, onlar həyatlarının ilk günlərindən ana ilə identifikasiya prosesində olurlar. Cinsi-rol sosiallaşmasının özünəməxsusluğu qadın və kişi rollarının identiklik, təqlid obyekti kimi müəyyənləşdirilməsində özünü göstərir, lakin təqlid obyekti kimi qadın rolları daha sadə və anlaşılan hesab edilir. Uşaqlar ananın ailədaxili fəaliyyətini, uşaqların tərbiyəsindəki dominant rolunu, təsərrü fatdakı vəzifələrini (yemək hazırlamaq, ev yığışdırmaq və s.) həmişə müşahidə edə bilirlər, çünki onlar ana ilə daha çox ünsiyyətdə olurlar. Bununla yanaşı, uşaqlar özləri də kiçik bacı-qardaşlarının tərbiyəsində, ev təsərrüfatının idarə edilməsində anaya yardım edirlər. Kişilər uşaqların gender sosiallaş masına qadınlara nisbətən daha az müdaxilə edirlər, belə ki, onlar uşaqların tərbiyə prosesindən müəyyən dərəcədə kənarda qalırlar. Məktəbəqədər yaş dövründə uşaqlar öz atalarının ictimai və peşə fəaliyyətini yerinə yetirmələrini müşahidə etmək imkanından məhrum olduqları üçün öz atalarında ənənəvi kişi xüsusiyyətlərini (cəsarətlilik, güclülük, mərdlik və s.) görə bilmirlər. Oğlanlarda gender sosiallaşması prosesini həm ailədə, həm də məktəbdə artan feministləşmə olduqca çətinləşdirir. Yarımçıq ailələr, kişi müəllimlərin iqtisadi çətinliklər üzündən məktəblərdən getməsi – bütün bunlar oğlanları kişiləri təqlid etmək imkanından məhrum edir.

Cəmiyyətdə mövcud olan sərt gender stereotiplərinin təsiri ilə oğlanlarda sosial mühitin təzyiqi qızlara nisbətən daha çox hiss olunur, onların "əsl kişi xarakteri" tələbinə nə dərəcədə uyğun olub-olmamaları həm valideynləri, həm də həmyaşıdlarını narahat edir, çünki cəmiyyətdə kişilərə xas stereotiplər, qadınlarla

müqayisədə, daha azdır. Tədqiqatçı C. Arçerə görə, oğlan və qızlar məktəbəqədər yaş dövründən yeniyetməlik dövrünə qədər fərqli münasibətlər sisteminə əsaslanan müxtəlif mədəni dünyalarda yaşayırlar. Buna görə də cinslərarası sərhədlərin keçilməsində oğlanlar daha az müstəqilliyə malikdirlər [Solomennikova O., Barannikova N., 2008]. Onların məktəbəqədər təhsil müəssisələrinə və məktəbə getmələri ilə sosial təzyiq güclənir. Burada da tərbiyəçi və müəllimlərin qadın olması onların cinsi-rol tərbiyəsinə öz mənfi təsirini göstərməyə başlayır, çünki pedaqoji kollektivdə kişi müəllimlərin az olması, yaxud heç olmaması oğlanların kişi davranış modelini mənimsəmələrinə mane olur. Bu vəziyyət orta məktəblərə nisbətən məktəbəqədər müəssisələrdə daha qabarıq hiss olunur, çünki burada pedaqoji kollektivlər bütünlüklə qadınlardan ibarətdir.

Oğlanların gender sosiallaşmasına cəmiyyətin və ailənin onlardan gözləntiləri ilə real həyatdakı davranışlarının qiymətləndirilməsi arasındakı fərq də öz təsirini göstərir. Belə ki, oğlanlarda daha çox fəallıq, aqressivlik, mərdlik kimi maskulin keyfiyyətləri görmək istəyən valideyn, onların davranışda tətbiq edilməsindən narahat olur. Ümumtəhsil ocaqlarında pedaqoji prosesdə heç də həmişə oğlanların psixoloji xüsusiyyətləri nəzərə alınmır, çünki təlimin metod və vasitələri daha çox qızların davranış mədəniyyətinə uyğundur, çünki diqqətin cəmlənməsi, nizam-intizamlılıq, uzun müddət, səbrlə müəllimi dinləmək, sakit oturmaq kimi keyfiyyətlər qızlarda özünü daha qabarıq büruzə veririr. Oğlanlar isə daha mütəhərrik, oturmağa çox meyilli olmadıqları, sözə qulaq asmadıqları, tez-tez konfliktlərə girişdikləri üçün daha çox xəbərdarlıq və cəza, aşağı qiymət alırlar. Aparılan tədqiqatlar sübut edir ki, həm ailədə, həm məktəbdə maskulin xüsusiyyətləri büruzə verə bilməmək asosiallığa və deviant davranışa gətirib çıxarır. Beləliklə, oğlanlarda gender sosiallaşması onlara müxtəlif yaş dövrlərində qadınların daha çox təsiri və ətrafdakıların onlara daha sərt gender stereotipləri tələbini qoyması nəticəsində mürəkkəb və ziddiyyətli proses kimi gedir.

Qızlarda gender sosiallaşması daha rahat gedir, belə ki, qızların ana ilə ünsiyyəti onun identikləşmə sini asanlaşdırır, vəziyyəti sabit saxlayır. Onlar təqlid oluna biləcək daha çox insanla əhatə olunurlar ki, buraya ana, nənə, tərbiyəçi, qadın müəllimləri daxil etmək olar. Buna təsir edən amillərdən biri də sosiumun mədəni toplumunda qadınlarla bağlı “daha sərt gender stereotiplərinin olmaması”dır və qadınlara aid keyfiyyətlərin daha müxtəlif və çoxçalarlı olması qızların qadınlıq etalonunu asanlıqla mənimsəmələrinə şərait yaradır [Aleşina Yu.V., Voloviç A. S. 1991]. Buna baxmayaraq, qızların cinsi-rol, gender sosiallaşmasını neqativ amillərdən uzaq, tam sosiallaşma kimi qəbul etmək olmaz. Belə ki, onların ana ilə sıx bağlılığı özlərini subyekt kimi qəbul etmələrinə psixoloji maneə yaradır. Qızların ana ilə identikliyindən yaranan asılılıq onların anadan ayrılmasını çətinləşdirir, yəni bu identiklik və ünsiyyət qızları oğlanlara nisbətən anadan daha çox asılı edir.

Qızların sosiallaşmasına mənfi təsir göstərən amillərdən biri də cəmiyyətdə

qadının rolunun az prestijli və perspektivli olmamasıdır. Belə ki, cəmiyyət kişinin fəaliyyətini sosial baxımdan daha faydalı hesab edir. Müasir dövrdə qadınların kişi dominantlığına əsaslanan cəmiyyətdə karyera pillələrində yüksəlməsinin bir çox çətinliklərlə müşayiət olunması qızların sosiallaşmasına öz təsirini göstərir. Hətta artıq karyeralarını qurmuş qadınlar öz iş həyatlarında femin keyfiyyətlərdən daha çox maskulinliyə üstünlük verməyə başlayırlar.

Uşaqların gender sosiallaşmasında kütləvi informasiya vasitələrinin rolunu da danmaq olmaz və burada daha çox məsuliyyət televiziyanın üzərinə düşür. Bunu xarici tədqiqatçılar da elmi şəkildə əsaslandırmışlar və onların fikrincə, televiziyanın bir çox uşaq verilişlərində qadının rolu kişilərə nisbətdə, ikinci dərəcəli rol kimi verilir: qadınlar nadir hallarda baş rolda olurlar, onların fəaliyyəti az maraq doğurur [Alyoshina Yu.V., Volovich A.S. 1991]. Bunu Azərbaycan məkanında yayımlanan verilişlərə də aid etmək olar. Dövlət televiziya kanalları istisna olmaqla, digər kanallarda, demək olar ki, məktəbəqədər yaş dövründə sosiallaşmaya xidmət edə biləcək televiziya verilişləri yox dərəcəsindədir.

Yayımlanan cizgi filmlərinin qeyri-müəyyən, mürəkkəb süjet xətti hər iki cinsdən olan uşaqlarda aqressiya, zorakılıq formalaşdırır. Qadınların ictimai-sosial rolunun az cəlbedici olması onu təqlid obyekti olmaqdan, demək olar ki, məhrum edir və məhz bu səbəbdən artıq böyük məktəbəqədər yaş dövründə oyun fəaliyyətində qadın roluna nisbətən kişi rollarına, oğlanların oyunlarına üstünlük verən qızların sayı artır. Cinsi rol identikliyi qızlarda oğlanlara nisbətən asan getsə də, sonralar cəmiyyətdə qadınların sosiumda fəal iştirakına sədd qoyan gender stereotipləri bu prosesi ləngidir.

A.N.Kamenskaya pedaqogikada gender yanaşmasının pedaqoji əsaslarını geniş aspektlərdə işləmişdir və onun sistemləşdirdiyi gender tərbiyəsi məktəbəqədər yaş dövrü üçün də aktualdır [A.N.Kamenskaya. 2006]. Belə ki, o, gender pedaqogikasının qanunauyğunluqlarını, prinsiplərini, metod və vasitələrini müəyyən etməklə, bütün yaş dövrlərində aparılacaq gender tərbiyəsinin elmi sistemini yaratmışdır. Eyni zamanda A.N.Kamenskaya cəmiyyətin müxtəlif səviyyələrində (mezosəviyyə, mikrosəviyyə və makrosəviyyə) gender bərabərliyinin aşılanmasının mexanizmlərini hazırlamışdır. Yaşından asılı olmayaraq, müxtəlif yaş dövrlərində aparılacaq gender tərbiyəsində pedaqoqun vəzifələri, təlim və təhsil prosesində gedən sosiallaşmanın xüsusiyyətləri, ona təsir göstərən amillər elmi şəkildə əsaslandırılmışdır. Tədqiqatçı bu sahədə apardığı eksperimentlərlə gender yanaşmasının pedaqoji mahiyyətini tam açmağa müvəffəq olmuşdur. O, gender yanaşmasının yeni elm kimi artıq dünyada mövcud olması və özünü təsdiq edən elmlər sırasına daxil olması qənaətinə gəlmiş, bu elmi istiqamətlə bağlı bütün yaş dövrlərində pedaqoji tədqiqatlara ciddi ehtiyacın olmasını qeyd etmişdir. (Müəllifin bu fikri bizim üçün də məqbuldur, çünki bizim ölkəmizdə də gender yanaşmasının pedaqoji sahədə tədqiqi arzu olunan səviyyədə deyil). A.N.Kamenskaya qeyd edir ki, rus pedaqogika elmində vəziyyət qənaətbəxş deyil: «Rus pedaqoji

elmində gender tədqiqatlarının aparılması bu vaxta qədər tam elmi konsepsiya səviyyəsinə qalxa bilməmişdir. Pedaqoji etikada «gender» termini, hələ ki, tam təqdim edilməmişdir» [А.Н.Каменская. 2006].

A.N.Kamenskaya tədqiqatdan sonra gəldiyi nəticələrlə müasir dövrdə gender yanaşması ilə bağlı pedaqoji sahədəki prioritetləri müəyyənləşdirir. Onun tərəfindən verilmiş gender tərbiyəsinin reallaşdırılmasının mərhələləri cəmiyyətdə gender dəyərlərinin təbliğinə və tətbiqinə hesablanmışdır: «məktəbəqədər yaşlı uşaqların, məktəblilərin, tələbələrin və böyüklərin gender tərbiyəsi» [A. N. Kamenskaya 2006].

Tədqiqatçılar içərisində sosiallaşmada gender identikliyini əsas amillərdən biri kimi qəbul edənlərdən Q. Kelli insanın gender identikliyinin formalaşmasında iki amili xüsusi olaraq qeyd edir:

1. *Antenatal (doğuşaqədər) faktor.* Bu faktorda irsiyyət və dölün ümumi inkişafı əsas rola malikdir. Bu dövrdə cinsi fərqləndirmənin hansı kimyəvi mexanizmin vasitəsilə yaranmasını elm, hələlik, tam aça bilməmişdir.

2. *Çağalıq və körpəlik faktoru.* Uşaq doğulan kimi onun morfoloji cinsi cinsiyyət amilləri əsasında müəyyən edilir və bununla da ilkin gender identikliyinin sosial mexanizmi işə salınır. Tədqiqatçı bu fikrini belə əsaslandırır ki, uşağın cinsiyyətinə görə, fərqləndirici cəhət kimi ona ya çəhrayı (qız üçün), ya da mavi (oğlan üçün) paltar secilir, lakin buna baxmayaraq, hər bir fərddə həm feminlik, həm də maskulinlik elementləri mövcuddur [Q. Kelli. 2000].

Müasir Azərbaycan pedaqogikasında gender yanaşması ilə bağlı tədqiqatlar, demək olar ki, çox azdır. Mən Azərbaycanda gender pedaqogikası sahəsində ilk dəfə məktəbəqədər yaş dövründə gender tərbiyəsi ilə bağlı sistemli tədqiqatlar aparmışam [E.Ə.Mollayeva. 2021]. Gender elmi istiqamətinin Azərbaycan cəmiyyətinin tarixi-sosial inkişafında yerini və rolunu, Azərbaycan təhsil məkanında mövcud olan gender problemlərini, pedaqoji kadr hazırlığında gender aspektlərinin nəzərə alınmasının pedaqoji əhəmiyyətini tədqiqata cəlb etmiş, məktəbəqədər yaş dövründə oğlan və qızların identikliyinin təzahür fərqləri, oyun prosesində cinsi-rol və gender fərqlərinin ortaya çıxması, gender identikliyi nin səviyyələri haqqında və s. araşdırmalar bu tədqiqatda işıqlandırılmışdır.

K.Ağayeva Azərbaycan cəmiyyətində mövcud olan sosial-əxlaqi davranışın etik-gender təhlilini aparmış və ailə tərbiyəsində gender probleminə yanaşmanı da pedaqoji-psixoloji istiqamətdə əsaslandırmışdır [K.Ağayeva. 2009]. Müəllif gender stereotiplərini, kişi və qadınlara xas olan davranış və normaların bölgüsünü bütün yaş dövrlərinin gender tərbiyəsində ciddi maneə törədən problemlər kimi xarakterizə etmişdir. Tədqiqatında «qız», «oğlan» tərbiyəsindəki spesifik xüsusiyyətlərdən söz açan müəllif qızın tərbiyəsinə daha çox diqqət yetirmişdir ki, bu da tərbiyə prosesində cinslərə münasibətdə gender asimmetriyasını ifadə edir: «Qız uşaqlarının tərbiyəsi isə öz spesifik xüsusiyyətləri ilə fərqlənir.

Tarixən, demək olar ki, bütün dünyada qızlar zəif cins hesab edilmiş, onların tərbiyəsi ailənin diqqət mərkəzində olmuşdur. Bu cəhətdən azərbaycanlı ailəsində də qız övladlarının tərbiyəsi bir sıra özəllikləri ilə fərqlənir. Bir şərq ölkəsi olmaq etibarilə, qızlar hələ kiçik yaşlarından gələcək ailə həyatına alışdırılır. Bu səbəbdəndir ki, Azərbaycan ailəsi tarixən möhkəm sütunlara malik olmuşdur» [K.Ağayeva. 2009].

O.A.Karabanova qeyd edir ki, oğlan və qızlara göstərilən müxtəlif özünə məxsus münasibətlər, valideynlərin özləri tərəfindən dərk olunmaqla, tərbiyə prosesində uşaqların gender fərqlərini nəzərə alır. Atalar oğlanları ilə münasibətdə qızlara nisbətən daha ciddi olurlar və onlara qarşı hətta fiziki cəzalar da tətbiq edirlər. Analar isə oğullarına münasibətdə özlərini daha mərhəmətli aparır, qızlarından isə daha çox itaətkarlıq tələb edirlər. Uşaqların cinslərə görə fərqləndirilməsi tərbiyə zamanı qarşılarına qoyulan müxtəlif vəzifələrdə də özünü büruzə verir: məktəbəqədər yaş dövründən başlayaraq, bütün yaşlarda oğlanları daha çox sərbəstliyə və strateji düşüncəyə, qızları isə asılılıq və itaətə yönəldirlər [O.A.Karabanova. 2005].

Uşaqların ailə daxilində gender tərbiyəsinə müxtəlif amillər də – ər-arvad arasındakı münasibətlər, ailədə uşaqların sayı, onların arasındakı yaş fərqləri, fərdi xüsusiyyətləri də təsir göstərir. Məktəbəqədər yaş dövründə atanın tərbiyə prosesində iştirakı gender baxımından çox önəmlidir. Belə ki, atanın uşaqların tərbiyəsində fəal iştirakı qızlarda kişi etalonunun dərk edilməsində, oğlanlarda isə maskulin keyfiyyətlərin intişarında öz əksini tapır. Ailə daxilində mürəkkəb və ziddiyyətli münasibətlər hökm sürərsə, bu zaman «ana və qız ataya qarşı», «ata və oğul anaya qarşı» xarakterli qruplaşmalar meydana gəlir. Bu da uşaqların şəxsiyyətinin ahəngdar formalaşmasına mənfi təsir göstərir.

## Nəticə / Conclusion

Aparılan araşdırmalardan bu nəticəyə gəlirik ki, müasir dövr mürəkkəb sosial-iqtisadi vəziyyətdə qadın və kişilərin sosial rolları arasındakı fərqlərin silinməsi ilə səciyyələnir ki, bu da sosiallaşmaya öz təsirini göstərməyə bilməz, lakin bu təsir müxtəlifliyi ilə seçilir və müasir dövrə aid olan cinsi rollarda kı ziddiyyət iki növə ayrılır. Qızlarda bu ziddiyyət qadının ənənəvi rolu ilə müasir dövrdəki rolu arasındakı əksliklərlə, işləyən qadınla evdar qadın arasındakı fərqlərlə, vəzifədə olan qadında daha çox maskulin keyfiyyətlərə üstünlük verilməsi ilə şərtlənir.

Oğlanlarda bu ziddiyyət özünü onların maskulin keyfiyyətləri ilə cəmiyyətin davranış normaları arasındakı fərqlərdə büruzə verir. Ümumiyyətlə, hər iki cinsin gender sosiallaşması müasir dövrün mürəkkəb və birmənalı olmayan münasibət-

ləri fonunda gedir ki, bu da öz mənfi təsirini göstərməyə bilməz. Bu gün cəmiyyətin bütün sahələrinə sirayət etmiş gender stereotipləri ilə hər iki cinsin real həyatdakı sosial vəziyyəti arasındakı fərqlər oğlanlarda passivliyə, qızlarda isə hiperaktivliyə şərait yaradır.

Oğlan və qızların sosiallaşması proseslərinin hər biri özünəməxsusluğu ilə xarakterikdir. Belə ki, bu proses oğlanlar üçün müasir kişi obrazının mücərrəd maskulin dəyərlərini çətinliklə qavraması ilə səciyyələnirsə, qızlar üçün qadın obrazı daha aydın və dəqiqdir. Bundan əlavə, gender aspektində cəmiyyətin oğlanların qarşısına qoyduğu tələblər daha sərtdir. Qızların qadın davranış modelini asanlıqla mənimsəmələri ilə bu modeli həyatda reallaşdırmaları arasındakı ziddiyyət qadın modelinin çox gəlir gətirən və perspektivi olmamasından, təqlid etməyə daha az motivasiyanın olmasından qaynaqlanır.

**Ədəbiyyat / References**

1. Ağayeva K.C. (2009). Azərbaycan cəmiyyətində sosial-əxlaqi davranışın etik-gender təhlili. Fəlsəfə üz.f.dok.dis. Bakı.
2. Əlizadə Ə.Ə. (1986). Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı, “Maarif”.
3. Mollayeva E.Ə. (2021). Pedaqoji kadr hazırlığının gender aspektləri. Bakı, “Elm və təhsil”.
4. Alyoshina Yu.V., Volovich A.S. (1991). Problemi usvoeniya roley mujchin i jenshin. «Voprosi psikhologii», № 4.
5. Bern Sh. (2001). Gendernaya psikhologiya. S.Pb. Praym-Yevroznak. M. OLMA _PRESS.
6. Kamenskaya A.N. (2006). Genderniy podxod v pedagogike. Diss... dok. ped. nauk. Rostov-na-Donu.
7. Karabanova O.A. (2005). Psikhologiya semeynikh otnosheniy i osnovi semeynogo konsultirovaniya. Moskva.
8. Kelli G. (2000). Razvitie gendera i sosialnie podxodi k nemu. Osnovi sovremennoy seksologii. Moskva, S.Pb.
9. Kolesov D.V. (1986). Besedi o polovom vospitanii. Moskva.
10. Kon İ.S. (2003). Rebenok i obshestvo. Moskva, «Akademiya».
11. Popova L.V. (2004). Gendernie osobennosti psikhicheskogo razvitiya v doshkolnom vozraste . «Detskiy sad ot A do Ya», № 2.
12. Repina T.A. (2004). Problema polo-rolevoy sosializasii detey. M, Voronej.
13. Solomennikova O., Barannikova N. (2006). Rol semyi v gendernoy sosializasii detey doshkolnogo vozrasta. «Detskiy sad ot A do Ya », № 1.

# PEDAGOGICAL AND PSYCHOLOGICAL BASES OF PREPARATION OF CHILDREN FOR SCHOOL TRAINING

**Sharafat Bakhishova**
Associate Professor, Department of pedagogy and methods of preschool education, ASPU, Doctor of Philosophy in Pedagogy;
E-mail: sharafat_baxishova1960@mail.ru
https://orcid.org/0000-0002-7848-2068

**Abstract.** The article notes that the motivation that will create cognitive activity in children, the right choice of teaching methods, forms of work, purposeful strategy based on the stages of the lesson also serve the development of logic and thinking.In the course of cognitive activity, children's critical, creative thinking develops. Logical thinking is a habit that a person needs in all areas of life. Logic serves to develop children's thinking, to increase their thinking skills and intellectual levels, to form more meaningful and detailed knowledge, skills and habits.

**Keywords:** children of preschool age, cognitive activity, logical thinking, development of reason and intelligence, the personal focused activity, means, improvement of quality.

**To cite this article:** Bakhishova Sh. (2021) Pedagogical and psychological bases of preparation of children for school training**.** *Journal of Preschool and Primary Education*, V. 235, İssue II, pp. 21-33
**Article history:** Received – 10.2021; Accepted – 23.04.2021

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA MƏNTİQİ VƏ RİYAZİ TƏFƏKKÜRÜN İNKİŞAFI

**Şərafət Baxışova**
ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru;
E-mail: sharafat_baxishova1960@mail.ru
https://orcid.org/0000-0002-7848-2068

**Annotasiya.** Məqalədə məktəbəqədər yaşlı uşaqlarda məntiqi və riyazi təfəkkürün inkişafından söhbət gedir. Qeyd olunur ki, təhsil sahəsində islahatlar dövründə idrak prosesinin mükəmməl təşkili inkişafetdirici təlimin həyata keçirilməsini, təhsilin bütün pillələrinin bu proseslə əhatə olunmasını tələb edir. Uşaqlarda idrak fəallığı yaradacaq motivasiya, mövzuya uyğun düzgün seçilmiş təlim üsulları, iş formaları, məşğələnin mərhələlərinə uyğun qurulmuş məqsədli strategiyanın özü də məntiqin, təfəkkürün inkişafına xidmət edir. İdrak fəaliyyətinin gedişində uşaqların tənqidi, yaradıcı təfəkkürü inkişaf edir. Məntiqi təfəkkür həyatın bütün sahələrində insana lazım olan xüsusiyyətdir. Məntiq uşaqların təfəkkürünü inkişaf etdirməyə, onların düşünmə qabiliyyətlərini, intellektual səviyyələrini yüksəltməyə, bilik, bacarıq və vərdişlərinin daha məzmunlu, ətraflı formalaşmasına xidmət edir.

**Açar sözlər:** məktəbəqədər yaşlı uşaqlar, idrak fəallığı, məntiqi təfəkkür, əqli və intellektual inkişaf, şəxsiyyət, keyfiyyətin yüksəldilməsi, vasitələr.

**Məqaləyə istinad:** Baxışova Ş. (2021) Məktəbəqədər yaşlı uşaqlarda məntiqi və riyazi təfəkkürün inkişafı «Məktəbəqədər və ibtidai təhsil», № 2 (235), səh. 21-33
**Məqalə tarixçəsi:** göndərilib – 15.04..2021; qəbul edilib – 29.04.2021

## Giriş / *Introduction*

Bu gün məktəbəqədər təhsilə yanaşma dəyişir. Müasir təhsil uşaqlara yalnız bilik verməyi deyil, onlarda müəyyən bacarıq və vərdişlərin inkişaf etdirilməsini də tələb edir. Uşaqları müstəqil həyata hazırlamaq şəxsiyyətyönümlü təhsilin əsas məqsədidir.

Həqiqətən də, məktəbəqədər təhsil bütün təhsil sisteminin bünövrəsidir, çünki məhz bu mərhələdə uşağın şəxsiyyət kimi formalaşmasının təməli qoyulur. Məktəbəqədər təhsil uşaqların potensial imkanlarının üzə çıxarılmasında, məktəbə hazırlanmalarında, onlarda mədəni keyfiyyətlərin, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq, eləcə də həyati bacarıqların formalaşmasında mühüm rol oynayır.

Son zamanlar uşaqlarda məntiqi düşüncə qabiliyyətinin inkişaf etdirilməsinə xüsusi fikir verilir. Uşaqların şəxsiyyət kimi formalaşmalarında təfəkkürün inkişafı çox mühüm amildir. Fəal təlimin əsas üstünlüyü ondan ibarətdir ki, uşaqların idrak fəallığını artırır, onları düşündürür, mühakimələr yürütməyə, sərbəst, müstəqil qərarlar qəbul etməyə yönəldir.

Hazırda yeni qurulan təhsildə idraki inkişafın parametrlərini nəzərə almaq, ona imkan və şərait yaratmaq əsas amil hesab edilir. Məktəbəqədər yaşlı uşaqlarda idrakın inkişaf səviyyəsi öyrənmə marağında, biliyə yiyələnmədə, biliyi dərketmə qabiliyyətində özünü göstərir ki, bu da uşağın həyat tərzindən və onu əhatə edən mühitdən çox asılıdır.

## Əsas hissə /*Main Part*

24 oktyabr, 2013-cü ildə imzalanmış "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda məktəbəqədər yaşlı uşaqların fiziki və əqli inkişafını, sosiallaşmasını təmin edən, yaradıcılıq qabiliyyətlərini üzə çıxaran, onlara həyati bilik və bacarıqları, davranış qaydalarını aşılayan təhsil standartlarının və yeni kurikulumların hazırlanması məsələləri əks olunur və qeyd edilir ki, "...təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərində əldə edildiyinə görə, uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur" [Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 2013-cü il, 25 oktyabr].

Məktəbəqədər təhsilin kurikulumu da [Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu). 2014] uşaqların şəxsiyyət kimi formalaşdırılmasına yönəlib. Əsas məqsəd də yüksək intellektual hazırlığa malik olan, qazandığı biliklərdən həyatın bütün sahələrində istifadə etməyi bacaran fəal, şüurlu, məsuliyyətli, konstruktiv şəxsiyyətin yetişdirilməsindən ibarətdir.

Təhsilin ilk pilləsi olan məktəbəqədər təhsil uşaqların intellektual, fiziki və

psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnmələrini, istedad və qabiliyyətlərinin aşkara çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini təmin edir. Ağlın, intellektin inkişaf etdirilməsi ön plana çəkilir. Dünya təhsil sistemində sadəcə bilik, bacarıqlar deyil, şəxsiyyətin inkişaf etdirilməsində dəyərlər, səriştələr də qiymətləndirilir və bugünkü təhsilin keyfiyyət göstəricisi kimi qəbul edilir.

Şəxsiyyətin formalaşmasında məktəbəqədər dövrün rolu böyükdür. Bu dövrün xüsusiyyətləri inkişafın sonrakı mərhələlərindən fərqlənir. Hər hansı xüsusi bilik, bacarıq, vərdişlərin əldə edilməsi, müxtəlif növ fəaliyyətlərin mənimsənilməsinin əsası məhz bu dövrdən başlayır və uşağın ümumi inkişafını təmin edir.

Professor Y. Kərimov insanın şəxsiyyət kimi formalaşmasında onun fəallığının mühüm rol oynadığını qeyd edərək, şəxsiyyətdə üç əsas cəhəti fərqləndirməyin mümkünlüyünü göstərir:

1) Fəallıq idraka, ətraf aləmdəki dəyişikliklərə, insanın şəxsi təbiətinin dəyişməsinə, psixi həyat tərzində baş verənlərin korrektəsinə (özünütərbiyəyə) yönəlmiş çoxtərəfli fəaliyyətdə özünü göstərir.

2) Şəxsiyyətin imkanları onun fəaliyyətində olan müvəffəqiyyətlərin psixoloji şərtlərini (xüsusilə qabiliyyəti) əhatə edir.

3) Şəxsiyyətin davranış üslubu psixoloji xüsusiyyətləri (temperament və xarakter) əhatə edir. Fəallıq ətraf aləmlə qarşılıqlı fəaliyyət prosesində meydana çıxır. [Y.Kərimov. 2010].

Məktəbəqədər təhsilin məzmunu sistemli xarakter daşıyır. Bu, uşağın dərk etdiyi obyekt və hadisələr arasında qarşılıqlı əlaqəni təmin edir. Bununla da uşağın idrakının məlumat dairəsi genişlənir və nəticədə artıq böyük məktəbəqədər yaşlı uşaq qazanılmış biliklər sistemində yeni əlaqələr qurmaq bacarığını mənimsəyir. Bu bacarıq dərketmə vasitəsi kimi çıxış edir, həmçinin, konkret çərçivədən çıxmağa imkan verir. Özünüreallaşdırma, özünütəqdimetmə müasir insanın ən mühüm keyfiyyətlərindən biridir. Təlim-tərbiyə prosesində bu işin dəstəklənməsi, onun tərbiyəçi və uşaq fəaliyyətinin mərkəzinə gətirilməsi xüsusilə əhəmiyyətlidir. Bunun bir mühüm yolu da təfəkkür müstəqilliyini təmin edən tapşırıqların verilməsidir.

Məşğələlər vasitəsilə uşaqların inkişafını təmin etmək, izləmək mümkün olur. Uşaqlar dərketmənin müxtəlif mərhələlərində anlama, tətbiqetmə, təhliletmə və s. bacarıqlar nümayiş etdirirlər. Hazırda məşğələnin məzmununda uşaqlarda humanist mövqenin inkişafı, uşaqlar üçün seçim situasiyası, yaradıcı axtarış, problemin həlli, məşğələdə ünsiyyət və əməkdaşlıq bacarıqları, özünütənzimləmənin, özünüdərkin, refleksiyanın öz əksini tapması, uşaqların idrak fəallığını inkişaf etdirməyə imkan verən metodların seçilməsi mühüm şərtlərdir.

İdrak fəallığının yüksəldilməsi metodlarına müqayisə, sual-cavab metodu, təkrarlama metodu, məntiqi tapşırıqların həll edilməsi, tədqiqatçılıq və s. daxildir. Bu metodlardan istifadə etməklə uşaqların məşğələlərdə fəallıq göstərmələ-

rinə, diqqətlə və həvəslə işləmələrinə imkan yaranır. Biliklərə yiyələnərkən uşaqlar yalnız onun məzmununu mənimsəmir, həm də öz idraki imkanlarını, maraq və meyillərini inkişaf etdirir, fikirləşməyi, axtarmağı, yaratmağı öyrənirlər. Bu baxımdan tədris fəaliyyəti şəxsiyyətin formalaşmasının ən mühüm mənbəyidir. Hazırda yeni qurulan təhsildə idraki inkişafın parametrlərini nəzərə almaq, ona imkan və şərait yaratmaq əsas amil hesab edilir. Təhsili bilavasitə inkişafyönümlü proses kimi stimullaşdırmaq əsas vəzifəyə çevrilir.

Uşaqların idrak fəallığının izlənilməsi, inkişaf səviyyələrinin, nailiyyətlərinin təhlil edilməsi, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsinin tənzimlənməsi onun inkişafyönümlülüyünü meydana çıxarır. Uşaqlar müxtəlif yollarla öyrənir, öyrəndiklərini də müxtəlif yollarla nümayiş etdirirlər. Ona görə də kiçik yaşlı uşaqlar üçün səmərəli təlim prosesi təşkil olunmalıdır. Səmərəli təlim odur ki, planlaşdırmada, təlim zamanı hər bir uşağın inkişaf səviyyəsi, maraq dairəsi, inkişaf prinsipləri nəzərə alınır, uşaqların yeni məlumatlar əldə etmələri və hərtərəfli inkişafı təmin olunur. Bu proses o zaman səmərəli olur ki, uşağın inkişaf göstəriciləri və tərbiyəçinin hazırlıq səviyyəsi inkişafetdirici təlimi reallaşdırmağa imkan versin.

İnkişafetdirici təlim sistemi bilik, bacarıq və vərdişlərin təmin olunması ilə yanaşı, uşaqda yeni biliklərin müstəqil əldə edilməsi üsullarını da formalaşdırır. Yalnız onda bu biliklər uşağın müstəqil idrak fəallığının həyata keçirilməsi prosesində qabiliyyətlərin formalaşmasına təsir göstərir. Bu, həmçinin təhsil prosesinin məzmununa, emosional – dəyərli münasibətin təmin olunmasına və şəxsiyyətin humanist istiqamətdə formalaşmasına şərait yaradır.

İnkişafetdirici təlim deyərkən, təlim prosesinin yeni – fəal növü başa düşülür. Təlimin qarşısında duran vəzifənin müvəffəqiyyətlə həll edilməsi üçün, o, ilk növbədə, inkişafetdirici olmalıdır. İnkişafetdirmə uşağın ümumi intellektual səviyyəsinin formalaşması ilə bağlıdır. İnkişafetdirici təlim yalnız o halda produktiv təfəkkürün inkişafını təmin edir ki, öyrənənin bütün idrak prosesləri aktiv fəaliyyətə cəlb edilsin. İnkişafetdirici təlim yalnız güclü və orta səviyyəli uşaqların deyil, zəiflərin də yaradıcılıq potensialını nəzərə çarpacaq dərəcədə artırır.

İnkişafetdirici təlimin əsas məqsədi informasiya mübadiləsi, bilik, bacarıq və vərdişlərin verilməsi, mənimsənilməsi deyil, insanın yaradıcı qüvvələrinin inkişafının özüdür, yaxud özünüinkişafdır. Uşaqlara öyrənməyi öyrətmək, onlarda hər şeyi öyrənmək həvəsini inkişaf etdirmək, biliyə maraq və tələbat yaratmaq zəruridir.

İnkişafetdirici təlimin həyata keçirilməsi zamanı aşağıdakı şərtlərin nəzərə alınması məqsədəmüvafiqdir:

1. Öyrənən müvafiq bilik ehtiyatına malik olmalıdır. Bunsuz qoyulan problemlərin, yaxud qarşıya çıxan çətinliklərin həll olunması mümkün deyil. Məlumdur ki, insan ona məlum olmayan sahəyə məxsus problemi həll edə bilməz. Bütün idrak prosesləri kimi, yeni problemin də həlli uzunmüddətli hafizənin qoruyub

saxladığı biliklərə əsaslanır.

2. Öyrənənin yeni problemi dərk etmək, problemin həlli üçün zəruri olan faktları, məlumatları təhlil etmək, müqayisə etmək, fərziyyəni irəli sürüb, onun doğru olub-olmadığını yoxlamaq, nəticə çıxarmaq, mövcud bilikləri yeni situasiyaya tətbiq etmək, diskussiya zamanı öz mövqeyini müdafiə etmək və s. bacarıqlara malik olması vacibdir.

Beləliklə, reproduktiv təfəkkürü inkişaf etdirən ənənəvi təlimdən fərqli olaraq, inkişafetdirici təlim produktiv təfəkkürün inkişafına səbəb olur. İnkişafetdirici təlimin əsas fərqləndirici cəhəti onun yaradıcı xarakter daşımasıdır. İnkişafetdirici təlim öyrənəndən daha çox müstəqillik, öz qüvvə və imkanlarına inam tələb edir.

İnkişafetdirici təlimin müvəffəqiyyətini təmin etmək məqsədi ilə şəxsiyyətin inkişafının xüsusiyyətlərini, onun qanunauyğunluqlarını nəzərə almaq vacib amildir.

Formalaşma və inkişaf – **immanentlik** xüsusiyyəti şəxsiyyətin son dərəcə mühüm xüsusiyyətidir. İmmanentlik – latınca *immanentis* – hər hansı əşya və hadisəyə xas olan xüsusiyyəti, qanunauyğunluğu bildirən anlayışdır. Bu anlayış aşağıdakı amilləri özündə ehtiva edir:

– şəxsiyyətin formalaşması və inkişafında irsiyyət amilinin rolunun böyük olması (biogen xüsusiyyət);
– şəxsiyyətin formalaşması və inkişafına sosial mühitin təsiri (sosiogen xüsusiyyət);
– şəxsiyyətin özünü idarə edən və özünü tənzimləyən mürəkkəb sistem olması;
– şəxsiyyətin özünəməxsus xüsusiyyətləri, fərdi inkişaf variantı olan təkrarolunmaz bir varlıq olması (fərdilik xüsusiyyəti);
– şəxsiyyətin inkişafının ümumi dialektik qanunauyğunluqlar əsasında baş verməsi (mərhələli inki şaf);
– hər şəxsiyyətin özünəməxsus inkişaf tempinin olması (qeyri-bərabər və ziddiyyətli inkişaf);
– psixi inkişafın kəmiyyət və keyfiyyət dəyişmələri ilə, fiziki dəyişmələrlə müəyyən edilməsi [F.A.Rüstəmov, T.Y.Dadaşova. 2007].

Beləliklə, məlum olur ki, inkişafetdirici təlimi təşkil edərkən müvəffəqiyyət qazanmaq üçün həm şəxsiyyətin inkişaf qanunauyğunluqlarını, həm də hər bir fərdin özünəməxsus xüsusiyyətlərini, inkişaf səviyyələrini nəzərə alaraq, müvafiq şərait yaratmaqla qabaqlayıcı metod və texnologiyalardan istifadə etmək zəruridir.

Yaxşı təşkil olunmuş ənənəvi təlim, söz yox ki, şəxsiyyətin inkişafı üçün müvafiq şərait yaradır, lakin tədqiqatlar göstərir ki, ənənəvi təlim şəxsiyyətin intellektual inkişafını, digər psixi proses və keyfiyyətlərin yüksək inkişaf səviyyəsini təmin edə bilmir. Ənənəvi təlim prosesində öyrənənin yeni kəşflər etməsi vəzifəsi

qarşıya qoyulmur, yalnız biliklərin yaradıcılıqla mənimsənilməsi tələb olunur. Bu zaman öyrənən yeni faktları, hadisələri dərk edir. Gerçəkliyin öyrənənin beynində əks olunması aktiv idraki fəaliyyət prosesində həyata keçir.

Deməli, şəxsiyyətin tam inkişafını təmin etmək məqsədilə inkişafetdirici təlimin təmin olunması vacibdir. İnkişafetdirici təlim öz məqsəd və vəzifələrinə, iştirakçıların (öyrədən və öyrənənlərin) fəaliyyətinin xarakterinə görə ənənəvi təlim texnologiyalarından prinsipial surətdə fərqlənir. Belə ki, inkişafetdirici təlim məşğələlərində məqsəd sadəcə nəzərdə tutulan fikri, mövzunu aydın izah edib, uşağı başa salmaqdan ibarət deyil. Əslində, həmin mənimsəmə uşağın anatomik-fizioloji və psixoloji imkanları daxilində olan mənimsəmədir, uşağın öz inkişafıdır. İnkişafetdirici təlim nəzəriyyədə və təcrübədə uşaqların potensial imkanlarından istifadə etməklə fiziki, idraki, əxlaqi qabiliyyətlərinin inkişafına yönələn istiqamətdir.

Məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlər, loqopedlər və uşaqları əhatə edən digər işçilər peşəkar olmalıdırlar. Onlar uşağın simasında bir şəxsiyyət, insan görməli, emosional bacarığa malik olmalı, uşaq anatomiyası və psixologiyasını bilməli, uşaqların problemlərini başa düşməli, nitqində, psixi inkişafında pozulmaları olan uşaqlarla işləməyi bacarmalıdırlar. Tərbiyəçi-müəllimin başlıca vəzifəsi idraki fəaliyyəti aktivləşdirməkdir. Bunun müvəffəqiyyətli həlli üçün uşaqların idraki maraqlarının inkişafına xidmət edən metodlar, fəaliyyət motivlərini formalaşdıran şərait yaradılmalıdır ki, onlarda fəaliyyət prosesinə maraq inkişaf etsin.

Tərbiyəçi-müəllimin hazırlıq göstəriciləri müəyyən edilərkən onun pedaqoji savadı, qabiliyyətləri, pedaqoji mədəniyyəti və peşəkarlığı – uşaqlara məhəbbəti, qayğısı, hörmətlə yanaşması, uşaq psixologiyasını bilməsi, təlimə maraq yaratması, təşkilatçılıq bacarığı, yaradıcılığı, mədəni davranış normalarına malik olması nəzərdə tutulur.

Fəaliyyətin, şüurun və şəxsiyyətin vahidliyi prinsipinə əsaslanaraq üç aspekt – şəxsiyyətyönümlü, fəaliyyətyönümlü və refleksiv (düşünülmüş) aspektlər əsas götürülərək aşağıdakı göstəricilər müəyyən edilmişdir:

1. Şəxsiyyətyönümlü hazırlıq:
   a) pedaqoji təfəkkür (qnostik qabiliyyətlər);
   b) tərbiyəçinin təşkilatçılıq qabiliyyətləri;
   c) tərbiyəçinin pedaqoji istiqaməti (kommunikativ qabiliyyətlər).
2. Peşəkarlıq səviyyəsinin göstəriciləri:
   a) pedaqoji takt (layihələndirmə qabiliyyəti).
3. Refleksiv hazırlığın göstəriciləri:
   a) refleksiv qabiliyyətlər.

Bu göstəricilərə əsaslanaraq, pedaqoji fəaliyyətin formalaşdırılmasında səviyyələr belə müəyyənləşdirilmişdir – pedaqoji fəaliyyəti səciyyələndirən əsas cəhət onun məhsuldarlığıdır:

– məhsuldarlığı aşağı olan səviyyə;
– məhsuldar (sistemli-modelləşdirilmiş) səviyyə;
– yüksək məhsuldarlığı (qlobal-modelləşdirilmiş) olan səviyyə.

Axırıncı iki səviyyə pedaqoji ustalığı xarakterizə edir və tərbiyəçi-müəllimin məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimi reallaşdırmağa hazır olduğunu göstərir.

Beləliklə, fəaliyyətin, şüurun və şəxsiyyətin vahidliyi prinsipi və pedaqoji prinsiplər (sosial-mədəni, şəxsiyyətyönümlü, fəaliyyətyönümlü) məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin, şəxsiyyətyönümlü yanaşmanın konseptual məzmununu təşkil edir. Təlim prosesində təfəkkürün intensiv inkişafı üçün tədrisi yüksək çətinlik səviyyəsində təmin etmək və uşaqların öz təlim fəaliyyətlərini dərk etmələrinə nail olmaq lazımdır.

Məktəbəqədər yaşlı uşaqlarda idrakın inkişafı onlarda öyrənməyə həvəs və maraq formalaşdırır. Onların idrak fəaliyyətində sistemlilik, ardıcıllıq, əlaqəlilik, həyat şəraitinə uyğunluq və tətbiqetmə mühüm şərt hesab olunur. Uşaqlar təmasda olduqları əşyaların adlarını, əlamətlərini, hərəkətlərini düzgün ifadə edir, bu istiqamətdə məntiqi mühakimə yürütmək, düzgün, sadə ümumiləşdirmələr aparmaq, əqli nəticəyə gəlmək qabiliyyəti nümayiş etdirirlər.

Dərketmə üzrə uşağın yerinə yetirdiyi tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyasını, məkan və zaman haqqında təsəvvürlərini genişləndirir. Riyazi tapşırıqların həlli zamanı uşaqlarda i*nduksiya – deduksiya, ümumiləşdirmə – konkretləşdirmə, təhlil – tərkib, təsnifetmə – sistemləşdirmə, mücərrədləşdirmə – analogiya* kimi mühakimə qabiliyyətləri inkişaf edir.

Məntiqi və riyazi təfəkkürün inkişafına dair məşğələlər məktəbəqədər yaşlı uşaqlarda sadə riyazi biliklər haqqında təsəvvür yaradır. Məşğələlərdə istifadə olunan metodik priyomlar, təcrübi fəaliyyətlə oyun fəaliyyətinin əlaqələndirilməsi, məntiqi mühakimə uşaqlarda elementar riyazi təsəvvürlərin formalaşdırılmasını təmin edir.

Məşğələlər üzrə verilmiş icmalların əksəriyyətində riyazi məsələlər uşaqların başqa fəaliyyət növləri ilə əlaqələndirilir və inteqrativ xarakter daşıyır.Təlim zamanı qarşıya qoyulan məqsədlərin uşaqlar tərəfindən müstəqil icra olunmasına, metod və üsulların seçilməsinə, tapşırığın düzgün yerinə yetirilməsinin yoxlanılmasına xüsusi diqqət yetirilir. Məşğələlər uşaqlara birbaşa riyazi biliklər verməklə yanaşı, həm də onların ümumi intellektual inkişafına şərait yaradır.

Təlim prosesində, idrak fəaliyyətinin məqsədindən asılı olaraq, icmallarda müxtəlif iş formaları (cütlərlə, qruplarla, kollektiv) öz əksini tapmışdır. Bu iş formaları uşaqlarda problemin birlikdə həll edilməsi, müstəqil işləmək, əməkdaşlıq etmək və sərbəst fikir söyləmək kimi keyfiyyətlər tərbiyə edir.

Məşğələlər zamanı uşaqlar 10-a qədər saymaq, həndəsi fiqurlar haqqında elementar məlumatlar, məkana və zamana görə səmtləşmə, tək və cüt rəqəmlər, sıra və miqdar sayları haqqında sadə hesab məsələləri tərtib və həll etmək, məntiqi

təmrinləri yerinə yetirmək kimi biliklərə yiyələnirlər. Bütün bu bilik və bacarıqlar didaktik oyunlarla möhkəmləndirilir.

**Mövzu: Həndəsi fiqurlar**

**Standart:** 2.2.2. Əşyaların içərisindən dairəni, üçbucağı, kvadratı seçir, fərqləndirir və müqayisə edir.

**Məqsəd:**

1. Həndəsi fiqurları fərqləndirir.
2. Həndəsi fiqurların (üçbucaq, kvadrat, düzbucaqlı, dördbucaqlı) xüsusiyyətlərini sadalayır.

3 Həndəsi fiqurları müxtəlif əlamətlərinə görə qruplaşdırır.

**İnteqrasiya:**

2.3.2. Səbəb-nəticə əlaqələrini müəyyənləşdirir.

4.1.2. Problemin həllini axtararkən özünəinam, təşəbbüskarlıq və müstəqillik nümayiş etdirir.

**İş formaları:** qruplarla iş, kollektiv iş, fərdi iş.

**İş üsulları:** əqli hücum, müzakirə, sual-cavab.

**Resurslar:** tərbiyəçi-müəllim üçün top; uşaqlar üçün müxtəlif rənglərdə, ölçülərdə, formalarda olan həndəsi fiqurlar dəsti (20 ədəd)

## Məşğələnin gedişi

**Motivasiya.** Uşaqlara müxtəlif şəkillər göstərilir. Onlar gördükləri şəkillər haqqında danışırlar. Tərbiyəçi-müəllim şəkillərdə təsvir olunanların hansı həndəsi fiqurlara bənzədiyini soruşur. Uşaqların fikirləri dinlənilir.

**Dərketmə mərhələsi.** «Fiqurları ayır»

Uşaqlar masa arxasında otururlar. Stolun üstündə, uşaqların qarşısında həndəsi fiqurlar var. Tərbiyəçi – müəllim fiqurların adlarını deməyi təklif edir və uşaqlara tapşırıq verir.

**Tərbiyəçi:** – Dairələrin hamısını kənara qoyun. Onların ölçüləri və rəngləri necədir?

**Tərbiyəçi**:– Yaşıl fiqurları kənara qoyun. Onlar hansı formadadır? Cəmi neçə fiqur var?

**Tərbiyəçi:**– Dördbucaqlıları kənara qoyun. Onları daha necə adlandırmaq olar? Burada neçə müxtəlif dördbucaqlı var?

**Tərbiyəçi:** – Üçbucaqdan başqa bütün fiqurları kənara qoyun. Kənara qoyulan fiqurlar hansılardır?

**«Davam etdir» oyunu**. Oyunu həm qrup otağında, həm də həyətdə keçirmək olar. Uşaqlar dairədə dayanırlar. Tərbiyəçi-müəllim dairənin mərkəzində dayanır. O, topu uşaqlardan birinə atıb, hər hansı bir ədədi söyləyir. Topu tutan uşaq ondan sonra gələn 2–3 ədədi söyləyib, topu tərbiyəçi-müəllimə atır. Tərbiyəçi-müəllim topu başqa uşağa atır və beləliklə, oyun davam edir.

Oyunu başqa variantlarda da aparmaq olar.

**«Əvvəl və sonra».** Tərbiyəçi-müəllim topu uşaqlardan birinə atır və deyir: «5-ə qədər say». Uşaq 5-ə qədər sayır. Sonra tərbiyəçi topu başqa uşağa atıb deyir: «5-dən sonra gələn ədədləri say». Uşaq sayır: 6, 7, 8 və s. Oyun cəld tempdə aparılır.

**«Tərsinə».** Uşaqlar dairədə dayanırlar. Tərbiyəçi-müəllim dairənin mərkəzində dayanır və topu uşaqlardan birinə atıb, bir söz söyləyir. Uşaq bu sözün əksini deməlidir, məsələn, tərbiyəçi-müəllim deyir: «İrəli». Uşaq cavab verir: «*Geri». (sağa–sola, yuxarı–aşağı, uzaq–yaxın* və s.)

**Qeyd:** Təkcə zərflərdən deyil, sifətlərdən də istifadə etmək olar: *yaxın–uzaq, ağ–qara , sağ–sol, dərin–dayaz* və s. Əgər uşaq cavab verməkdə çətinlik çəkirsə, digər uşaqlar xorla lazım olan sözü deyirlər.

**Tərbiyəçi-müəllimə məsləhət.** Hər gün səhər təqvimdən əvvəlki günə aid səhifəni qoparmaq, uşaqlarla dünən, bu gün həftənin hansı günü olduğunu, sabah isə hansı günün olacağını, ayı və tarixi aydınlaşdırmaq, onlara yay aylarının adlarını xatırlatmaq lazımdır. Tədris ilinin əvvəlində, iki həftə ərzində hər bir uşaqla fərdi müsahibə aparmaq məsləhətdir. Müsahibənin aparılmasında məqsəd uşaqların riyazi bilik, bacarıq və vərdişlərinin yoxlanılmasıdır.

**Valideynlərə məsləhət.** Növbəti iki həftə ərzində uşaqların riyazi təsəvvürlərini və biliklərini həyatda tətbiq edə bilmələrini yoxlamaq məqsədi ilə müsahibə aparmaq məsləhətdir.

**Mövzu: Miqdar və sıra sayları**

**Standart: 2.2.1.** On dairəsində sayma, hesablama və ölçmə əməliyyatlarını yerinə yetirir.

**Məqsəd: –** 10 dairəsində sayır.

– Miqdar və sıra saylarını fərqləndirir.

– *Hündür– alçaq, böyük – kiçik* və s. anlayışları izah edir.

**İnteqrasiya**:**2.3.2.** Səbəb-nəticə əlaqələrini müəyyənləşdirir.

**4.1.2.** Problemin həllini axtararkən özünəinam, təşəbbüskarlıq və müstəqillik nümayiş etdirir.

**İş formaları**: kollektiv iş, fərdi iş.

**İş üsulları:** əqli hücum, müzakirə, sual-cavab.

**Resurslar:** tərbiyəçi-müəllim üçün iki rəngdə iki dəst rəqəmlər komplekti; uşaqlar üçün məcməyidə mavi, qırmızı, sarı, çəhrayı, qara rəngli say çöpləri.

## Məşğələnin gedişi

**Motivasiya.** Müxtəlif məzmunlu şəkillər üzərində motivasiya qurulur. Tərbiyəçi-müəllim şəkillər haqqında uşaqların fərziyyələrini dinlədikdən sonra yeni mövzuya keçir.

**"Hansı dirək hündürdür?"** Uşaqlar stol arxasında əyləşirlər. Hər uşağın qarşısındakı məcməyidə 5 ədəd müxtəlif rəngli hesab çöpləri var. Tərbiyəçi-müəllim uşaqlara təklif edir ki, çöpləri ən kiçiyindən ən böyüyünə qədər, sıra

ilə düzsünlər.

– Cəmi neçə çöp var?

– Bu say hansı çöplərdən qurulub?

– Qırmızı çöp sayca neçəncidir? Bəs qara çöp?

– Sarı rəngli çöp hündürlüyünə görə necədir? (*qırmızı çöpdən hündür, qara çöpdən alçaq* )

– Qırmızı çöp haqqında nə demək olar?

**“Tap” oyunu.** Uşaqlar cüt-cüt oynayırlar. Sanamaların köməyi ilə aparıcı seçilir. Onun yoldaşı isə gözlərini yumur. Bu vaxt aparıcı çöplərdən birini gizlədir. Uşaq gözlərini açandan sonra hansı rəngli və neçənci yerdə yerləşən çöpün gizlədildiyini deməlidir. Əgər o, düzgün cavab verərsə, çöp yenidən yerinə qaytarılır. Uşaqlar rollarını dəyişirlər.

**“Canlı ədədlər”.** Stolun üstündə iki komplekt rəngli kartlar, üzü aşağı qoyulmuş rəqəmlər var. Tərbiyəçi-müəllimin işarəsi ilə uşaqların hərəsi bir rəqəm götürür və əllərindəki kartların rənginə əsasən, iki sırada düzülürlər. Tərbiyəçi-müəllim tapşırıq verir:

– Dörd rəqəminin “qonşusu” irəli çıxsın və adını desin.

Tapşırığı yerinə yetirdikdən sonra cütlük əvvəlki yerinə qayıdır. Oyun davam edir. Oyunu təkrar edərkən aparıcılıq uşaqlardan birinə həvalə olunur.

**Mürəkkəbləşdirmə.** Stolun üstündə rəqəmlər üzü üstə qoyulmuşdur. Tərbiyəçi-müəllimin işarəsi ilə uşaqlar hərəsi bir rəqəm götürüb sırada dayanırlar. Tərbiyəçi-müəllim tapşırıq verir:

– Üç və beşin “qonşusu” irəli çıxsın və iki dəfə oturub-dursun.

– Altı və səkkizin “qonşusu” irəli çıxsın və üç dəfə əl çalsın.

**Məntiqi çalışma.** Arif dördmərtəbəli evin birinci blokunda, altıncı mənzildə yaşayır. Blokda hər mərtəbədə iki mənzil var. Blokda cəmi neçə mənzil var? (*səkkiz*). Arif neçənci mərtəbədə yaşayır? (*üçüncü*).

**“Gəzintidə”**.1) Skamyanın qarşısında, yerdə düz xətt çəkmək və uşaqlara təklif etmək olar ki, xətdən skamyaya çatana qədər iki ayaq üstə tullanaraq hərəkət etsinlər. Sonra oyunun şərtlərini bir az çətinləşdirmək olar. Uşaqlara xətdən skamyaya qədər bir ayağı üstə tullanmağı təklif etmək olar.

2) Uşaqlardan hansı fəsil və ay olduğunu soruşmaq olar. Payız fəslinə aid tapmaca demək olar:

Bu haçan olur:
Bağçalar solur,
Əsir küləklər,
Axışır sellər ?

– Sentyabr payızın birinci ayıdır, indi isə payızın ikinci ayıdır. Bu ayın adı nədir? *(oktyabr)*

Uşaqların cavabları dinlənilir.

**Tərbiyəçiyə məsləhət.** Uşaqların gündəlik fəaliyyətinə kiçik motorikanı inkişaf etdirən stolüstü oyunlar (məsələn, “Həndəsi mozaika”, “Piramidanı yığ”

və s.) əlavə emək olar.

**Valideynlərə məsləhət.** Evdə uşaqların diqqətini ona cəlb edin ki, onlar rəqəmləri hər yerdə görə bilərlər: evdə, avtobusda və s.

## Nəticə / *Conclusion*

Uşaqlarda sadə riyazi təsəvvürlərin formalaşdırılması məntiqi və riyazi təfəkkürün inkişafında başlanğıc pillə kimi əsas yer tutur. Riyaziyyat məşğələləri uşaqların məntiqi təfəkkürünü daha yaxşı inkişaf etdirən interaktiv təlimdir. İnkişafetdirici tapşırıqlar məntiqi təfəkkürün inkişafına müsbət təsir göstərir. Burada uşaqlar zaman – məkan, ölçü – forma, miqdar – say, rəqəmlər və hesablama kimi biliklərə yiyələnirlər. Məktəbəqədər dövrdə, hər şeydən əvvəl, ədədlərin adlarını və 10-a qədər ardıcıl saymağı öyrətmək vacibdir. Uşaq 10 dairəsində saymağı, sayıb ayırmağı, yenidən saymağı, tərsinə saymağı, ədədlərin tərkibini müəyyənləşdirməyi bacarmalıdır. Məktəbəqədər yaşlı uşağı rəqəmlərlə də tanış etmək lazımdır. O, ədədə uyğun rəqəmi seçməyi bacarmalıdır.

Uşağın ölçü haqqında bilikləri üzrə məşqlər aparılması məqsədəmüvafiqdir. Uşaq əşyaları uzunluğuna, hündürlüyünə, qalınlığına, iriliyinə görə fərqləndirməyi bacarmalıdır.

Böyük qruplardan başlayaraq, uşaqlar kvadrat, düzbucaqlı, üçbucaqlı, dairə kimi həndəsi fiqurlarla tanış olurlar. Məktəbəhazırlıq qrupunda isə bu sıraya kub, silindrlə tanışlıq da əlavə olunur. Onlar oval həndəsi fiquru ilə tanış olur və onu dairədən fərqləndirirlər. Müqayisənin köməyi ilə bu nəticəyə gəlirlər: “Dairə fırlanır. Ona heç bir şey mane olmur, ovalın da küncləri yoxdur, amma o fırlanmır”, “Ovalın bir hissəsi genişdir, digər hissəsi isə, yumurtada olduğu kimi, dardır”.

Uşağın məkana və zamana bələdləşməsi də böyük əhəmiyyət kəsb edir. O, faktlar əsasında *sağ, sol, ön, arxa, yan, yuxarıda, aşağıda, üstündə, altında, içində* anlayışlarını aydınlaşdırmağı, müstəqil nümunələr söyləməyi bacarmalıdır.

Zamana bələdləşmə uşaqlar üçün bir qədər çətindir. Uşaq *bu gün, sabah* anlayışlarını fərqləndirməli, *gec-gec, tez-tez, yavaş-yavaş* sözlərini cümlədə işlətmək üzərində çalışmalıdır.

Beləliklə, uşaq məktəbəqədər yaş dövründə, idrakın inkişafı baxımından, ilk növbədə, sadə danışıq dilinə, rabitəli nitqə yiyələnir, ətrafdakılarla ünsiyyət qurur, öz fikirlərini təqdim etməyi öyrənir. Uşaq ana dilinə yiyələnərkən istər-istəməz ilkin riyazi təsəvvürlərə də yiyələnir, ətraf aləmdəki əşya və hadisələrin adları, riyazi terminlər də onun lüğət ehtiyatına daxil olur.

## Ədəbiyyat / References

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013). "Azərbaycan müəllimi". 25 oktyabr, № 41.
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu). (2014). Bakı, ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzi. 96 s.
3. Ağayev Ə.Ə. (2013). Pedaqoji innovasiyalar probleminə müasir yanaşmalar. "Azərbaycan məktəbi", № 6, s.25-32.
4. Bayramov Ə., Əlizadə Ə. (1989). Psixologiya (Ali məktəblər üçün dərslik). Bakı, "Maarif". 355 s.
5. Əlizadə Ə. (2008). Yeni pedaqoji texnologiyalar: bəzi psixoloji və pedaqoji məsələlər. "Kurikulum", № 1.
6. Əliyeva Ş.Q. (2010). Məktəbəqədər təhsilin aktual problemləri. Bakı, "Elm". 282 s.
7. Kərimov Y.Ş. (2010). Şəxsiyyətin tamlığı. "Elmi əsərlər", № 4, s.20.
8. Rüstəmov F.A., Dadaşova T.Y. (2007). Ali məktəb pedaqogikası. Bakı, "Nurlan". 568 s.
9. Vigotskiy L.S. (1982). Mishlenie i rech. Sobranie sochineniy. T. 2. Moskva, «Pedagogika». s. 251 (556 s.)
10. Vinogradova Ye.A. (2001). Doshkolnoe obrazovanie: sostoyanie i osnovnie problemi razvitiya (sosiologicheskiy analiz). Avtoref. diss. kand. sosiolog. nauk. Yekaterinburg. 18 s.

# ORGANIZATIONAL AND PEDAGOGICAL BASES OF EXTRACURRICULARACTIVITIES IN THE ECONOMIC EDUCATION OF YOUNG SCHOOLCHILDREN

**Nigar Muradova**
Phd. in pedagogy, assistant-professor, Institue Education Azerbaijan Republic eating researcher fellow at the department of educational theory; E-mail: rita-nigar@mail.ru
https://orcid.org/0000-0003-1742-7847

**Abstract**. The article discusses the organizational and pedagogical bases of the extracurricular work of economic education of primary school students. The main methodological provisions reflecting the features of conducting extracurricular activities in primary school in this direction are indicated. The success of the economic education of younger schoolchildren largely depends on the content of the organization of extracurricular educational work. Economic education helps to explain basic economic concepts to primary schoolchildren and develop a positive reaction in them to the economic qualities of an individual: hard work, frugality, respect for work, arouse interest in the economy, contributes to the accumulation of knowledge about various professions, and promotes economic activity.

**Keywords:** primary school teacher, junior schoolchildren, economic education, organizational and pedagogical foundations, extracurricular activity.

**To cite this article:** Muradova N. (2021) Organizational and pedagogical bases of extracurricularactivities in the economic education of young schoolchildren. *Journal of Preschool and Primary Education*, V. 235, İssue II, pp. 35-50
**Article history:** Received – 17.04.2021; Accepted – 21.04.2021.

# ОРГАНИЗАЦИОННО-ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ВНЕКЛАССНОЙ РАБОТЫ ЭКОНОМИЧЕСКОГО ВОСПИТАНИЯ МЛАДШИХ ШКОЛЬНИКОВ

**Нигяр Мурадова**
Доктор философских наук по педагогике, доцент, ведущий научный сотрудник Институт Образования Азербайджанской Республики; E-mail: rita-nigar@mail.ru
https://orcid.org/0000-0003-1742-7847

**Резюме.** В статье рассматриваются организационно-педагогические основы внеклассной работы экономического воспитания учащихся начальных классов. Обозначены основные методические положения, отображающие особенности ведения внеклассной работы в начальной школе в этом направлении. Успех экономического воспитания младших школьников во многом зависит от содержания организации внеклассной воспитательной работы. Экономическое воспитание помогает объяснить младшим школьникам основные экономические понятия и выработать у них положительную реакцию на экономические качества личности: трудолюбие, бережливость, уважение к труду. Эти качества вызывают интерес к экономике, способствуют накоплению знаний о различных профессиях и активизации экономической деятельности.

**Ключевые слова**: учитель начальных классов, младшие школьники, экономическое воспитание, организационно-педагогические основы, внеклассная работа.

**Ссылка на статью:** Мурадова Н. (2021) Организационно-педагогические основы внеклассной работы экономического воспитания младших школьников «Дошкольное и началное оброзование», №2 (235), стр. 35-50
**История статьи:** послал – 17.04.2021; был принят– 21.04.2021.

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN İQTİSADİ TƏRBİYƏSİNDƏ SİNİFDƏNKƏNAR İŞLƏRİN TƏŞKİLATİ VƏ PEDAQOJİ ƏSASLARI

**Nigar Muradova**
Azərbaycan Respublikası Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsinin aparıcı elmi işçisi; pedaqogika üzrə fəlsəfə doktoru, dosent, E-mail: rita-nigar@mail.ru
https://orcid.org/0000-0003-1742-7847

**Annotasiya**. Məqalədə ibtidai sinif şagirdlərinin iqtisadi tərbiyəsində sinifdənkənar işlərin təşkilati və pedaqoji əsaslarından bəhs olunur. Bu istiqamətdə ibtidai sinifdə sinifdənkənar məşğələlərin aparılması xüsusiyyətlərini əks etdirən əsas metodoloji müddəalar göstərilir. Kiçikyaşlı məktəblilərin iqtisadi tərbiyəsinin uğuru, əsasən, sinifdənkənar tərbiyə işinin təşkilinin məzmunu ilə bağlıdır. İqtisadi tərbiyə ibtidai sinif şagirdlərinə əsas iqtisadi anlayışları izah etməyə, onlarda insan üçün vacib olan iqtisadi keyfiyyətlərə müsbət münasibəti inkişaf etdirməyə kömək edir. Bu münasibətlərə zəhmətkeşlik, qənaətcillik, əməyə hörmət, iqtisadi biliklərə maraq, müxtəlif peşələr haqqında biliklərin toplanması və onların iqtisadi fəaliyyətini aktivləşdirmək aiddir.

**Açar sözlər**: ibtidai sinif müəllimi, kiçik yaşlı məktəblilər, iqtisadi tərbiyə, təşkilati və pedaqoji əsaslar, sinifdənkənar iş.

**Məqaləyə istinad:** Muradova N. (2021) Kiçikyaşlı məktəblilərin iqtisadi tərbiyəsində sinifdənkənar işlərin təşkilati və pedaqoji əsasları . «Məktəbəqədər və ibtidai təhsil», № 2 (235), səh. 35-50
**Məqalə tarixçəsi:** göndərilib – 17.04.2021; qəbul edilib – 21.04.2021.

## Введение/ Introduction /Giriş

Кардинальные изменения социально-экономических условий развития общества Азербайджана, методологии управления экономикой государства влияют на характер воспитательного процесса, в частности, на экономическое воспитание. Рыночные отношения служат главной причиной, которая вызывает потребность в экономическом воспитании младших школьников. В соответствии с этим экономическое воспитание становится одной из важнейших составляющих школы начального образования, позволяющего вооружить их базовыми экономическими знаниями, вырастить из них экономически грамотных личностей, готовых к жизни в реальных экономических условиях и способных быстро адаптироваться, найти свое место при изменении экономической реальности. Для реализации педагогических задач в этом направлении необходимо целенаправленное воздействие на младших школьников в усвоении ими элементарных экономических знаний, формировании экономических умений и воспитании нравственно-экономических качеств личности в процессе их экономической деятельности.

## Основная часть /Main Part / Əsas hissə

Учитель начальных классов осуществляет педагогическое воздействие при помощи разновидных педагогических форм экономического воспитания, включая младших школьников в активную экономическую деятельность, в которой активизируется их познавательный интерес к ней, формируется экономическое мышление, развиваются навыки работать в коллективе, способность к самореализацию в экономической среде. Тем самым учитель прививает им экономически значимые нравственные качества: бережливость,организованность, аккуратность, коллективизм и т. д. Из этого следует, что эффективность экономического воспитания младших школьников повышается за счет педагогического мастерства учителя, обладающего основами методики экономического воспитания, владеющего компетенцией организации внеклассной воспитательной работы, а также способного привлечь к работе в этом направлении родителей младших школьников.

Отметим, что и родители в формировании элементов экономического сознания младших школьников играют немалую роль. Поступки родителей, их отношение к деньгам и вещам усваиваются младшими школьниками динамично. Потому что младший школьник в любом случае является участ-

ником экономических процессов. Он ходит вместе с родителями по магазинам, иногда самостоятельно делает покупки, это и является первичным экономическим опытом. Безусловно, «взаимодействуя с семьей, выражая собственный подход к бюджету семьи, к предметам личного использования, общаясь друг с другом, проявляются экономические взаимоотношения» [Prutcenkov E.N. 2009]. Поэтому важно, чтобы в экономическом воспитании участвовали и школа, и родители, чтобы научить его правильно распоряжаться экономическими знаниями.

***Вопрос*: Какие пути и методы целесообразно сочетать родителям для эффективного решения проблем экономического воспитания младших школьников в семье?**

***Ответ:*** Для наиболее эффективного решения проблем экономического воспитания в семье необходимо родителям сочетать следующие пути и методы:

– использование игровой технологии для формирования у младшего школьника экономических качеств через доступные и понятные для него действия;

– использование фольклорных образцов (пословицы, поговорки, сказки и т.д.), семейных традиций и обычаев в процессе экономического воспитания;

– личный пример (поведение и поступки) родителей в профессионально-трудовой деятельности помогает младшим школьникам сформировать жизненно важные качества, необходимые современному экономически образованному человеку;

– позволить младшему школьнику самостоятельно распоряжаться своими карманными деньгами;

– константная поддержка со стороны родителей в желании младших школьников самостоятельно создавать свой маленький экономический мир;

– включение младших школьников в практическую деятельность через такие семейно-воспитательные темы как, например, «Экономика моей республики и моей семьи», «Доходы и расходы моей семьи», «Семейные сбережения и их использование».

Используется следующие виды деятельности экономического воспитания младших школьников:

а) *досуговая деятельность* (Она необходима для организации полноценного отдыха младших школьников, создания теплой и дружеской атмосферы в семье, в свободное время занять младшего школьника полезным делом вместе с родителями);

б) *трудовая деятельность* (Она отражается в профессиональной дея-

тельности родителей, в их ответственном отношении к труду, в уважении людей, умеющих трудиться и честно зарабатывать деньги. Данный результат проявляется в сформированной потребности младших школьников к труду, в их желании и стремлении быть занятыми полезной деятельностью, помогать взрослым);

в) *творческая деятельность* (Она предполагает развитие предпринимательских способностей и интереса младших школьников к бизнесу родителей, а также раскрытие их творческого потенциала в определенном виде экономической деятельности).

Итак, отметим, что внеклассная работа является составной частью воспитательной работы в начальной школе. Она направлена на достижение общей учебно-воспитательной цели – усвоения младшими школьниками необходимого для жизни социального опыта и формирования принимаемой обществом системы ценностей. Следовательно, внеклассная работа для учителя начальных классов является рациональным педагогическим путем, при помощи которого он организовывает различные виды деятельности младших школьников во внеурочное время, обеспечивающие необходимые условия для социализации их экономической личности. Отметим, что внеклассная воспитательная работа, в основном, проводится во внеурочное время.«Внеклассная работа – это различные воспитательные и образовательные мероприятия, выходящие за рамки обязательных учебных программ, проводимые школой во внеурочное время» [Lizinskiy V.M. 2004]. Из этого следует, что будет целесообразно не превращать внеклассную работу в консультации или дополнительные занятия, она не должна стать продолжением классных занятий. Важно, чтобы внеклассная работа по экономическому воспитанию осуществлялась в свободное от урочных занятий время и строилась исключительно на основе добровольности младших школьников, в соответствии с их личными интересами.

В школьной практике существуют несколько типов форм внеклассной воспитательной работы. В рамках данной статьи представляем три типа, которые отображаются в таблице 1. Каждый тип в отдельности является плодотворным условием для учителя начальных классов в организации внеклассных занятий по экономическому воспитанию младших школьников.

**Таблица 1**

**Типы форм воспитательной работы по экономическому воспитанию**

| **Типы форм воспитательной работы (Аменд А.Ф. Челябинск, 2005).** | |
|---|---|
| **Типы форм** | **Педагогическая характеристика форм** |
| **Мероприятия** | – это плодотворные условия, практические занятия, благоприятные обстоятельства в коллективе, организуемые учителями для учащихся,которые непосредственного оказывают интенсивное и эффективное воспитательное воздействие на них. |
| **Дела** | – это воспитательная работа, педагогические ситуации, осуществляемые и организуемые учителями совместно с родителями на улучшение результатов достижений в воспитании. |
| **Игра** | – это представляемая или реальная деятельность, целенаправленно организуемая в коллективе учащихся с целью обучения-воспитания, развития-саморазвития. |

Подчеркнем, что большую роль в успешном проведении мероприятия играет сценарий учителя начальных классов. Он самостоятельно определяет, как структуру мероприятия, так и его описание, в которое входит обязательные элементы сценария в сфере экономического воспитания младших школьников, например,

– важно точно определиться с темой, целями экономического мероприятия, составом участников;

– выбрать дату и место его проведения, а также всю необходимую подготовку (оборудование, вспомогательный материал, домашнее задание и т.д.);

– подробно описать ход разрабатываемого мероприятия.

В качестве образца для учителей начальных классов представляем игру «Экономическая грамотность» (таблица 2). Это игра отображает методику ее организации и проведения. Сущность содержания игры развивает экономическое сознание и экономическую грамотность младших школьников.

**Таблица 2**

**Игра «Экономическая грамотность»**

| Игра «Экономическая грамотность» [Azimov L. B. Moskva, 2005] | |
|---|---|
| **Цель:** | – способствовать развитию и формированию находчивости, так же сообразительности и закреплять знания экономической грамотности младших школьников. |
| **Задачи:** | – познакомить, а также расширить знания младших школьников в области экономики и экономических понятий;<br>– развивать речь, память, мышление, коммуникативные навыки,творческие способности младших школьников и так же умение работать в команде;<br>– способствовать воспитанию экономической культуры младших школьников, повышению их мотивации к изучению предмета. |
| **Оборудование:** | – оформление доски, раздаточный материал, грамоты или призы, (по окончанию игры). |
| **Ход игры:** | Для начала нужно разделиться на команды, это может быть две, три, или более команд, в зависимости от числа детей в классе. Учитель начинает показывать на заранее подготовленном листке шифр, в котором спрятаны слова, которые имеют отношение к экономике, а учащиеся, в свою очередь, должны разгадать шифр и одному из участников команды поднять как можно скорее руку. |
| **Содержание задания:** | Слова, к примеру, могут быть следующими: СЕПИНЯ (пенсия), ЛЕКМАРА (реклама), ПАТРАЛАЗ (зарплата), ОВОДРОГ (договор), КАНОЭКОМИ (экономика), РАВОТ (товар). |

Успех экономического воспитания младших школьников во многом зависит от содержания планомерной организации внеклассной воспитательной работы. В связи с этим в рамках данной статьи рассмотрим особенности ведения внеклассной работы экономического воспитания в начальной школе как форма организации свободного времени младших школьников. В этом направлении будут обозначены основные методические положения внеклассной работы как организационно-педагогические основы экономического воспитания учащихся начальных классов.

Организационно-педагогические основы внеклассной работы экономического воспитания в начальной школе в целом формируют исходные положения экономической воспитательной работы с младшими школьниками, и отражается это в специфике ее ведения.

***Вопрос:*** **В чем отражается специфика ведения внеклассной работы экономиического воспитания с младшими школьниками?**

***Ответ:*** Специфика ведения внеклассной работы экономического воспитания с младшими школьниками отражается в содержании (условия и направления) ее организации, основанного на нижеследующих принципах:

– *принцип добровольности,* который предполагает, что младшие школьники сами выбирают ту форму занятий, которая их интересует;

– *принцип общественной направленности*, который предполагает, что содержание работы классных кружков и других форм воспитательной деятельности будет носить общественно значимый характер;

– *принцип инициативы и самодеятельности,* который требует, чтобы в ходе воспитательной работы в полной мере учитывались пожелания самих младших школьников, их инициативные предложения и действия;

– *принцип использования игровых форм деятельности и эмоциональных ситуаций*, который имеет особую значимость в работе с младшими школьниками, где потребность в игровых приемах и ситуациях значительна;

– *принцип учета возрастных и индивидуальных особенностей,* который отражается в формах и методах реализации внеклассной деятельности, а также в характере взаимоотношений учителя и младших школьников.

***Вопрос:*** **Какие функции выполняет внеклассная работа по экономическому воспитанию младших школьников?**

***Ответ:*** Внеклассная работа по экономическому воспитанию младших школьников выполняет нижеследующие функции:

– *воспитательная функция*, которая обеспечивает гармоничное сочетание внеклассной и учебной работы по экономическому воспитанию младших школьников;

– *развивающая функция*, которая включается в выявлении и развитии индивидуальных предпринимательских способностей, экономических склонностей и интересов младших школьников через включение их в соответствующую экономическую деятельность;

– *обучающая функция*, которая заключается не только в формировании экономических знаний, но и в овладении определенными навыками экономического поведения, коллективной жизни, делового общения.

***Вопрос:*** **Какое главное педагогическое требование предъявляется к содержанию организации внеклассной работы экономического воспитания младших школьников?**

***Ответ:*** К содержанию организации внеклассной работы экономического воспитания младших школьников предъявляется следующее главное педагогическое требование – это согласованность педагогических действий

учителя начальных классов с воспитательно-экономической работой школы, семьи и общественности.

***Вопрос*: Какие элементы алгоритма внеклассной воспитательной работы целесообразно учитывать учителю начальных классов?**

***Ответ:*** В алгоритм внеклассной воспитательной работы учителя начальных классов целесообразно включить нижеследующие элементы как условие эффективности его работы в экономическом воспитании младших школьников.

Это:

– изучение младших школьников и коллектива класса на основе получение демографических, медицинских, психологических, педагогических данных (семья, социальное и материальное положение, состояние здоровья, индивидуальные особенности, уровень развития и воспитанности);

– формулировка воспитательных задач, общих для класса или отдельных учащихся класса;

– планирование воспитательной работы, содержащей перечень задач и действий по решению работы, как с учащимися, так и учителями-предметниками, родителями;

– анализ и оценка результатов экономического воспитания, которые выражаются в уровне экономической воспитанности младших школьников.

***Вопрос:* На что следует обратить внимание учителю начальных классов при составлении плана внеклассной воспитательной работы с младшими школьниками?**

***Ответ:*** При составлении плана внеклассной воспитательной работы с младшими школьниками учителю начальных классов следует обратить внимание на следующее:

– определение цели и задач экономического воспитания (Они отражают план и направление организации содержания внеклассной воспитательной работы);

– выбор формы внеклассной воспитательной работы, который обусловливается на основе принципов воспитания (Определяется темы и названия мероприятия экономического воспитания);

– создание психологической атмосферы в коллективе младших школьников (повествование о предстоящей работе, о его успешных результатах);

– организация системы выполнения работы осуществляет предварительную подготовку (определяет методы работы по достижению ее целей, создает организационную среду);

– педагогический анализ, совершаемый на двух уровнях: обсуждение результатов вместе с младшими школьниками и собственно педагогический

анализ;

– мониторинг педагогической работы (используемые воспитательные технологии; классные мероприятия, проведенные с родителями; публикации на школьном сайте школы и материалы, сданные в методическую копилку).

***Вопрос:*** Какие педагогические особенности имеются в методике ведения внеклассной работы экономического воспитания младших школьников?

***Ответ:*** В методике ведения внеклассной работы экономического воспитания младших школьников имеются следующие педагогические особенности:

– отсутствие жесткой регламентации и возможность максимально полно опираться на инициативу и экономический опыт самих младших школьников (свобода выбора содержания, форм и средств );

– большая ответственность (проявляется в потребности самостоятельно разрабатывать воспитательные направления экономической деятельности и формировать ее содержание без опоры на базовые планы и программы);

– проведение экономических мероприятий во внеурочное время (на переменах, в праздничные и выходные дни, на каникулах).

***Вопрос:*** **Какие компоненты составляют методику экономического воспитания младших школьников?**

***Ответ:*** В методике ведения внеклассной работы экономического воспитания младших школьников имеются следующие педагогические особенности:

– отсутствие жесткой регламентации и возможность максимально полно опираться на инициативу и экономический опыт самих младших школьников (свобода выбора содержания, форм и средств );

– большая ответственность (проявляется в потребности самостоятельно разрабатывать воспитательные направления экономической деятельности и формировать ее содержание без опоры на базовые планы и программы);

– проведение экономических мероприятий во внеурочное время (на переменах, в праздничные и выходные дни, на каникулах).

***Вопрос:*** **Какие компоненты составляют методику экономического воспитания младших школьников?**

***Ответ:*** Методику экономического воспитания младших школьников составляют следующие компоненты, которые отображаются в таблице 3. Структура методики воспроизводит компоненты ее содержания по организации и проведения экономического воспитания младших школьников. Данная таблица представляется как образец для учителей начальных классов в этом направлении.

**Таблица 3**

**Методика экономического воспитания**

| Методика экономического воспитания (Travin E.N. Yaroslavl, 2003) | |
|---|---|
| **Компоненты методики** | **Содержание компонентов методики** |
| **Цель и задача:** | – эффективное формирование знаний экономической действительности, освоение экономических умений, воспитание нравственно-экономических качеств в личности младших школьников; |
| | – развитие высокоинтеллектуальной, компетентной, сознательной личности младших школьников с гражданской позицией, способной к самореализации и проявления своих возможностей в трудовой и экономической деятельности. |
| **Принципы:** | – на индивидуальном уровне трудности для каждого младшего школьника; быстрого темпа изучения материала; ведущей роли теоретических знаний; осознание процесса учения. |
| **Содержание**: | – комплекс заданий по формированию у младших школьников знаний экономических понятий, а также экономического воспитания по курсам других дисциплин, насыщенных экономическим содержанием обеспечения связи (по возможности) с экономическими явлениями, законами. |
| **Формы:** | – экономические курсы по интересам учащихся (урок математики, урок-экскурсия в банки родного города, урок-лекция, тематический урок, комбинированный урок, интегрированный урок, урок-игра);<br>– уроки трудового обучения (уроки технологии);<br>– внеклассная (внешкольная) работа с младшими школьниками;<br>– различные виды экономической деятельности и производительного труда младших школьников (урок-анализ, урок-путешествие, урок-интервью, конкурсы и т. д.). |

| | |
|---|---|
| **Методы:** | – наглядные (видеосюжеты для размышления, просмотр фильмов и их обсуждение, демонстрация моделей);<br>– словесные (рассказ, элементы лекций, диалоги, проблемные ситуации);<br>– практические (деловые и ролевые игры; трудовая деятельность; расчет бюджета своей семьи). |
| **Способы оценивания результатов воспитания:** | – интегральная и дифференцированная оценка отдельных аспектов обучения-воспитания;<br>– самоанализ и самооценка младших школьников;<br>– словесная характеристика (оценка) и знак фиксации результатов (отметка) в 5-ти балльной системе, адаптированной к уровням успешности младших школьников. |

***Вопрос*: Какие критерии и показатели определяют уровень экономической воспитанности младших школьников?**

***Ответ:*** Критерии и показатели экономической воспитанности младших школьников отображаются в таблице 4. Критерии и показатели в этом направлении определяют уровень сформированности экономических представлений у младших школьников.

**Таблица 4**

**Критерии и показатели экономического воспитания младших школьников**

| **Критерии и показатели экономического воспитания (Travin E.N. Yaroslavl, 2003)** | |
|---|---|
| ***Критерии*** | |
| – знания об экономическом реальном мире | – владение основами экономической теории, что помогает младшему школьнику освоить экономические принципы (как «руководство к действию») и научиться принимать грамотные решения; |

| | |
|---|---|
| –знания об экономическом реальном мире | – обладание четким представлением об окружающем мире, экономических реалиях современности, регулярно пополняет знания, чтобы быть в курсе всех экономических событий;<br>– знание потребностей семьи;<br>– представления о труде родителей;<br>– представления об основных экономических понятиях;<br>– проявление интереса к окружающим явлениям современного социума. |
| –экономические умения и способности | – обладает механизмом самообучения в сфере экономики;<br>– способность к созданию материальных и духовных ценностей для себя и общества;<br>– отражение имеющихся знаний в учебно-игровой деятельности и умение учащегося опираться на эти знания в поведении; –умение находить свое место в общем деле, стремление к сотрудничеству, достижение поставленной цели;<br>– владение основами экономической теории, что помогает младшему школьнику освоить экономические принципы как руководство к действию и научиться принимать грамотные решения;<br>– способность выстраивать стратегию своего экономического поведения, руководствуясь экономическими принципами; |

Таким образом, обобщая научно-теоретические и практические основы содержания всего изложенного, можно сформулировать нижеследующий вывод о том, что экономическое воспитание в школе требует организации педагогических условий воспитательного процесса с млад шими школьниками. Одним из таких условий является организация внеклассной воспитательной работы с ними в этом направлении – это система педагогических действий учителя начальных классов в соответствии с поставленными воспитательными задачами и сам процесс их реализации. Планомерная, систематическая работа, использование разнообразных форм организации содержания внеклассной воспитательной работы, общие усилия школы и семьи дают положительные результаты в экономическом воспитании младших школьников. Следовательно, следует, что эффективное экономическое воспитание младших школьников будет обеспечено приграмотном организации условий содержания внеклассной воспитательной работы, а именно:

– создание целостной системы учебно-воспитательной работы, включающей совокупность разновидных педагогических форм экономического воспитания младших школьников, плодотворного реализующие педагогические задачи в этом направлении.

– создание социально-психолого-педагогического сопровождения во взаимосвязи с родителями младших школьников, обеспечивающее систематичное взаимодействие между учителями начальных классов и родителями с целью продуктивного воздействия на становление психологически и нравственно здоровой экономической личности младших школьников.

## Результат / Conclusion / Nəticə

Научно-педагогическое внимание в данной статье было сконцентрировано на поиске рациональных путей организации экономического воспитания младших школьников посредством использования внеклассной воспитательной работы в этом направлении.

Организация содержания внеклассной работы по экономическому воспитанию с младшими школьниками – это планомерная работа учителя начальных классов, отображающая систему его педагогических действий во взаимодействии с родителями учащихся, использование им разнообразных направлений, форм и методов организации содержания воспитательной работы в этом направлении. Такой подход, как общие усилия школы и семьи, дают положительные результаты.

Каждая разработанная методика отображает комплекс педагогических целей и задач содержания организации воспитательной работы экономического воспитания младших школьников во взаимодействии с социально-психолого-педагогическим сопровождением, специально обеспечившего ряд условий и возможностей учебно-воспитательного процесса в этом направлении. Любая методика основана на развивающейся системе воспитательной работы во взаимосвязи с учебным процессом, как в содержательном, так и процессуальном компонентах воспитания в зависимости от рационального использования принципов, методов и форм содержания организации экономического воспитания учащихся младших классов.

Полученные результаты как методологические материалы по экономическому воспитанию младших школьников могут найти применение при организации внеклассной воспитательной работы в этом направлении.

## Литература / References / Ədəbiyyat


1. Kərimov Y.Ş. (2013). Seçilmiş əsərləri. IX cild. Pedaqogika və metodika tarixi problem ləri. Bakı, "Kövsər" nəşriyyatı. 406 s.
2. Amend A.F. (2005). Puti sovershenstvovaniya ekonomicheskogo vospitaniya uchashikhsya v obsheobrazovatelnoy shkole. Chelyabinsk. 229 str.
3. Azimov L.B. (2005). Uroki ekonomiki v shkole: aktivnie formi prepodavaniya. Moskva, «Aspekt-press». 75 str.
4. Bushmin Z.P. (2000). Edinstvo semyi i shkoli v sozdanii vospitatelnogo prostranstva. «Nachalnaya shkola», № 5. str.88.
5. Kondratyev P.P. (2006). Priobshenie uchenika k sfere ekonomiki. Yakutsk, IPKRO. 80 str.
6. Korotov V.M. (2000). Metodika vospitatelnoy raboti. Moskva, «Prosvesheniye». 175 str.
7. Likhachov B.T. (2005). Rinochnie otnosheniya i vospitanie shkolnikov. «Vospitaniye shkolnikov», № 5, str. 5-6
8. Lizinskiy V.M. (2004). Priyomi i formi v vospitanii. Moskva.
9. Lyubimov L.L. (2002). Konsepsiya strukturi, soderjaniya i organizasii ekonomicheskogo obrazovaniya v polnoy sredney shkole. «Economica v shkole», № 3, str.14-28.
10. Nizimchuk A.S. (2009). Ekonomicheskoye vospitaniye v shkole. Moskva, «Prosveshenie». 206 str.
11. Polyakov S.D. (2004). Osnovi teorii innovasionnix prosessov v sfere vospitaniya. Moskva.
12. Prutchenkov E.N. (2009). Domashnyaya ekonomicheskaya shkola. «Narodnoe obrazovanie», № 5, str.301-305.
13. Shemyakin A.B. (2005). Formirovanie otvetstvennogo ekonomicheskogo povedeniya starshix shkolnikov v delovoy igre. Chelyabinsk. 169 str.
14. Travin E.N. (2003). Uroki ekonomiki v shkole: posobiye dlya uchiteley ekonomiki i obshestvoznaniya. Yaroslavl. 160 str.
15. Vasilyev Y.K. (2006). Ekonomicheskoe obrazovanie i vospitanie uchashikhsya. Moskva, «Pedagogika». 96 str.

# OPPORTUNITIES FOR AESHETIC EDUCATION OF CHILDREN IN DESCRIPTIVE ACTIVITIES

**Almaz Akhmadova**
Chair of Preschool Pedagogy Education of ASPU, Senior Teacher
E-mail: ayten/az@mail.ru
https://orcid.org/0000-0003-4025-4761

**Abstract**. Aesthetic education provides preschool children with the development of artistic feelings and tastes, artistic creativity, the ability to observe and discuss objects in the world around them. Descriptive activities increase the opportunities for aesthetic education of young children. Aesthetic education is one of the components of education that affects the harmonious development of the individual. Through aesthetic education, a person feels and enjoys the beauties of the world around him. Thus, an aesthetic consciousness emerges in the developing personality. Aesthetic education is closely related to other components of education. Aesthetic education promotes the development of mental education; It helps people to understand life by giving them knowledge about what is happening around them.

**Keywords:** aesthetic education, preschool stage, descriptive activity, person child, cooperation.

**To cite this article:** Akhmadova A. (2021) Opportunities for aesthetic education of children in descriptive activities**.** *Journal of Preschool and Primary Education*, V. 235, İssue II, pp. 51-58.
**Article history:** Received – 05.04.2021; Accepted – 16.04.2021.

# TƏSVİRİ FƏALİYYƏT MƏŞĞƏLƏLƏRİNDƏ UŞAQLARIN ESTETİK TƏRBİYƏ İMKANLARI

**Almaz Əhmədova**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası kafedrası, baş müəllim
E-mail: ayten.az@mail/ru
https://orcid.org/0000-0003-4025-4761

**Annotasiya**. Estetik tərbiyə məktəbəqədər yaşlı uşaqlarda bədii zövqün, yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarıqlarının inkişafını təmin edir. Təsviri fəaliyyət məşğələləri kiçikyaşlı uşaqların estetik tərbiyə imkanlarını artırır. Estetik tərbiyə – tərbiyənin tərkib hissələrindən biri olub, şəxsiyyətin ahəngdar inkişafına təsir göstərir, onun digər tərkib hissələri ilə də sıx əlaqədardır. Estetik tərbiyə vasitəsi ilə insan ətraf aləmdə, çevrəsində baş verən gözəllikləri anlayır, onlardan zövq alır. Beləliklə, inkişaf etməkdə olan kiçik şəxsiyyətdə estetik şüur yaranır. Bu tərbiyə növü əqli tərbiyənin inkişafına təkan verir, insana ətraf aləmdə baş verənlər haqqında biliklər verərək, onun həyatı dərk etməsinə kömək edir.

**Açar sözlər:** estetik tərbiyə, məktəbəqədər dövr, təsviri fəaliyyət, uşaq şəxsiyyəti, əməkdaşlıq.

**Məqaləyə istinad:** Əhmədova A. (2021) Təsviri fəaliyyət məşğələlərində uşaqların estetik tərbiyə imkanları. «Məktəbəqədər və ibtidai təhsil», № 2 (235), səh. 51-58
**Məqalə tarixçəsi:** göndərilib – 05.04.2021; qəbul edilib – 16.04.2021.

## Giriş / *Introduction*

Estetik zövq – gözəlliyi qiymətləndirmək bacarığıdır. Estetik zövq əsasında insanda varlığı, incəsənəti qiymətləndirmə bacarıqları formalaşır. Estetik tərbiyə ahəngdar inkişaf etmiş şəxsiyyətin tərbiyəsinin tərkib hissələrindən biri olaraq, uşağın şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır.

Estetik tərbiyə uşaq şəxsiyyətinin formalaşmasında mühüm sahə olmaqla yanaşı, onun əqli, fiziki, mənəvi inkişafında son dərəcə böyük əhəmiyyətə malikdir. Tədqiqatçılar estetik tərbiyənin sistemli inkişafı, müşahidə qabiliyyəti, müşahidə etdiyinin mənasını başa düşmək, formanı, konstruksiyanı,hündürlüyü, rəngi, fəza münasibətlərini görmə bacarığı və s. əlamətləri uşaq yaradıcılığının əsası hesab edirlər.

Estetik tərbiyə məktəbəqədər yaşlı uşaqlarda bədii hisslərin, zövqün, bədii yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarıqlarının inkişafını təmin edir. Estetik tərbiyə, həmçinin təbiətdə, ətraf mühitdə, insanların hərəkətlərində, geyimlərində gözəlliyi görmək bacarıqlarının, yaradıcılıq qabiliyyətlərinin formalaşmasına (musiqi duyumu, təsviri fəaliyyət və s.) imkan yaradır. Yaradıcılıq şəxsiyyətin mənəvi inkişafında, insani hisslərinin təkmilləşməsində mühüm rol oynayır ki, bunun da təməli erkən yaş dövründə qoyulur. Bu baxımdan "Məktəbəqədər təhsilin proqramı (kurikulumu)"nda [Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu). 2014] uşaqların inkişafının 4 inkişaf sahəsi üzrə həyata keçirilməsi müəyyənləşdirilmişdir ki, nəzərdə tutulan inkişaf sahələrindən üçüncüsü "Estetik və yaradıcı inkişaf"dır. Təqdim edilən məzmun uşaqlarda təlimə, yaradıcılığa və dərketməyə maraq yaranmasına istiqamətləndirilmişdir.

## Əsas hissə /Main Part

Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı onların yaradıcılıq qabiliyyətlərini stimullaşdırır.

Təsviri fəaliyyətdə rənglərin, formaların yeni birləşmələri, quraşdırma prosesində müxtəlif modellərin qurulması, hekayə və nağılın, musiqi fəaliyyətində melodiyanın dinlənilməsi, mahnı, rəqs və uşaq musiqi alətlərində ifa məktəbəqədər yaşlı uşaqların estetik zövqünün inkişafına kömək edir.

Ətraf aləmin gözəlliklərini duymaq və qiymətləndirmək, estetik cəhətdən qavramaq, müvafiq bədii nümunələr yaratmaq, ətraf aləmə müsbət emosional münasibət formalaşdırmaq üçün ilkin pillə sayılan məktəbəqədər təhsil sahəsində aparılan işlər estetik tərbiyənin vəzifələrinə daxildir. Yaradıcı fəaliyyət prosesində uşaqda təxəyyül, təfəkkür, ünsiyyət bacarıqları, digər insanların mövqeyini qəbul etmək bacarığı yaranır və inkişaf edir.

Məktəbəqədər təhsildə təsviri sənətə geniş yer verilir və tərbiyəçi-müəllim-

lərin qarşısında uşaqlara onları əhatə edən ətraf aləmdəki gözəllikləri görməyi öyrətmək, onlarda rəsm çəkmə, yapma, kəsib-yapışdırma bacarıqlarını formalaşdırmaq, yaradıcı qabiliyyətlərini inkişaf etdirmək, habelə incəsənət əsərlərinə maraq, obrazların mənasını, ifadəliliyini, kompozisiyasını, ritmini, rəng çalarlarını mənimsəməyi aşılamaq vəzifəsini qoymuşdur.

Təsviri sənətin mənəvi-estetik təsir imkanları müxtəlif tipli təlim-tərbiyə ocaqlarında, o cümlədən, məktəbəqədər təhsil müəssisələrində də bu qüdrətli sənət nümunələrindən səmərəli şəkildə istifadə olunması vəzifəsini qarşıya qoyur və başlıca istiqamətləri müəyyənləşdirir.

Təsviri incəsənət nümunələri vasitəsilə uşaqların təsviri-estetik inkişafına nail olmaq mümkündür. Təsviri incəsənət nümunələri uşaqların yaradıcılığına təkan verir, onların nitqi, idraki, fiziki, sosial və emosional inkişafı üçün əvəzolunmaz əhəmiyyət kəsb edir. Təsviri incəsənət nümunələri vasitəsilə həyata keçirilən təlim fəaliyyəti qərar qəbul etmək bacarığını aşılamağa, hafizəni fəallaşdırmağa, idraki fəaliyyəti asanlaşdırmağa, ünsiyyət yaratmağa, emosional inkişafı gücləndirməyə və yaradıcı təfəkkürü inkişaf etdirməyə kömək göstərir.

A.O.Mehrabov müxtəlif yaş dövrlərinə aid olan məktəblilərlə aparılması lazım gələn tərbiyə işlərinin əsas istiqamətlərindən (bunların sayı 10-dur) bəhs edərkən dördüncü – estetik tərbiyə bölməsi üzərində dayanır: “Ləyaqətli insanın yetişməsində estetik tərbiyənin müstəsna əhəmiyyəti vardır. Gözəlliyi yaratmaq, ondan zövq almaq şəxsiyyətin hərtərəfli inkişafının ümdə məsələlərindən biridir. Bu sahədə pedaqoji kollektivlərin aparacağı tərbiyəvi işin məzmunu və forması planlaşdırmada əsas yer tutur” [Mehrabov A.O. 2007].

Kiçik yaşlı uşaqların estetik tərbiyəsində onları əhatə edən sosial mühit və təbii şərait mühüm rol oynayır. Pedaqoji kollektivin əsas vəzifələrindən biri uşaqlar üçün estetik mühit yaratmaqdan ibarətdir. Hər bir uşaq, öz səviyyəsinə görə, bədii əsərdən zövq alır, onu qiymətləndirə bilir. Ona görə də istedadlı uşağı tərbiyə etməyin başlıca prinsipi onun daxili aləmini zənginləşdirməkdən ibarətdir. Uşaqların təsviri incəsənət nümunələrinə qayğılı münasibəti, onları duymaq bacarığının yaradılması, onlarda olan qabiliyyətlərin inkişaf etdirilməsi estetik tərbiyənin vəzifələrindəndir.

Məktəbəqədər təhsil müəssisələrində təşkil olunan təsviri fəaliyyət məşğələləri çox geniş təlim və tərbiyəvi imkanlara malikdir. Təsviri fəaliyyət məşğələləri uşaqların estetik hisslərinin, zövqlərinin inkişafında, dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.

Tanınmış metodist alim N.A.Qoryayeva yazır: “Təsviri incəsənət dərsi – bu, xüsusi bir dərsdir. Bu dərsə verilən tələblər də xüsusi səciyyə daşıyır. Bu dərs incəsənət qanunları əsasında qurulmalıdır. Bu tələbdən də bir sıra xüsusiyyətlər, məna tərzləri meydana çıxır. İncəsənət dərsləri, hər şeydən əvvəl, mənəvi estetik tərbiyə vəzifəsini yerinə yetirməlidir” [Qoryayeva N.A. 1991]. Ümumiyyətlə, təsviri incəsənət insani hissləri bir anda oyatmaq, həmin hisslərin təsiri ilə yaşamaq, düşündürmək iqtidarına malikdir.

Rəssamlıq sənəti ilə poeziya və musiqi sənəti arasında böyük uyğunluq vardır. Dahi italyan rəssamı Leonardo da Vinçi rəssamlığı poeziya ilə müqayisə etmişdir. Onun fikrincə, "rəssamlıq tamaşa etməklə aşılanan poeziyadır, poeziya isə dinləməklə aşılanan rəssamlıqdır. Rəssamlıq tablosuna xas olan rənglərin ahəngdarlığı bəzən musiqi təranələrinin avazı ilə muqayisə olunur. Bununla belə, hər bir sənətin özünəməxsus qanunauyğunluqları, bədii təsir imkanları vardır" [Həbibov N.D. 1961].

Hər hansı sənət növünün özünəməxsus xüsusiyyətləri, estetik təsir imkanlarının mövcudluğu hələ estetik tərbiyə demək deyil. Müxtəlif növ sənət nümunələri və janrları o zaman tərbiyə, o cümlədən, estetik tərbiyə vasitəsinə çevrilir ki, onlar təlim-tərbiyə prosesinə geniş planda gətirilir. Bu prosesdə hər bir fənnin özünəməxsus xüsusiyyətləri və imkanları olur. Etiraf etməliyik ki, incəsənət fənləri sırasına aid edilən təsviri incəsənət geniş imkanlara, təsir qüvvəsinə malikdir. Bu isə, hər şeydən əvvəl, fənnin mahiyyəti, estetik təbiəti ilə bağlıdır.

Təsviri fəaliyyət məşğələlərinin estetik-emosional əsaslarda aparılması, öz növbəsində, kiçik yaşlı uşaqların şəxsiyyətinin zənginləşdirilməsinə zəmin yaradır. Buna görə də müxtəlif vasitələrdən istifadə etməklə uşaq şəxsiyyətinin hərtərəfli, ahəngdar inkişafı diqqət mərkəzinə gətirilir. Psixologiya elmləri doktoru, prof. Ramiz Əliyev bu barədə yazır: "Müasir dövrdə şəxsiyyətin tərbiyəsi daha mürəkkəb problemdir. İnsanların biliyi, erudisiyası, intellektual səviyyəsi yüksəlmiş, dünyagörüşü, maraqlarının sferası genişlənmişdir" [Əliyev R.İ. 2006].

Hazırda təhsildə yeni təlim texnologiyalarının geniş vüsət alması, interaktiv metodlardan istifadəyə marağın artması, məktəbəqədər təhsilin müasir tələblərə cavab verən yeni metodik vəsaitlərlə təchiz edilməsi uşaqların mədəni-intellektual səviyyəsinin yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Kiçik yaşlı uşaqların şəxsiyyətinin ahəngdar inkişafını tədqiqat obyektinə çevirən L.V.Kuznetsova yazır: "Uşağın ahəngdar inkişaf etməsi üçün onda ətraf aləmə ahəngdar münasibət formalaşdırmaq lazımdır" [Kuznetsova L.V.1988]. Çox mühüm nəzəri və praktik əhəmiyyət kəsb edən bu fikir məktəb, eyni zamanda, məktəbəqədər müəssisə mühitində təlim-tərbiyə prosesinin ahəngdarlığını yaratmaq zərurətini irəli sürür.

Təlim-tərbiyə prosesində ahəngdarlığı təmin etməkdə təsviri fəaliyyətin, təsviri incəsənət nümunələrinin rolu az deyil. Hər bir məktəbəqədər təhsil müəssisəsində təsviri incəsənətə maraq və tələbatın inkişaf etdirilməsi, öz növbəsində, təsviri fəaliyyət məşğələlərində kiçik yaşlı uşaqların estetik tərbiyə imkanlarını artırır. Bu imkanlar nəzəri və praktik istiqamətlərinə görə diqqəti cəlb edir.

Nəzəri istiqamətlərə aiddir:

– uşaqlara təsviri incəsənət nümunələri haqqında məlumatın verilməsi;

– təsviri fəaliyyət məşğələlərində uşaqların estetik dünyagörüşünə yiyələnmələri üçün forma rəngarəngliyi (forma, quruluş, həcm, kompozisiya və s.) üzərində dayanmaq, təsviri incəsənətin ayrı-ayrı növ və janrlarının yaradılmasında əsas ifadə vasitələri olan rəng əlaqələri, o cümlədən, isti (qırmızı, sarı, narıncı,

qəhvəyi) və soyuq (göy, yaşıl, boz, ağ) rənglər haqqında müvafiq biliklərin verilməsi;

– Azərbaycan rəssamları, heykəltəraşları, onların həyat və yaradıcılığı, ən məşhur əsərlərinin bədii-estetik mahiyyəti haqqında zəruri məlumatların uşaqlara çatdırılması.

Praktik istiqamətlərə isə bunlar aiddir:

– təsviri fəaliyyətin əsasını təşkil edən məşğələ növləri (rəsm, yapma, applikasiya) üzrə ilkin bacarıqların aşılanması;

– uşaqlara müxtəlif formalarda, o cümlədən, rəssamlıq, applikasiya, yapma vasitəsi ilə müxtəlif fiqurların təsviri, dekorativ rəsmlərin, ornamentlərin tərtibi, hazırlanması, bunun üçün ilkin bacarıq və vərdişlərin aşılanması.

Təsviri fəaliyyət məşğələlərində istər nəzəri, istərsə də praktik istiqamətlərdə bilik, bacarıq və vərdişlərin qabaqcadan müəyyənləşdirilməsi, təsviri fəaliyyət prosesində bunların nəzərə alınması, bir-biri ilə qarşılıqlı şəkildə əlaqələndirilməsi uşaqların estetik tərbiyəsinin inkişafında mühüm rol oynayır. Bu məşğələlərdə kiçik yaşlı uşaqların estetik tərbiyəsini daha səmərəli şəkildə inkişaf etdirmək üçün ayrı-ayrı məşğələ növlərinin bədii-estetik mahiyyətinə də xüsusi fikir verilməlidir. Yeri gəlmişkən qeyd edək ki, təsviri fəaliyyət məşğələlərində istinad olunan rəsm, yapma, applikasiya, incəsənət əsərləri üzərində müsahibə məşğələlərinin hər birinin uşaqların bədii-estetik tərbiyəsində müəyyən rolu və əhəmiyyəti vardır.

Rəsm məşğələləri uşaqların bədii təfəkkürünün inkişafına güclü təsir göstərir. Diqqəti cəlb edən cəhətlərdən biri də budur ki, bu məşğələlərdə ən zəif uşaq da öz "sözünü" deməyi bacarır.

Rəsm məşğələlərində uşaqlar mövzuda təsvir olunan obrazların, əşya və hadisələrin əks olunmasına xüsusi diqqət yetirir və bədii təfəkkürün köməyi ilə öz məqsədlərinə nail olurlar. Müşahidələrdən aydın olur ki, bədii təfəkkürü kifayət qədər inkişaf etməyən uşaq müəyyən süjeti kompozisiya baxımından əhatəli şəkildə nəzərə çatdıra bilmir.

Rəsm məşğələlərində uşaqların böyük əksəriyyəti yaradıcılıq fəallığı göstərməyə çalışır, mövzu ilə bağlı hər hansı bir hadisəni, obyekti sadəcə olaraq kağıza köçürmürlər, həmçinin, öz əlavələri ilə yaradıcı şəxsiyyət kimi çıxış edirlər.

Kiçik yaşlı uşaqların estetik tərbiyəsində rəsmlərin rolundan bəhs edərkən mövzuların düzgün seçilməsi üzərində də dayanmaq lazımdır. Təcrübə və apardığımız müşahidələr göstərir ki, bu prosesdə mövzuların rəngarəngliyi, maraqlı olması əsas rol oynayır. Uşaqların marağına, təsviri fəaliyyət imkanlarına uyğun seçilən mövzular onlar tərəfindən daha mükəmməl işlənir, tamamlanır. Təbiət mənzərələrini, ilin fəsillərini əhatə edən mövzular uşaqların böyük marağına səbəb olur və onlar tərəfindən həvəslə işlənir.

Məktəbəqədər təhsil müəssisələrində təsviri fəaliyyət məşğələləri vasitəsilə uşaqların estetik tərbiyəsi üçün geniş imkanlar yaranır.

Dekorativ rəsmin əsasını təşkil edən nəbati (bitkilər aləmi ilə bağlı) və həndəsi (fiqurlar, formalarla bağlı) naxışlardan istifadə olunan xalçalarımız, xalça məmulatları, bədii tikmələr, toxuculuq məmulatları uşaqların zövqünü oxşayır.

Keramika materiallarından və ağacdan hazırlanan ev əşyaları, qab-qacaq üzərində naxışlar, ornamentlərlə zəngin olan bəzək ünsürləri uşaqların estetik hisslərini, zövqünü inkişaf etdirir.

Dekorativ rəsm kiçik yaşlı uşaqlarda rənglər arasında əlaqələri görmək, rəngləri düzgün qavramaq prosesində onlardan daha ahəngdar şəkildə istifadə etmək bacarıq və qabiliyyətlərini inkişaf etdirir.

Yapma, applikasiya məşğələlərində də yuxarıda qeyd etdiyimiz istiqamətlərdə uşaqların bədii-estetik qabiliyyətləri inkişaf edir.

Təsviri incəsənət nümunələrini müşahidə məşğələlərində isə uşaqlar ayrı-ayrı növ və janrların, onların yaradıcıları olan görkəmli sənətkarların həyat və yaradıcılığı haqqında müvafiq məlumatlar əldə edirlər. Bu məşğələlərdə uşaqlar görkəmli rəssamların, sənətkarların əsərlərindən götürülmüş nümunələrin mahiyyəti, estetik təsir xüsusiyyətləri haqqında mühakimə yürütmək qabiliyyətlərinə yiyələnirlər ki, bu da onların estetik inkişafında mühüm əhəmiyyət kəsb edir.

Təsviri fəaliyyət məşğələləri kiçik yaşlı uşaqların estetik tərbiyəsində çox geniş imkanlara malikdir, lakin bu imkanlar o zaman reallaşır, həyati mahiyyət kəsb edir ki, problemlə bağlı bir sıra başlıca cəhətlər əsas götürülür və əməli fəaliyyət prosesində onlara istinad olunur.

Unutmaq olmaz ki, təsviri incəsənətin ayrı-ayrı nümunələri, məşğələ növləri ətraf aləmin estetik qavranılmasını təmin edir. Uşaqların ətraf aləmə, obyekt və hadisələrə, müxtəlif tipli əşyalara estetik münasibətinin formalaşmasında da təsviri incəsənətin mühüm rolu var.Təsviri incəsənət sahəsində uşaqların müvafiq bilik və bacarıqlar sisteminə yiyələnmələri onların estetik mədəniyyətinin inkişafına zəmin yaradır. Estetik mədəniyyətə yiyələnən uşaq tərbiyə olunduğu məktəbəqədər müəssisədə öz estetik tərbiyə səviyyəsini nümayiş etdirir, həm də müxtəlif tədbirlərdə fəal iştirakı, mövqeyi ilə tanınır.

## Nəticə / Conclusion

Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, məktəbəqədər yaş dövründən başlayaraq uşaqları onların maraqlarına uyğun olan təsviri fəaliyyət dərnəklərinə cəlb etmək məqsədəuyğundur.

Müşahidələr göstərir ki, bəzən məktəbəqədər təhsil müəssisələrində təsviri fəaliyyət məşğələlərində boyalardan, rənglərdən az, rəngli karandaşlardan isə çox istifadə olunur. Uşaqlar rəngləri hiss etmək, onlara toxunmaq istəyir, demək olar ki, boyalarla işləməkdən daha çox zövq alırlar və məşğələ onlar üçün daha maraqlı olur.

İstər ailədə, istərsə də məktəbəqədər təhsil müəssisələrində fərqli vəsaitlərdən istifadə edilməli, uşaqların yaradıcılıq qabiliyyətləri inkişaf etdirilməlidir.

Bununla yanaşı, böyüklər tullantı materiallarını dəyərləndirib, uşaqlarla birlikdə onları bir oyuncağa və ya onların istifadə edəcəyi bir əşyaya çevirə bilərlər. Bununla da uşaqları həm ətraf aləmə qarşı həssas olmağa çağırır, həm də estetik tərbiyə ilə paralel olaraq, uşaqlarda ekoloji tərbiyə də inkişaf etdirilir. Uşaqlarda yaradıcı əmək bacarıqları formalaşdıraraq hər bir vəsaiti dəyərləndirmək üçün maraq yaranır.

Beləliklə, estetik tərbiyə insanda, həyatda, təbiətdə, incəsənətdə gözəllik və zövqü, eləcə də ülvilik və saflığı duymaq, qavramaq, bunlara məhəbbət bəsləmək, onları düzgün qiymətləndirməyi bacarmaq, bu kimi müsbət keyfiyyətlərin təkmilləşdirilməsinə yönəlmiş tədbirlər sistemidir.

«Экономическая грамотность»

## Ədəbiyyat / References


1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu). (2014). Bakı, ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzi. 96 s.
2. Əliyev R.İ. (2006). Tərbiyə psixologiyası. Bakı, "Nurlan". 196 s.
3. Həbibov N.D. (1961). Rəssamlıqdan söhbət. Bakı, "Uşaqgəncnəşr". 109 s.
4. Həmzəyev M.Ə. (1991). Pedaqoji psixologiya. Bakı, 270 s.
5. Həsənov A. (2000). Məktəbəqədər pedaqogika. Bakı, "Nasir". 374 s.
6. Mehrabov A.O. (2007). Azərbaycan təhsilinin müasir problemləri. Bakı, "Mütərcim". 449 s.
7. Məmmədov Z.İ. (1978). Estetika və yeni insan tərbiyəsi. Bakı, "Azərnəşr". 109 s.
8. Salahov T.T. (1982). Dünyagörüşünün və estetik baxışların formalaşmasında təsviri incəsənətin rolu. Bakı, "Azərnəşr". 315 s.
9. Goryayeva N.A. (1991). Pervie shagi v mire iskusstva. Kniga dlya uchitelya. M.: «Prosveshenie». 159 s.
10. Kuznetsova L.V. (1988). Garmonicheskoe razvitie lichnosti mladshego shkolnika. Kniga dlya uchitelya. M., «Prosveshenie». 224 s.
11. Osnovi esteticheskogo vospitaniya. (1986). Posobie dlya uchitelya. Pod redaksiey N.A.Kushaeva. M., «Prosveshenie». 240 s.
12. Likhachov B.T. (1972). Estetika vospitaniya. Moskva, «Prosveshenie». 270 s.

# STEM TRAINING METHOD AT THE PRIMARY EDUCATION LEVEL

**Gular Bayramova**
Teacher of secondary school No 7 named after academician
Z. Aliyeva Jalilabad city Email: gulerbyrmva@gmail.com
https://orcid.org/0000-0002-7181-9609

**Abstract.** Perception is one of the most important nuances in primary school. Perception improvement takes place with the active participation of students. During this period, students have a great interest in subjects such as life skills, computer science, mathematics and fine arts, along with the basic concept of perception. Students need a variety of developmental tasks and learning environments to expand and develop their new knowledge with previously learned information as they grasp the concepts in the program material included in these subjects. It is recommended to start the STEM training method, which has become very popular in recent years, at an early age. That is, at the level of primary education, they acquire new life skills by integrating the knowledge, skills and habits acquired in the process of teaching subjects such as mathematics and life skills into other areas. For this reason, the STEM training method should be fully disclosed, introduced, and various types of developmental tasks should be developed to serve this purpose.

**Keywords:** primary school, STEM teaching method, lesson plan, subjects, integration, methodical competence

**To cite this article:** Bayramova G. (2021)STEM training method at the primary education level. *Journal of Preschool and Primary Education*, V. 235, İssue II, pp. 59-67.
**Article history:** Received – 08.04.2021; Accepted – 18.04.2021.

# İBTİDAİ TƏHSİL SƏVİYYƏSİNDƏ STEM TƏLİM METODU

**Gülər Bayramova**
Cəlilabad şəhəri, akademik Z. Əliyeva adına
7 nömrəli tam orta məktəbin müəllimi.
E-mail: gulerbyrmva@gmail.com
https://orcid.org/0000-0002-7181-9609

**Annotasiya.** İbtidai siniflərdə qavrama ən vacib nüanslardan biridir. Qavramanın təkmilləşdirilməsi şagirdlərin aktiv iştirakı ilə baş verir. Bu dövrdə şagirdlərin, ilkin qavrama anlayışları ilə yanaşı, həyat bilgisi, informatika, riyaziyyat və təsviri incəsənət fənlərinə maraqları da çox olur. Şagirdlərə bu fənlərə daxil olan proqram materialında olan anlayışlar qavranılarkən yeni öyrəndikləri bilikləri əvvəl öyrəndikləri məlumatlarla genişləndirmək və inkişaf etdirmək üçün müxtəlif inkişafetdirici tapşırıqlara və öyrənmə mühitinə ehtiyac duyulur. Son illər olduqca populyar olan STEM təlim metodunun tətbiqinə erkən yaş dövründə başlamaq tövsiyə olunur. Yəni ibtidai təhsil səviyyəsində riyaziyyat və həyat bilgisi kimi fənlərin tədrisi prosesində uşaqlar əldə etdikləri bilik, bacarıq və vərdişləri başqa sahələrə inteqrasiya etməklə yeni həyati bacarıqlara yiyələnirlər. Bu səbəblə STEM təlim metodu tam açıqlanmalı, tanıdılmalı və bu məqsədə xidmət edən müxtəlif tip inkişafetdirici tapşırıqlar hazırlanmalıdır.

**Açar sözlər:** ibtidai sinif, STEM təlim metodu, dərs planı, tədris fənləri, inteqrasiya, metodik səriştə.

**Məqaləyə istinad:** Bayramova G. (2021) İbtidai təhsil səviyyəsində STEM təlim metodu. «Məktəbəqədər və ibtidai təhsil», № 2 (235), səh. 59-67.
**Məqalə tarixçəsi:** göndərilib – 08.04.2021; qəbul edilib – 18.04.2021

## Giriş / Introduction

STEM ifadəsi – *science, texnoloji, engineering və mathematik* ifadələrinin baş hərflərinin birləşməsindən yaranıb [Heyzer B.Qonsales və Cefri J.Kuenzi, 2012)]. STEM termini 2001-ci ildən etibarən Dr.Cudit Ramaley tərəfindən fənn və bacarıqların inteqrasiyasından ibarət olan peşələri ifadə etmək üçün istifadə olunmuşdur. Artıq ölkəmizdə STEM təlim metodu ilə bağlı təlimlər vüsət almağa başlayır. Azərbaycanda son illərdə STEM mövzularında məqalələr, metodik vəsaitlər yazılır, tədqiqatlar aparılır. Bu tədqiqatların hədəfi, əsasən, yuxarı sinif şagirdləri hesab olunurlar. Təəssüfləndirici haldır ki, ibtidai təhsil səviyyəsində STEM metodu çox az tətbiq olunur. Qeyd etmək yerinə düşər ki, təhsilin təməli, əsasən, ibtidai siniflərdə qoyulduğu üçün tədrisə yeni yanaşmalar, yeni təlim texnologiyalarının tətbiqinə də ibtidai siniflərdən başlamaq lazımdır. İbtidai təhsil səviyyəsində həyat bilgisi, riyaziyyat kimi fənlərin tədrisi ilə şagirdlərə texnologiya və mühəndislik sahələrinə uyğun elmi biliklər mənimsədilir.

STEM – yeni mənimsənilən biliklərin əvvəl mənimsənilən biliklərlə inteqrasiya olunaraq, həyati bacarıqlara çevrilməsinə şərait yaradan fəaliyyət və öyrənmə mühitidir.

### Əsas hissə /Main Part

**İbtidai təhsil səviyyəsində STEM təlim metodu.** İlk baxışda elm, texnologiya, mühəndislik və ali riyaziyyat ibtidai sinif şagirdlərindən uzaq sahələr kimi görünə bilər, amma əslində, bu yaşda uşaqlar təlim prosesində öyrəndiklərini sinifdə, oyun meydançasında, evdə və digər yerlərdə tətbiq edirlər. Bununla da həyati bacarıqların təməli qoyulur. Bu yaş dövründə uşaqlar axtarışda olan, "kəşf edən", araşdırmağa və ixtira etməyə can atan tədqiqatçılardır: "Bu tortu bərabər hissələrə necə bölmək olar?", "Fiqurlardan göydələn inşa etmək olarmı?", "Ağır gəmi göldə necə üzür?" kimi suallara cavablar axtaran uşaqlar özlərini kəşflər və ixtiralar etmək istəyən tədqiqatçılar kimi hiss edirlər [Əsədova İ.M. 2006]. Uşaqlar ağıllı telefonlar və planşetlərlə işləməyi öyrənərək, yeniliyə can atır, tez-tez böyüklərə suallarla müraciət edirlər. Şagirdlərin meyil və maraqlarının dəstəklənməsi onların əldə etdiyi biliklərin bacarıqlara, vərdişlərə çevrilməsinə zəmin yaratmaqla yanaşı, uzun müddətli yaddaşa xidmət edir. Bu mənada müəllim – valideyn münasibətlərinin məqsədyönlü qurulması və idarə olunması şagirdlərin meyillərini bacarıqlarına uyğun istiqamətdə yönəltmək və inkişaf etdirmək baxımından əhəmiyyətlidir.

Təlimin STEM metodu ilə təşkili şagirdlərə "kəşflər etmək", tənqidi düşüncə, qarşıya çıxan problemləri həll etmək imkanı verir. Bu metodla keçilən dərslər şagirdlərin maraq dairələrini genişləndirir, onların maraqlarını öz bacarıqlarının

praktik layihələrdə tətbiqinə yönəldir, məsələn, müəyyən materiallardan körpülər, binalar "tikməklə" mühəndislik; sahənin, perimetrin hesablanması kimi ölçmə əməliyyatları ilə riyazi bacarıqlarını; dizayn işləri ilə təsviri incəsənət, texnologiya fənnindən əldə etdikləri bacarıqları inkişaf etdirə bilər, yaxud bu əməliyyatları kompüterdə yerinə yetirməklə kompüterdə iş bacarıqlarını inkişaf etdirə bilərlər. Açıq havada, təbiətdə keçilən həyat bilgisi məşğələləri şagirdlərin bitkiləri, heyvanları və əmək alətlərini müşahidə etməklə əldə etdikləri məlumatları genişləndirir.

Praktik dərslərin və məşğələlərin STEM metodu ilə aparılması, bitkilərin əkilməsi, becərilməsi, heyvanlara qulluq prosesində iştirak etmək şagirdlərdə əmək alətlərindən istifadə bacarıqları yaradır. Bir sıra tədqiqatçıların əsərlərində bu məsələ ilə bağlı maraqlı fikirlərə rast gəlinir, məsələn, B.Akmana görə, anlayışlar zehnin və dilin inkişafı ilə sıx əlaqəlidir. Onun fikrincə, uşaqların inkişafı qruplaşdırma, ümumiləşdirmə, təsnif və öyrənmə kimi 4 mərhələdə inkişaf edir. Uşaqlar dünyaya gəldikləri andan etibarən ətraflarını araşdırmağa və fərqləndirməyə başlayırlar [T.Güler, B.Akman]. J.Piajenin fikrincə isə, öyrənmə prosesinin təşkilində didaktik oyunlar vacibdir. Oyun zamanı obyektlərlə, alətlərlə manipulyasiya etmək uşaqların inkişafına əhəmiyyətli dərəcədə kömək edir [A.Özyürek, S.Gürleyik, S.Özdemir. 2017].

İlk bir neçə ildə uşaqların öyrəndiyi yeni anlayışların sayı sürətlə artır və bu müddətdə oyunlar, oyun materialları, digər uşaqlarla qarşılıqlı əlaqələr uşaqların inkişafına müsbət təsir göstərir. İbtidai sinif şagirdlərinin STEM bacarıqlarını qazanması üçün üç vacib komponent vardır:

- ✓ təhsil proqramı;
- ✓ müəllim;
- ✓ ailə.

Respublikamızın məktəblərinin ibtidai sinif səviyyəsi üzrə STEM metoduna uyğunlaşdırılmış tədris proqramı hazırlanib tədris olunarsa, şagirdlərin fənlər üzrə STEM bacarıqları inkişaf etdirilə bilər. Bu proqram yalnız uşaqların elmi biliklərə yiyələnməsini deyil, həm də elmə müvəffəq olma inanclarını və maraqlarını dəstəkləyər. Bununla yanaşı, STEM metoduna uyğun tapşırıqların hazırlanması da nəzərdə tutulmalıdır. Bu tip tapşırıqlar onlarda bir çox həyati bacarıqları inkişaf etdirə bilər.

STEM metodu ilə aparılan dərsin planı necə olmalıdır? Bu suala 3-cü sinif Azərbaycan dili fənnindən bir dərs nümunəsi ilə cavab verək.

**Fənn:** Azərbaycan dili;

**Sinif:** III sinif;

**Mövzu:** "Ballı və Vız-Vız".

**İnteqrasiya**: riyaziyyat, informatika, təsviri incəsənət.

**Standartlar:** Azərbaycan dili: 1.1.2. Dinlədiyi fikrə münasibət bildirir.
Riyaziyyat: 3.1.1 Əşyaları əlamətlərinə görə fərqləndirir.

İnformatika: 3.2.3. Kompüterdəki sadə proqramları işə salır və bağlayır.
Təsviri incəsənət: 2.1.1. Təsvir alətləri vasitəsi ilə sadə təsvirlər yaradır.

**Qiymətləndirmə forması**: səviyyə üzrə qiymətləndirmə.

**İş forması:** qruplarla iş, kollektiv iş.

**Dərsin gedişi**

**I mərhələ.** Mətn oxunur və təhlil olunur.

**Ballı və Vız-Vız**

Ballı adlı arı ilə Vız-Vız adlı milçək dostluq edirdilər. Onlar hər gün çəmənlikdə görüşür, hərə öz işi ilə məşğul olurdu: Ballı çiçəklərdən şirə çəkir, Vız-Vız isə hara gəldi qonur, qarşısına nə çıxırdısa, yeyirdi.

Bir yay axşamı Vız-Vız öz dostu Ballını milçəklər ailəsinə dəvət etdi. Bura elə səs-küylü idi ki, ağız deyəni qulaq eşitmirdi. Milçəklər yemək görən kimi bir-birinə imkan vermədən irəli cumurdular. Elə milçək vardı ki, yeməkdən şişib, dozanqurdu boyda olmuşdu. Eləsi də vardı ki, acından qanadlarını da tərpədə bilmirdi. Hamısının da qaşqabağı yerlə gedirdi.

– Bu necə yaşayışdır? – deyə Ballı dilləndi. – Bu qarmaqarışıqlıqda yaşamaq olar? Sizin ölkənizdə nə ədalət var, nə qayda-qanun. İndi gəl bizim evə gedək.

Ballı Vız-vızı öz ailəsinə qonaq apardı. Burada ana arı pətəyin ortasında əyləşib, hamıya göz qoyurdu. Onun sözü bütün arılar üçün qanun idi. Ana arı hamı ilə ədalətlə davranırdı. Pətəyin qarşısında qarovulçu arılar dayanmışdı. Onlar çəmənlikdən qayıdanları bir-bir yoxlayıb pətəyə buraxır, şirə gətirməyənləri geri qaytarırdılar.



İşçi arılar mumdan şan hörürdülər. Onlar həvəslə işləyirdilər. Heç kəs bir-birinin yeməyinə şərik çıxmırdı. Bütün arılar çox şən və firavan görünürdülər.

– Bu qədər işiniz ola-ola, siz necə də xoşbəxtsiniz, – deyə Vız-Vız dilləndi.

– Ədalət, nizam-intizam olan yerdə hamı xoşbəxt olur və işləməkdən həzz alır – deyə Ballı cavab verdi.

Vız-Vız arıların xoşbəxtliyinin səbəbini başa düşdü. Onu da başa düşdü ki, milçəklər heç zaman xoşbəxt ola bilməyəcəklər. [III sinif, "Azərbaycan dili", s. 54–55].

Bu mərhələdə şagirdlər oxu, dinləmə və təhliletmə bacarıqlarını təkmilləşdirirlər.

**II mərhələ.** Arılar və milçəklər haqqında videoçarx nümayiş etdirilir. Bu mərhələdə şagirdlərin qavrama, diqqət, dərketmə, yaddaş kimi idrak prosesləri inkişaf edir.

**III mərhələ.** Hər qrup öz tapşırığı üzərində işləyir.

**I qrup**

***Tapşırıq 1***. Mətni oxuyun. Ballı və Vız-Vızın evini təsəvvürünüzdə canlandırın.

***Tapşırıq 2.*** Ballıya "ev tikmək" üçün məmulatları toplayın, onun üçün "ev tikin".

***Tapşırıq 3***. Videoçarxa baxın və aşağıdakı suallara cavab yazın:

1) Arılar haqqında hansı məlumatları əldə etdiniz?
2) Arılar harada yaşayırlar?
3) Arı pətəyində necə nizam-intizam var?
4)Arıların insanlara faydası və zərəri nədən ibarətdir?

**II qrup**

***Tapşırıq 1***. Mətni oxuyun. Vız-Vızın evini təsəvvürünüzdə canlan dırın.

***Tapşırıq 2.*** Vız-Vıza "ev tikmək" üçün məmulatları toplayın, onun üçün "ev tikin".

***Tapşırıq 3.*** Videoçarxa baxın və aşağıdakı suallara cavab yazın:

1) Milçəklər haqqında hansı məlumatları əldə etdiniz?
2) Milçəklər harada yaşayırlar?
3) Milçəklərin həyatında nizam-intizam varmı?
4) Milçəklərin insanlara faydası və zərəri nədən ibarətdir?

Bu mərhələ şagirdlərə tədqiqat aparmaq və texnologiyalardan istifadə imkanları verir.

**3.1.** Şagirdlər arı pətəyi və milçək yuvası, onların quruluşu haqqında araşdırmalar aparırlar. Araşdırmalardan sonra topladıqları məlumatları yazılı şəkildə təqdim edirlər (**Azərbaycan dili).**

**3.2.** Şagirdlər arı pətəyi və milçək yuvası formasında fiqurlar çəkmək üçün müşahidə və ölçmə-hesablama işləri aparırlar **(riyaziyyat**). Fərqli həndəsi fiqurlar çəkmək və onlardan arı pətəyinin, milçək yuvasının modelinin yaradılmasında istifadə etmək üçün riyaziyyat dərslərində öyrəndikləri biliklərdən istifadə edirlər.





**3.3.** Karton qutulardan, plastilindən və ya digər müvafiq məmulatlardan arı pətəyi, milçək yuvasının modelini qurur və rəngləyirlər (**texnologiya və təsviri incəsənət).**





**IV mərhələ.** Hər qrup öz işini təqdim edir və uşaqlar bir-birinin işlərini dəyərləndirirlər. Əgər qrup işlərində çatışmazlıqlar varsa, düzəlişlər olunur.

**V mərhələ**. Kollektiv iş təşkil olunur. Şagirdlər nağıla əsasən, bağ evinin modelini tərtib edirlər. Bu bağda Ballı ilə Vız-Vızın evlərini yerləşdirirlər. Bununla da I qrupla II qrupun əl işləri birləşdirilir.

**VI mərhələ**. Müəllim qrup işlərini və şagirdlərin fərdi işlərini ayrı-ayrılıqda qiymətləndirir. Yerinə yetirilmiş işlərin qiymətləndirilməsi növbəti tapşırıqları daha yaxşı yerinə yetirməyə kömək edir.

Qeyd etmək lazımdır ki, uşaqlarda STEM bacarıqlarını inkişaf etdirməyin ən təsirli yolu didaktik oyunlardur. Müəllimlər didaktik oyunları tətbiq etməklə məqsədli şəkildə vacib bacarıq və vərdişlərə yönəldilmiş STEM fəaliyyətləri üçün şərait yaradırlar. Müəllim uşaqları didaktik oyunlara cəlb etməklə onların ətrafdakı əşyaların, materialların və hadisələrin araşdırılmasında fəal iştirakını təmin edir. STEM metodundan istifadə zamanı müəllim məqsədə çatmaq üçün şagirdlərin düşüncələrini anlayaraq işə rəhbərlik edir. Şagirdlər müstəqil işləmək vərdişlərinə yiyələnirlər. Uşaqların icra bacarıqlarını fəallaşdıran STEM metodundan istifadə olunaraq təşkil edilən fəaliyyətlərin sinif, laboratoriya və ya açıq hava variantları mümkündür.

## Nəticə / *Conclusion*

Beləliklə, bu dərs nümunəsindən aydın olur ki, STEM metodunun tətbiqi şagirdlərin hərtərəfli inkişafına xidmət etməklə yanaşı, aşağıdakı imkanları yaradır:

– fənlərarası əlaqələrin yaradılması;
– öyrənilən biliklərin həyatda tətbiq edilməsi;
– şagirdlərin aldıqları məlumatların yazılı və şifahi şəkildə təqdim edilməsi;
– uşaqların yaradıcı təfəkkür və təxəyyüllərinin inkişaf etdirilməsi;

– tədqiqatçılıq bacarıqlarının formalaşdırılması;

– qrup və kollektiv şəkildə işləməklə qarşılıqlı fəaliyyət göstərmək;

– müxtəlif mənbələrdən istifadə etmək, əldə edilmiş informasiyaları çeşidləmək;

– təhsildə qarşılaşa biləcəkləri çətinliklərin öhdəsindən gəlmək;

– uşaqlarda təqdimat zamanı şəxsi mülahizələrini irəli sürmək, öz fikrinu müdafiə etmək, tənqidə dözümlülük nümayiş etdirmək kimi vərdişlər formalaşdırmaq.

STEM metodu ilə şagirdlər tədris olunan fənnin nəinki nəzəri, həmçinin praktik sahələrini də təlim prosesində öyrənəcəklər. Beləliklə, gələcəkdə şagirdlərin qazandıqları bilik və bacarıqların sosial mühitdə tətbiqi üçün geniş imkanlar açılır. Müasir təlim metodları arasında xüsusi yer tutan, XXI əsr bacarıqları ilə səsləşən STEM metodu dünyada müasir təlimdə ən çox tətbiq olunan metoddur.

## Ədəbiyyat / References


1. “Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartlarının təsdiqi haqqında” AR Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli 72 №-li qərarı. (1999). “Azərbaycan müəllimi”, 13-19 may.
2. Əhmədov D. A. İnnovasiya iqtisadiyyatlarının əmək resurslarının müqayisəli təhlili. https://dayanat.wordpress.com
3. Əsədova İ.M. (2006). Şagirdlərin intellekt tərbiyəsi təhsilin əsasıdır. Bakı Dövlət Universitetinin “Dil və ədəbiyyat” beynəlxalq elmi-nəzəri jurnalı. Bakı, № 5, s.141-142.
4. Əsədova İ.M. (2006). İdrak proseslərinin inkişaf etdirilməsində müasir təlim metodlarından iştifadə. “İbtidai məktəb və məktəbəqədər tərbiyə”. Bakı, № 4, s.51-58.
5. Akar Ü. (2007). Öğretmen adaylarının bilimsel süreç becerileri ve eleştirel düşünme beceri düzeyleri arasındaki ilişki. Yayımlanmamış yüksek lisans tezi. Afyon Kocatepe Üniversitesi. Sosyal Bilimler Enstitüsü, Afyon.
6. Bozkurt O. (2005). İlköğretim 6. sınıf fen bilgisi dersinin dunn ve dunn öğrenme stili modeli kullanılarak öğretilmesinin öğrencilerin akademik başarı, tutum ve bilimsel süreç becerileri üzerine etkisi. Yayımlanmamış Doktora Tezi. Gazi Üniversitesi, Ankara.
7. Güler T. ve Akman, B. (2006). 6 yaş çocuklarının bilim ve bilim insanı hakkındaki görüşleri. Hacettepe Üniversitesi, Eğitim Fakültesi Dergisi 31, s.55-56
8. Özyürek A., Gürleyik S., Özdemir S. (2017). Çocuklarda sayi, sivi ve uzunluk korunumu gelişiminin cinsiyet ve yaş değişkeni açisindan ince-

lenmesi. Millî eğitim sayı. 216 Güz.
9. Marginson S., Tyutler R., Freeman B., & Roberts K. (2013). STEM: country comparisons: international comparisons of science, technology, engineering and mathematics (STEM) education.
10. https://youtu.be/q57BDeHsvoA.
11. http://portal.azertag.az/az/node/15204

# IN TEACHING THE SUBJECT OF LIFE KNOWLEDG AND ITS TEACHING METHODS INCULCATION OF HUMAN VALUES

**Hagigat Hajiyeva**
Azerbaijan State Pedagogical University, Doctor of Philosophy in Pedagogy, Associate Professor. E-mail: haciyeva_53@mail.ru
https://orcid.org/0000-0002-3209-9805

**Abstract.** The article is devoted to the opportunities and ways of inculcating human values in students in the teaching of life knowledge and its teaching methods, which are university subjects, and the formation in students of the moral qualities needed by the future primary school teacher. First of all, the essence of human qualities and values is explained. People with such qualities are justified by society. The urgency, theoretical and practical significance of the problem, the possibilities of its solution and effective ways are clarified. The lessons confirm the advantages of giving wide space to the advice of genius and prominent personalities in inculcating human values and ethical behavior in students. In the content of the subject of life knowledge and its teaching methods, the possibilities of the "Spirituality" section in terms of solving the problem are explained. The methods, forms and ways of using the existing opportunities are clarified. Methodical recommendations are given for teachers and students to solve the problem.

**Keywords:** student, human values, simplicity, honesty, morality, conscience, kindness, knowledge of life.

**To cite this article**: Hagiyeva H. (2021) In teaching the subject of life knowledge and its teaching methods inculcation of human values. Journal of Preschool and Primary Education, V. 235, İssue II, pp. 69-79.

**Article history:** Received – 08.04.2021; Accepted – 17.04.2021.

# HƏYAT BİLGİSİ VƏ ONUN TƏDRİSİ METODİKASI FƏNNİNİN TƏDRİSİNDƏ İNSANİ DƏYƏRLƏRİN AŞILANMASI

**Həqiqət Hacıyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, pedaqogika üzrə fəlsəfə doktoru, dosent. E-mail: haciyeva_53@mail.ru
https://orcid.org/0000-0002-3209-9805

**Annotasiya.** Məqalə ali məktəb fənlərindən olan həyat bilgisi və onun tədrisi metodikasının tədrisində tələbələrə insani dəyərlərin aşılanması və gələcəyin ibtidai sinif müəlliminə lazım olan mənəvi keyfiyyətlərin formalaşdırılmasının imkan və yollarına həsr olunmuşdur. İlk növbədə, insani keyfiyyətlərin, dəyərlərin mahiyyəti izah olunur. Belə keyfiyyətlərə malik insanların cəmiyyət tərəfindən müsbət qarşılanması əsaslandırılır. Problemin aktuallığı, nəzəri, praktik əhəmiyyəti, onun həlli imkanları, səmərəli yolları aydınlaşdırılır. Dərslərdə tələbələrə insani dəyərlərin, etik davranışların aşılanmasında görkəmli şəxsiyyətlərin nəsihətlərinə geniş yer verilməsinin üstünlükləri təsdiq edilir. Mövcud imkanlardan istifadə edilməsinin metod, forma və yolları aydınlaşdırılır. Problemin həllinə dair müəllim və tələbələr üçün metodik tövsiyələr verilir.

**Açar sözlər:** həyat bilgisi, tələbə, insani dəyərlər, sadəlik, düzlük, əxlaq, vicdan, xeyirxahlıq.

**Məqaləyə istinad:** Hacıyeva H. (2021) Həyat bilgisi və onun tədrisi metodikası fənninin tədrisində insani dəyərlərin aşılanması. «Məktəbəqədər və ibtidai təhsil», № 2 (235), səh. 69-79.
**Məqalə tarixçəsi:** göndərilib – 05.04.2021; qəbul edilib – 16.04.2021.

## Giriş / *Introduction*

Hər bir xalqın, o cümlədən, Azərbaycan xalqının tarixi yaddaşına həkk olunan, özünə və digər xalqlara münasibətini ifadə edən milli keyfiyyətlər mənəvi dəyərlər sayılır və bu dəyərlər milli mənəviyyatın, milli əxlaqın əsasını təşkil edir. Alicənablıq, əliaçıqlıq, başqasına əl tutmaq, dədə-babadan miras qalmış qonaqpərvərlik, kişi sözü, ağsaqqala hörmət, müəllimə ehtiram, uşağa nəvazişlə yanaşmaq, bayramların xüsusi təntənə ilə, ənənələrə uyğun qeyd edilməsi kimi gözəl xüsusiyyətlər xalqımıza xas olan milli-mənəvi dəyərlərdəndir.

Cəmiyyət üzvünün ictimai yerlərdə özünü necə aparmasını müəyyənləşdirən qaydalar mövcuddur ki, insanlar davranışlarında həmin qaydalara əməl edirlər. Qaydaların bəziləri dövlət tərəfindən qoyulur, qanunlarla təsbit olunur. Həmin qaydaları pozanlar ya cinayət məsuliyyətinə cəlb olunur, ya da müvafiq orqanlar tərəfindən qaydalara əməl olunmasına məcbur edilirlər. Belə qaydalar ***əxlaq normaları*** adlandırılır. Heç bir qanunda yazılmayan qaydalar da vardır ki, onlar cəmiyyətin şüurunda möhkəmləndirilmişdir.

Milli-mənəvi dəyərlər fiziki, psixi inkişaf, xarakter, dünyanı qavrama və s. özünəməxsus xüsusiyyətləri olan insanlarda, ictimai şüurun təsiri nəticəsində yaranır. Milli-mənəvi dəyərlərə dair baxışlar, təsəvvürlər və amallar şəxsiyyətin mənəvi aləmini təşkil edir. Deməli, "milli-mənəvi dəyərlər" anlayışı ilə "milli-mənəvi keyfiyyətlər" anlayışı eyni məna kəsb edir və mənəvi dəyərlərin təhsilalanlara mənimsədilməsi, mənəvi keyfiyyətlərin aşılanması, onların milli-mənəvi tərbiyə prosesinin aspekti kimi götürülür.

Milli-mənəvi dəyərlər insanlar arasında münasibətləri tənzimləyən, davranışda hər hansı bir hərəkətin qadağan edilməsi, yaxud müəyyən vəziyyətdə özünü necə aparmaq haqqında qaydalar insanlar üçün mənəvi normadır. Mənəvi dəyərlərin əsasında ləyaqət durur.

**Ləyaqət** – insanın zülmkara qarşı mübarizəsi, haqqın, ədalətin müdafiəçisi olması, vətənin mənafeyini öz mənafeyindən uca tutması, bir sözlə – kamilliyə can atması hesab edilir. İnsanın mənəvi yüksəkliyinə onun ləyaqətli olması aiddir. Ləyaqətin qorunub saxlanması vicdanlı, namuslu insanların əsas keyfiyyətlərindəndir. Belə keyfiyyətlərə malik olan insan şəffaf fəaliyyət göstərir. O, öz mənafeyini üstün tutmur, haqqın, ədalətin tərəfində durur. Bu isə çox məsuliyyətli bir işdir. Ömrünü ləyaqətlə, şərəflə yaşamaq kamil insanlara xas olan bir xüsusiyyətdir. Hər bir insan öz ləyaqətini qoruyub saxlamalı, onun ləkələnməsinə yol verməməlidir. Bu sahədə cəmiyyətin də müəyyən vəzifələri vardır. Cəmiyyətdə ədalətli qanunlar hökm sürürsə, namuslu insanın ləyaqəti heç vaxt alçaldılmaz. Ədalət – insan ləyaqətinin, mənəvi və hüquqi borcun tam düzgün qiymətləndirilməsidir.

***Əsas hissə /Main Part***

Müasir dövrdə gənclərə, xüsusilə ali məktəb tələbələrinə insani dəyərlərin aşılanması dövrün əsas tələblərindəndir. Ali məktəb fənlərinin tədrisində problemin həlli imkanları mövcuddur. Pedaqoji ali məktəblərin tələbələrinə, xüsusilə ibtidai sinif müəllimliyi ixtisası üzrə təhsil alanlara insani dəyərlərin öyrədilməsi, onlarda mənəvi keyfiyyətlərin formalaşdırılması daha zəruridir. Problemin fənlərin məzmununa uyğun olaraq həll edilməsi mümkündür. Ali məktəb fənlərinin, o cümlədən, həyat bilgisi və onun tədrisi metodikası fənninin məzmunu, problemin həlli baxımından geniş imkanlara malikdir. Əvvəla, fənlərin tədrisinin öyrədici funksiyası ilə yanaşı, tərbiyəedici vəzifəsi də mövcuddur. Bu vəzifənin həyata keçirilməsi insani dəyərlərin aşılanmasında geniş imkanlar yaradır.

İkinci, həyat bilgisi və onun tədrisi metodikası fənninin bir bölməsi mənəviyyatla bağlıdır. Həmin bölmənin materiallarında mənəvi tərbiyənin, insani dəyərlərin formalaşdırılması məsələləri öz əksini tapmışdır. Bu materialların tədrisi tələbələrin mənəvi aləminə daxil olmağa, onlara insani dəyərlərin aşılanmasına imkan verir [Hacıyeva H.M. və b. 2014]. Bunun üçün mövzuların tədrisində mütəfəkkirlərin, pedaqoq-alimlərin, tərbiyəçilərin insani dəyərlərə dair əsərlərindən, fikirlərindən istifadə edilməsi mümkündür. Müəllim mənəviyyatla, xüsusilə insani dəyərlərlə bağlı təhsilalanlara müəyyən normaları çatdırmaq imkanlarına malik olur.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may, 2014-cü il tarixli əmri ilə təsdiq olunmuş "Müəllimlərin etik davranış qaydaları" müəllim peşəsini seçən tələbələrdə insani dəyərlərin formalaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Orada "Müəllim şəxsiyyəti" bölməsində müəllimə xas olan insani dəyərlər tam əksini tapmışdır. Sənəddə göstərilir ki, müəllim:

– təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırır, onları vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik ruhunda tərbiyə edir, müstəqil həyata və əmək fəaliyyətinə hazırlayır;

–yenilikçidir, innovasiya və yeni tədris texnologiyalarını mənimsəyir və öz fəaliyyətində tətbiq edir;

– ona həvalə edilmiş işin keyfiyyətinə, nəticələrinə görə və hər bir təhsilalanın intellektual, emosional, mənəvi inkişafı üçün məsuliyyət daşıyır;

– gənc nəslə milli və bəşəri dəyərlər aşılamaqla təhsilalanların mədəni inkişaf prosesində birbaşa iştirak edir;

– təhsilalanlara keyfiyyətli təhsil verməklə peşəsinə olan ictimai etimad və hörməti doğruldur;

– pedaqoji etika və əxlaq normalarına riayət edir, müəllim nüfuzunu yüksək

tutur, ziyalılıq nümunəsi göstərir;

– şəxsi nümunəsi ilə təhsilalanlara Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət-ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət, qayğı hissi aşılayır;

– təhsilalanların şərəf və ləyaqətinə hörmətlə yanaşır, əsassız mühakimələrə yol vermir, obyektivlik və qərəzsizlik nümayiş etdirir;

– peşə fəaliyyəti dövründə maraqların toqquşmasına yol vermir və vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etmir;

– bilərəkdən yalan, təhrif olunmuş, yaxud öz şəxsi marağı naminə həmkarının vəziyyətini pisləşdirən və ya yaxşılaşdıran əsassız məlumat verməsinə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır;

– təhsil müəssisəsinin əmlakından səliqəli və səmərəli istifadə edir, onu qoruyur, həmin əmlakdan (sinif otağı, tədris resursları, telefon, kompüter, mebel) şəxsi maraqları üçün istifadə etmir;

– icra və əmək intizamına riayət edir, iş vaxtında kənar işlərlə məşğul olmur, üzrsüz səbəblərə görə işdən yayınmır;

– şəxsi həyatında milli əxlaq, ictimai davranış normalarına riayət edir [Müəllimlərin etik davranış qaydaları].

Müəllimə aid edilən bu yüksək səviyyəli keyfiyyətlər müəllim şəxsiyyətinin mənəvi zənginlik göstəriciləridir. Əgər bu gün ümumtəhsil məktəblərində (həmçinin, ali və orta ixtisas məktəblərində) çalışan müəllimlər həmin keyfiyyətləri öz şəxsiyyətində, şəxsi nümunəsində təcəssüm etdirirlərsə, deməli, ona tapşırılan işin səmərəli nəticələri də lazımi tələblər səviyyəsinə qalxır. Həmin mənəvi keyfiyyətlərlə yaşayan, çalışan müəllimlər onları öz yetirmələrinə də aşılayırlar.

İnsani dəyərlər insan mənəviyyatını formalaşdıran keyfiyyətlərdir. Bunlara düzlük, hünər, zorakılıqlardan uzaq həyat tərzi, məhəbbət, halallıq, qayğıkeşlik, rəhm, insaf, obyektivlik, xeyirxahlıq, humanizm, əqidəli olmaq, inam, məsuliyyət, vicdan və başqa xüsusiyyətlər aiddir.

*Sadəlik və səmimilik* insanın ən üstün cəhətlərindəndir. Bir insanı digərindən fərqləndirən əsas cəhətlər onun tərbiyəsi, etikası, mədəniyyəti, düşüncə tərzi, xeyirxahlığı və başqa bu kimi keyfiyyətlərdir.

*Mənəviyyat* bizə insanlar arasında mövcud olan münasibətləri və bu münasibətlərdən irəli gələn vəzifələri, xoşbəxtliyə necə nail olmağı öyrədir.

Əxlaqın əsas normalarından biri də düzlük və doğruluqdur. Bu nəcib keyfiyyətlər min illər ərzində bəşər cəmiyyətinin inkişafından, zəhmətkeş insanların birgəyaşayışının zəruri tələblərindən doğmuş və xalq mənəviyyatı üçün səciyyəvi olmuşdur. Kamil insan sözündə doğruçu, işində düz olmalıdır. Belə olmasa, insan fəal mövqedə ola bilməz, şəxsiyyət kimi yüksəlməz. Düzlük və doğruçuluq ka-

milliyin, xeyirxahlığın, fəzilətin normaları, paylamaqla azalmayan, xərclənməklə qurtarmayan bir dövlətdir. Doğruçuluq, düzlük insana həm mənəvi gözəllik, həm də səadət və xoşbəxtlik gətirir [Mollayev İ. A. 1996].

İnsan halallığın, düzlük və doğruçuluğun əks qütblərini təşkil edən sifətlərdən uzaq olmalıdır. Xalq yalançılıq, əliəyrilik, riyakarlıq, ikiüzlülük, oğurluq, hiyləgərlik kimi sifətləri hər zaman pisləmişdir.

Uşaqlarda təsərrüfatçılıq keyfiyyətləri, ərzağa, xüsusilə çörəyə qənaətcil münasibət, vaxtdan səmərəli istifadə etmək, zəhmətə, əməyə məhəbbət kimi xüsusiyyətlərin formalaşdırılmasında xalq deyimlərindən istifadə olunmalıdır.

Xalq əxlaqının əsas komponentlərindən olan sadəlik və təvazökarlıq da tarix boyu fəzilət sayılmışdır. Xalq deyiminə görə, «ağac bar verəndə başını aşağı saldığı» kimi, insan da kamala çatdıqca, vəzifəsi və xidməti etibarı ilə məşhurlaşdıqca, təvazökar olmalıdır. Çox bilmək, lakin özünü sadə aparmaq mənəvi yüksəkliyin; özü haqqında yüksək fikirdə olub, «özünü gözə soxmaq» isə axmaqlığın, mənəvi şikəstliyin təzahürüdür. Mənəvi saflıq, sadəlik və təvazökarlıq hərzəçiliyi və məzmunsuz danışığı rədd edir [Həşimov Ə. Ş., Sadıqov F. B. 1993].

Əxlaq kodeksinin mərkəzində düzlük, doğruçuluq, saflıq, sadəlik, təvazökarlıq, dostluq, yoldaşlıq, vətənpərvərlik, vicdanlı olmaq kimi keyfiyyətlər durur. Əxlaqın tərkib hissəsi olan düzlük və doğruçuluq aşağıdakı kimi izah edilir.

***Doğruçuluq*** – həqiqəti olduğu kimi söyləmək, yalana yol verməməkdir.

***Qayğıkeşlik*** – bu və ya digər insana, hadisəyə dayaq durmaq, kömək əli uzatmağın zəruriliyi hissidir.

***Rəhm*** – çətinliyə və dara düşənlərin imdadına çatmaq istəyidir.

**Ədalət** – insanlıq ləyaqətinin, mənəvi və hüquqi borcun tam dərk edilməsidir.

***Xeyirxahlıq*** – yaxşılıq etməkdir. Onun əlamətləri nəciblik, həlimlik, mehribanlıq, səmimilikdir.

***Humanizm*** – insanlara və digər canlılara qayğı, diqqət, məhəbbət bəxş etməkdir.

***Düzlük –*** özgə əmlakına toxunmamaq, oğurluq, əliəyrilik etməmək, insanın bütün fəaliyyətlərində öz əqidəsinə sadiqliyi deməkdir, tapşırılan işə vicdanla və məsuliyyətlə yanaşmaq bacarığıdır. Düzlük hamının bir-birində görmək istədiyi, həyatımızı idarə edən çox böyük mənəvi qanundur. O, sözdə, əməldə, yaşayışda, davranışda, münasibətlərdə gözlənilməsi tələb olunan və hamıya rahatlıq gətirən mənəvi zərurətdir. Düzlük tərbiyəsinin bir neçə əxlaqi komponentləri mövcuddur:

1) *Əqidə* – insanın nəyin xatirinə və necə davranmasını şərtləndirir.
2) *İnam* – yaxşı və pisin seçilməsi, yaxşıya doğru meyil etməkdir.
3) *Məsuliyyə*t – tapşırılan işə vicdanlı münasibətdir.
4) *Qorxu* – məsuliyyətdən doğan hissdir.

5) *Vicdan* – insanın cəmiyyət qarşısında mənəvi məsuliyyətini dərk etməsi, əməl və hərəkətlərini əxlaqi baxımdan qiymətləndirməsidir. Vicdan, xüsusən dörd cəhəti (saflıq, mənəvi təmizlik, paklıq, bütövlük) özündə birləşdirir [Fətəliyev X. 1992].

Göstərilən keyfiyyətlər həyat bilgisi və onun tədrisi metodikası fənninin mövzuları ilə əlaqələndirilməli, dahilərimizin, görkəmli şəxsiyyətlərimizin fikir və ideyaları ilə zənginləşdirilərək tələbələrə çatdırılmalıdır.

Şəxsiyyətin formalaşmasında təlim-tərbiyəyə, xüsusilə insani dəyərlərə üstünlük verən, dövrünün ensiklopedik biliklərə malik, "təlim-tərbiyə ustadı" zirvəsinə qalxmış aqil ziyalısı N. Tusi yazırdı: "Uşağa yalan danışmaq üçün şərait yaradılmamalı, istər yalan, istər doğru olsun – and içməyə icazə verilməməlidir. And içmək, ümumiyyətlə, pis adətdir" [Mollayev İ. A. 1996].

N. Tusi ədalət, ünsiyyət, süfrə mədəniyyəti, məclisdə davranış, mərifət qaydalarını ən kiçik elementlərinə qədər xırdalamış, onların uşaqlara aşılanmasını böyüklərə təklif etmişdir.

Dahi şairimiz İmadəddin Nəsimi insanı yaradıcı, qüdrətli, mübariz, fəal qüvvə kimi tərənnüm etmiş, şəxsiyyətin xüsusiyyətlərini açmış, insan şəxsiyyətinin müsbət xüsusiyyətlərini dəyərləndirməyi tövsiyə etmişdir. Böyük mütəfəkkir kamil insanda heç bir qüsur görmək istəmir, onun hərtərəfli inkişafını tərənnüm edirdi. Əgər insanda qüsur varsa, onu zəmanənin çatışmazlığı kimi qiymətləndirirdi.

İ. Nəsimi həqiqət aşiqi olmaqla yanaşı, hamını əsl həqiqəti, gerçəkliyi dürüst anlamağa çağırır və insanlara mənliyini itirib, riyakar, ikiüzlü olmamağı məsləhət görürdü. İnsani keyfiyyətlərə malik olanları «kamil insan» sayır və böyüklərə belə insan yetişdirməyi tövsiyə edirdi. O, insanlara müraciət edərək, onları həqiqəti sevməyə, düzlüyə səsləyir, pak, dürüst, idraklı, əsl insanlara oxşamağı məsləhət görürdü.

Əhvədi Marağayi yaradıcılığında mühüm mərhələ olan «Cami-Cəm» adlı fəlsəfi-etik, əxlaqi-siyasi əsərində insani keyfiyyətlərin nələrdən ibarət olduğunu tərənnüm etmişdir. Əsərlərində insani keyfiyyətlərin təhlilini vermiş, hamını bu gözəlliklərə malik olmağa çağırmış, qeyri-insani dəyərlərdən uzaq olmağı nəsihət etmişdir [Marağayi Əhvədi. 1970].

Dahi N. Gəncəvinin yaradıcılığında əxlaq tərbiyəsi mühüm yer tutur. O, yazırdı ki, insan öz ehtirasının qulu olmamalı, hər cür alçaqlığa qarşı mübarizə aparmalı, insan ləyaqətini ləkələyən həzzdən, tamahkarlıqdan kənarda qalmalıdır [N. Gəncəvi. 1982].

M. Füzulinin əsərlərində də tərbiyəyə dair çox qiymətli fikirlər irəli sürülmüşdür. O, qeyd edirdi ki, dünya bağındakı ağacın meyvələri olan gənc nəsil yaşlı nəsildən daha kamil, daha lətafətli və daha gözəl olmalıdır. O istəyirdi ki, insan

xoşrəftar, gülərüz, səxavətli, doğruçu, mərd, vətənini, xalqını sevən, sədaqətli, sirr saxlayan, ana-atalara qarşı hörmətli, dediyi sözün məsuliyyətini dərk edən, dostluqda sədaqətli olsun.

M.Füzuliyə görə, çox mal-dövləti, sərvəti olanlar və bu sərvət sayəsində mənsəbə çatanlar dövlətli deyillər. Dövlətli o adamlardır ki, öz nəfsini, tamahını cilovlaya bilsin və qənaət əhli olsun.

A.Bakıxanov tərbiyənin məqsədinin həqiqi insan yetişdirmək olduğunu belə əsaslandırırdı: “Dünyada ən ölməz şey xeyirxahlıqdır...” O, uşaqların, yeniyetmələrin davranış və əxlaq məsələlərinə, onların xarakterinin formalaşmasına əsas məsələ kimi baxırdı. Nəzakətli olmağı, təvazökarlıq, səmimilik, doğruçuluq, dəqiqlik, diqqətlilik, səliqəlilik, dözümlülük, xeyirxahlıq, ehtiyatlılıq, əməksevərlik kimi keyfiyyətləri müsbət xüsusiyyət hesab edir və onların gənc nəsildə formalaşdığını görmək istəyirdi [Seyidov Ə. 1968].

Azərbaycan xalqının böyük oğlu, görkəmli maarifpərvər M.F.Axundov uşaqlara nəcib əxlaqi keyfiyyətlərin aşılanmasına, vətənpərvərlik tərbiyəsinə böyük əhəmiyyət verirdi. Onun əxlaqi tərbiyə haqqındakı fikirlərində dostluq, yoldaşlıq, ədalət, iradə, düzlük, sədaqət, mərdlik, yeniliyə, azadlığa can atmaq kimi keyfiyyətlər mühüm yer tutur [Seyidov Ə. 1968].

Böyük maarifçi S.Ə.Şirvani də əxlaq tərbiyəsinə xüsusi yer verirdi. O, adamlarda müşahidə etdiyi kobudluğu, zorakılığı, paxıllığı, xəsisliyi, mənsəbpərəstliyi, özündənrazılığı, acgözlüyü, yaltaqlığı, fırıldaqçılığı, iradəsizliyi, boşboğazlığı, satqınlığı, sərxoşluğu və s. iyrənc keyfiyyətləri tənqid edir, gənc nəslə yoldaşlıq, təvazökarlıq, mərdlik, işgüzarlıq, təşəbbüskarlıq, səmimilik, səxavətlilik, nəzakətlilik, vətənpərvərlik, düzlük, xeyirxahlıq və s. nəcib əxlaqi keyfiyyətləri aşılamağı əsl tərbiyə hesab edirdi.

Görkəmli mütəfəkkirlərin elmi əsərlərindən başqa, pedaqoji ədəbiyyatlarda da doğruluq, düzlük, mərdlik, xeyirxahlıq kimi mənəvi keyfiyyətlərə yer verilmişdir.

Bu problemlər başqa xalqların mütəfəkkirlərinin də diqqət mərkəzində olmuşdur. Alman filosofu, psixoloq və pedaqoq F.Herbart şagirdlərin əxlaq tərbiyəsinə üstünlük vermiş, onun yol və vasitələrini müəyyənləşdirmişdir.

Görkəmli rus inqilabçısı, filosof və yazıçı A.N.Radişşevə görə, tərbiyənin əsas vəzifəsi yüksək əxlaqlı, namuslu, zəhmətsevər, xeyirxah, nəcib, mübariz, sağlam, vətənini və xalqını sevən həqiqi vətəndaş hazırlamaqdır. O, təlimi, biliyi əxlaq tərbiyəsi üçün əsas vasitə hesab edirdi.

Rus inqilabçı-demokratı, ədəbi tənqidçi, publisist B.Q.Belinski də uşaqların əxlaq tərbiyəsinə xüsusi qiymət vermişdir. Onun fikrincə, əxlaq tərbiyəsinin vəzifəsi uşaqları pis vərdişlərdən uzaqlaşdırmaq, onları xeyirxahlığa, ədalətə, doğruçuluğa yönəltmək, onlara həqiqi insani keyfiyyətləri aşılamaq olmalıdır [Seyidov Ə. 1968].

Göründüyü kimi, dahi şəxsiyyətlərin əsərləri insani dəyərlərlə bağlı, çox geniş təsirli ideya, fikir və məsləhətlərlə zəngindir. Bu fikir və ideyaların fənlərin, xüsusilə həyat bilgisi və onun tədrisi metodikası fənninin mövzuları ilə əlaqələndirilərək tələbələrə çatdırılması işi müəllimlərin öhdəsinə düşür. Gənclərin, xüsusilə gələcəyin ibtidai sinif müəllimlərinin müasir tələblər baxımından əsl mütəxəssis, şəxsiyyət kimi yetişdirilməsində müəllimlər bu zəngin xəzinədən geniş istifadə etmək imkanına malikdirlər.

Tədqiqatçı pedaqoqlarımızın faydalı fikirləri, məsləhət və tələbləri fənnin müvafiq mövzularının tədrisində tələbələrə çatdırılır. Belə mövzuların tədrisi zamanı müzakirə, debat, diskussiya metodları tətbiq edilir. Müzakirələrdə tələbələrin fikirləri öyrənilir və ümumiləşdirilir. Eyni zamanda, tələbələrin ibtidai siniflərdə tədris edəcəkləri fənlərin, o cümlədən, həyat bilgisi fənninin tədrisində şagirdlərə insani dəyərləri aşılamağın metod, forma və yolları araşdırılır. Dərslərin bu cür təşkili tələbələrdə insani dəyərlərin təbliğinə imkan verir, gələcək pedaqoji fəaliyyətlərində problemin həllinə kömək edir, təlimin keyfiyyətini yüksəldir.

Milli-mənəvi tərbiyənin məqsədi ictimai, mənəvi tələbləri insanların şəxsi mənəvi sərvətinə çevirmək, onların mənəvi nemət kimi qəbul edilməsinə nail olmaqdır.Gənc nəsli milli-mənəvi dəyərlər sistemində yaranan boşluqlardan, yanlış ideologiyalardan, qondarma adətlərdən, hətta başqa xalqların xarakterik xüsusiyyətlərindən, yabançı adət-ənənələrdən qorumaq lazımdır. Əxlaqi dəyərlərimizin toxunulmazlığını təmin etməklə yanaşı, qədim mədəniyyətimizin qaynaqlarını, gözəlliklərini bir örnək kimi başqa xalqlara da sevdirmək lazımdır.

*Mənəvi tərbiyə* – tərbiyənin tərkib hissələri arasında əsas yerlərdən birini tutur. İnsanın ağlı, təfəkkürü ilə yanaşı onun mənəvi aləmi, müsbət əxlaqi keyfiyyətləri formalaşdırılmalıdır. Müəllim kadrlarının yetişdirilməsində bu amil nəzərə alınmalı, tələbələri biliklərlə silahlandırmaq, onlarda geniş elmi dünyagörüşü yaratmaqla, mənəvi cəhətdən kamil, yüksək əxlaqlı vətəndaşlar tərbiyə etməklə cəmiyyətimizi saflaşdırmaq, onun özülünü, dayaqlarını möhkəmləndimək əsas problemlərdən biridir. İnsanlar nə qədər bilikli, fiziki cəhətdən nə qədər sağlam olsalar da, əgər əxlaqi cəhətdən kasıb, mənəviyyatca yoxsuldurlarsa, belə cəmiyyətin sağlam əsaslar üzərində bərqərar olduğunu söyləmək çətindir.Ona görə də tərbiyənin tərkib hissələri arasında mənəvi tərbiyə məqsədinə, yerinə yetirməli olduğu vəzifələrinə görə daha geniş əhatəli və vacibdir. Müasir dövrdə cəmiyyətimizin həyatında mənəvi amilin təsir dairəsinin genişləndirilməsinə daha çox ehtiyac yaranmışdır.

Pedaqoji ədəbiyyatda "mənəvi tərbiyə", "mənəvi inkişaf" anlayışlarına tez-tez rast gəlinir. Mənəvi tərbiyə insanın şüuruna, hiss və duyğularına, davranışına

sistemli, məqsədyönlü, mütəşəkkil təsir etməklə yanaşı, onda əxlaqi keyfiyyətləri, vətəndaş yetkinliyini, fəal həyat mövqeyini formalaşdırır. Mənəvi inkişafa şərait yaradan mənəvi tərbiyənin nəzəriyyə və təcrübəsinin əsasını əxlaq təlimi təşkil edir.

Əxlaq – cəmiyyətdə etik davranışın, şüurlu fəaliyyətin, insanlar arasında səmimi münasibətlərin təminatçısıdır. Əxlaq ictimai həyatın müxtəlif sahələrində (əmək, məişət, elm, siyasət, ailə, şəxsi, kollektiv və qrupdaxili münasibətlər) insanın davranışını tənzimləyir.

## Nəticə / Conclusion

Beləliklə, bu qərara gəlirik ki, mənəvi davranışı, şüur və hissləri, təsəvvür və anlayışları mənəvi tərbiyə formalaşdırır. O, eyni zamanda, insanlıq, vətənpərvərlik və cəmiyyət üçün son dərəcə vacib olan nəcib keyfiyyətləri də inkişaf etdirir. Mənəvi tərbiyənin vəzifələrinə həm də düzlük, doğruçuluq, böyüyə hörmət, dostluq, sadəlik, təvazökarlıq, mərdlik, cəsurluq, milli mənlik, şərəf və ləyaqət hisslərinin, fəal həyat mövqeyinin və s. müsbət keyfiyyətlərin formalaşdırılması daxildir.

Müəllimlər müvafiq mövzuların tədrisində elmi, pedaqoji əsərlərdə haqqında danışılan insani dəyərləri mühazirə və seminar məşğələlərinin materiallarına daxil edirlər. Problem fənnin tədris proqramında öz əksini tapır, mənbələr göstərilir, nümunələr verilir.

Fənnin tədrisi prosesində tələbələrə insani dəyərlər aşılanır və ibtidai sinif şagirdlərində əsl insani keyfiyyətlərin formalaşdırılmasının üsulları, metod və yolları öyrədilir. Beləliklə, tədris prosesində tələ bələr həm mənəvi cəhətdən kamilləşir, həm də kiçikyaşlıların mənəviyyatca zənginləşdirilməsi metodikasına yiyələnirlər.

## Ədəbiyyat / References


1. Əliyev P., Əhmədov H. (2006). Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı.
2. Fətəliyev X. (1992). Halallıq. Bakı.
3. Hacıyeva H.M. və b. (2014). Həyat bilgisinin tədrisi metodikası. Bakı.
4. Həşimov Ə.Ş., Sadıqov F.B. (1993). Azərbaycan xalq pedaqogikası. Bakı.
5. Qaralov Z. (2003). Tərbiyə. I, II cildlər. Bakı.
6. Müəllimlərin etik davranış qaydaları (AR Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli əmri ilə təsdiq olunmuşdur). (2014). "Azərbaycan müəllimi", 23 may.
7. Əhvədi M. (1970). "Cami-Cəm". Bakı.
8. Mollayev İ.A. (1996). Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında. Bakı, "Maarif".
9. Gəncəvi N. (1982). "İskəndərnamə". Bakı.
10. Seyidov Ə. (1968). Pedaqogika tarixi. Bakı.
11. Suxomlinski V.A. (1975). Vətəndaşın doğulması. Bakı.

# BUILDING THE RELATIONSHIP BETWEEN PRESCHOOL EDUCATIONAL INSTITUTIONS AND FAMILIES

**Rukhsara Tagiyeva**
Institute of Education of the Republic of Azerbaijan leading specialist
E-mail: ruxsare_mirzazade@yahoo.com
https://orcid.org/0000-0003--1244-383X

**Abstract.** This article discusses building the relationships between preschool educational institutions and families and the positive impact of these relationships on education. The stage of preschool education, which is considered as the first stage of an education system, has particular importance in ensuring the continuity of education. Optimal organization of training in preschool educational institutions contributes to achieve effective results in educational process. Building the relationship with the family as an interested party in the organizing of education always shows positive results. Events, walks, support for tutors on national holidays, extracurricular activities, as well as building relationship with parents within the preschool educational institution and ensuring their role as facilitators of learning activities have always been relevant.

**Keywords:** education, upbringing, preschool education, parent, cooperation, child identity, development

**To cite this article:** Tagiyeva R (2021) Building the relationship between preschool educational institutions and families**.** *Journal of Preschool and Primary Education,* V. 235, İssue II, pp. 81-91.
**Article history:** Received –11.04.2021; Accepted – 23.04.2021.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİ VƏ AİLƏ ARASINDA ƏLAQƏLƏRİN QURULMASI

**Rüxsarə Tağıyeva**
Azərbaycan Respublikası Təhsil İnstitutunun aparıcı mütəxəssisi
E-mail: ruxsare_mirzazade@yahoo.com
https://orcid.org/0000-0003--1244-383X

**Annotasiya.** Məqalədə məktəbəqədər təhsil müəssisəsi ilə ailə arasında əlaqələrin qurulması, bu əlaqələrin təhsilə göstərdiyi müsbət təsirdən bəhs olunur. Qeyd olunur ki, təhsilin fasiləsizliyinin təmin edilməsində təhsil sisteminin ilk pilləsi olan məktəbəqədər təhsil pilləsinin xüsusi əhəmiyyəti vardır. Məktəbəqədər təhsil müəssisələrində təlimin optimal şəkildə təşkili təhsil prosesində səmərəli nəticələr əldə olunmasına kömək edir. Təlimin təşkilində maraqlı tərəf olan ailə ilə əlaqələrin qurulması hər zaman müsbət nəticələrlə özünü göstərir. Tədbirlər, gəzintilər, milli bayramlarda tərbiyəçi-müəllimlərə dəstək kimi məktəbəqədər təhsil müəssisəsindən kənar fəaliyyətlərdə, eləcə də məktəbəqədər təhsil müəssisəsi daxilində valideynlərlə əlaqələrin qurulması və onların təlim fəaliyyətinə yardımçı rollarının təmin olunması hər zaman öz aktuallığı ilə seçilir.

**Açar sözlər:** təhsil, tərbiyə, məktəbəqədər təhsil, tərbiyəçi-müəllim, valideyn, əməkdaşlıq, uşaq şəxsiyyəti, inkişaf

**Məqaləyə istinad:** Tağıyeva R. (2021) Məktəbəqədər təhsil müəssisəsi və ailə arasında əlaqələrin qurulması. «Məktəbəqədər və ibtidai təhsil», № 2 (235), səh. 119-130
**Məqalə tarixçəsi:** göndərilib – 11.04.2021; qəbul edilib – 23.04.2021.

## Giriş / *Introduction*

Təhsil prosesi insanların cəmiyyət həyatına düzgün adaptasiya olunmaların da, müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərmələrində və gələcəyi doğru şəkildə inşa etmələrində ən vacib yerlərdən birini tutur. Təhsil həyati bir prosesdir və əlbəttə, bu prosesin həyata keçirilməsində məsuliyyət daşıyan tərəflər, müasir cəmiyyətin tələblərinə uyğun qurulmuş, daim təkmilləşməkdə olan bir sistem vardır.

Azərbaycan Respublikası müstəqillik qazanandan sonra öz təhsil sistemində köklü dəyişikliklər etməklə, mütərəqqi islahatlar aparmaqla təhsilin yenilənməsinə, dünya ölkələrinin təhsili səviyyəsinə çatdırılmasına nail oldu. “Təhsil sistemi” anlayışı özündə təhsilin bütün pillə və səviyyələrini ehtiva etdiyindən biz ona bir vahid, tam şəklində yanaşırıq. Heç şübhəsiz, bu sistem öz fəaliyyətinə, hər şeydən əvvəl, məktəbəqədər təhsillə başlayır.

Təhsil sisteminin yüksək keyfiyyətlə inkişaf etməsi üçün bu sistemə daxil olan bütün tərəflərin meyil, maraq və istəkləri, mənafeləri nəzərə alınmalı, o, tam bir sistem kimi nəzərdən keçirilməlidir. Təbii ki, bu sistemdə ən önəmli yerlərdən birini ailə tutur. Məktəbəqədər təhsil müəssisəsi, daha sonra ümumtəhsil məktəbləri ilə ailələrin əlaqələrinin qurulması və onların inkişaf dinamikasının qorunması təhsilin səmərəliliyini artıran ən mühüm amillərdən hesab edilir.

## Əsas hissə /Main Part

Azərbaycan Respublikasında təhsil fasiləsiz xarakter daşıyır. Bu barədə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda göstərilir: “Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir” [Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası].

Dövlət Strategiyasında təhsilin fasiləsizliyinin təmin olunması əsas strateji hədəflərdən biri kimiJ vurğulanır. Sənəddə göstərilir: “Dördüncü strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları, əsaslı təlim metodologiyalarına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri özündə ehti-

va edir” [Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası].

Təhsilin modernləşdirilməsinin məqsədləri təhsil sisteminin davamlı inkişaf mexanizminin yaradılmasından ibarət olduğundan, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün bir sıra məsələlərlə yanaşı, təhsilin yuxarı pillələri kimi, məktəbəqədər təhsilin də müasir tələblərə cavab verən keyfiyyətlər səviyyəsinə çatdırılması vacibdir, çünki bu günkü uşaqlar sabahın məktəblisi, gələcəyin qurucularıdır. Bu baxımdan uşaqlarla iş elə aparılmalıdır ki, dövlətimizin bu gün təhsilə qoyduğu investisiyaların nəticəsi uğurlu olsun [Cəfərova L. 2015]. Göründüyü kimi, fasiləsiz təhsilin əsası uğurlu məktəbəqədər təhsil mühitinin yaradılmasından başlayır.

Məktəbəqədər təhsil müəssisəsi uşağın təhsilə başlamasında ilk pillə hesab edilir. Buna baxmayaraq, insan təhsilin ilkin elementlərini, primitiv şəkildə olsa da, ailədən alır. Başqa sözlə, hər bir ailə övladının təhsilə yiyələnməsində mühüm rol oynayan ən vacib tərəf kimi özünü göstərir. Təhsil müəssisələri ilə ailə arasında əlaqənin qurulması, bu əlaqənin ümumi nəticələrin xeyrinə yönəldilməsi mühüm əhəmiyyətə malikdir.

Ailələrin sosial vəziyyəti, malik olduqları təhsil, ümumi mədəni səviyyələrinin təhsillə əlaqədar olması bir çox aspektlərdə qarşımıza çıxa bilər. Biz, təhsilin hər bir sahəsində olduğu kimi, bu sahədə də insanla əlaqədar fəaliyyət göstərdiyimizə görə, müxtəlif və çoxşaxəli əlaqələrin mürəkkəb bir sistemi ilə qarşılaşırıq.

Ailələrin tiplərindən və təhsil müəssisələrinin fəaliyyətindən asılı olaraq, onların arasında aşağıdakı əlaqə formaları özünü göstərə bilər:

– Ailə təhsil müəssisəsi ilə daim əlaqədədir və əlindən gələn köməyi edir.

– Ailə təhsil müəssisəsi ilə yalnız övladının problemi olduqda əlaqə saxlayır.

– Ailənin təhsil müəssisəsi ilə əlaqəsi formal xarakter (tədbirlərdə və s. məcburi iştirak) daşıyır.

– Ailə təhsil müəssisəsi ilə zəif əlaqə (ödəmələrin verilməsi və ya çox vacib problem olduqda) saxlayır.

– Ailə təhsil müəssisəsi ilə əlaqə saxlamır.

Əgər yuxarıda sadalananlara diqqət yetirsək, görərik ki, hər əlaqə tipi məktəbəqədər müəssisənin inkişafında fərqli xüsusiyyətlərə malikdir. Bizə vacib olan məhz birinci sırada göstərilən əlaqə tipinin qurulmasıdır. Bunun üçün valideynlərin diqqəti hər vasitə ilə təhsil müəssisəsinə və övladının səmərəli təhsil almasına yönəldilməlidir. Bu prosesin həyata keçirilməsində ailələr üçün maarifləndirici tədbirlərin təşkilindən, bukletlərin, broşuraların çapından tutmuş, ailənin bütün tədbirlərə cəlb edilməsi və uşağın təhsilə yiyələnməsində aparıcı rol oynaması vacib şərtdir.

Məktəbəqədər təhsil, təhsilin birinci pilləsi olmaqla yanaşı, uşaqların məktəb təliminə müvəffəqiyyətlə hazırlanması üçün bərabər imkanlar yaradılmasına tə-

minat verən əsas mərhələdir. Məktəbəqədər təhsil mərhələsində aydın məqsədlərin qoyulması, bu məqsədlərə çatmaq üçün hədəflərin müəyyənləşdirilməsi gələcək kamil şəxsiyyətin formalaşdırılmasının ən vacib şərtlərindən biridir.

2010-cu il, sentyabr ayının 27-də, Moskvada UNESKO-nun və Rusiya Federasiyası hökumətinin təşkilatçılığı ilə kiçikyaşlı uşaqların tərbiyəsi və təhsili məsələlərinə həsr edilmiş "Milli sərvətlərin yaranması" mövzusunda Ümumdünya konfransının açılış mərasimində UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva çıxış edərək, uşaqlara diqqət və qayğının artırılmasını, onları qorumağın və düzgün tərbiyə etməyin vacibliyini vurğulamışdır: "Uşaqlığın ilk dövrü insanın həm mental, həm də fiziki inkişafının mühüm dövrüdür. Onun gələcəyinin təməli bu dövrdə qoyulur. Eyni zamanda, bu elə yaş dövrüdür ki, balaca insan olduqca zəif və yaşlılardan tam asılı vəziyyətdədir. Burada ümumi məxrəc balaca insan və onun gələcəyidir. Bu gələcək bu gün bizim əlimizdədir və ona görə biz məsuliyyət daşıyırıq" [«Milli sərvətlərin yaranması» mövzusunda Ümumdünya konfransının açılış mərasimində UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın çıxışından].

Bəşəriyyətin minilliklərlə söykənən tarixi ərzində gənc nəslin tərbiyəsi iki yerə ayrılmışdır: uşaqlar həm ailədə, həm də cəmiyyətdə tərbiyə olunurdular. Bu sosial quruluşların hər ikisi uşağı inkişaf etdirərək, gələcək həyata hazırlayır. Hər biri tərbiyənin sosial institutunu təmsil edərək, uşağın şəxsiyyət kimi formalaşmasında özünəməxsus xüsusiyyətlərə malikdir. Ailə və məktəbəqədər təhsil müəssisələri uşaqların ictimailəşməsində iki əhəmiyyətli institutdur. Onların tərbiyə funksiyaları müxtəlifdir, lakin uşağın hərtərəfli inkişaf etməsi üçün onlar qarşılıqlı əlaqədə olmalıdırlar. Məktəbəqədər təhsil müəssisələri uşağın inkişafında mühüm rol oynayır. Bu müəssisələrdə uşaqlar təlim keçir, digər uşaqlarla və böyüklərlə ünsiyyət qurur, öz fəaliyyətlərini təşkil etmək bacarığına yiyələnirlər. Uşağın bu bacarıqlara yiyələnməsi ailənin məktəbəqədər müəssisəyə münasibətindən asılıdır. Valideynlərin fəallığı olmadan məktəbəqədər yaşlı uşağın təlim prosesində harmonik inkişafı imkansızdır.

Valideynlərlə əlaqə məktəbəqədər təhsil müəssisələrinin işini daha da zənginləşdirir. Tərbiyəçi-müəllim hər bir ailədə hökm sürən mikromühiti yaxından öyrənib, iş prosesində nəzərə almalıdır. Bunun təlim-tərbiyə işinə böyük təsiri vardır. Valideynlərin tərbiyəçi-müəllimin əməyinə ehtiramlı münasibəti və tövsiyələrinə diqqət yetirmələri həm ailənin, həm də məktəbəqədər müəssisənin tərbiyə imkanlarını genişləndirir. Ona görə də hər bir ailənin məktəbəqədər müəssisə ilə əməkdaşlığı, məktəbəqədər müəssisənin də hər bir ailə ilə sıx əlaqəsi ailə – məktəbəqədər müəssisə əlaqələrinin dərk edilən və düzgün qoyulan vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmək üçün ən zəruri şərtdir.

Uşaq inkişaf və təlim prosesinin fəal iştirakçısıdır. Müasir təlim tələb edir ki,

məlumat uşağa valideyn və ya tərbiyəçi-müəllim tərəfindən hazır ötürülməsin, o, məlumatı tərbiyəçi-müəllimin yönəldici fəaliyyəti ilə, biliyin əldə edilməsi prosesində iştirak edərək özü qazansın.

Biliklərin əldə edilməsinin əsasını təşkil edən bacarıqlar təcrübədə təkmilləşdirilir. Buna görə də uşaqlara ətraf mühitdə mövcud olan biliklərin araşdırma yolu ilə əldə edilməsi, eyni zamanda, əşyaların və modellərin imitasiyası imkanını vermək çox vacibdir. Beləliklə, məşğələlər zamanı uşaqlar üçün ətraf mühiti təcrübi yolla dərk etmək, müxtəlif fəaliyyətlər həyata keçirmək, problemlərin həllində iştirak etmək, danışıq və ünsiyyət vərdişlərini inkişaf etdirmək imkanlarını yaratmaq olduqca zəruridir. Evdə və məktəbəqədər təhsil müəssisələrində uşaq üçün müxtəlif fəaliyyətlər planlaşdırılmalıdır. Uşaqların nəyi bildikləri deyil, nə etməyi bacardıqları və nəyi müstəqil öyrəndikləri, daha doğrusu – öyrənmə və düşünmə bacarıqlarının təkmilləşdirilməsi əsasdır.

Fəal öyrənmə uşaqların ətrafdakı insanlar və əşyalarla qarşılıqlı təsiri prosesi nəticəsində baş verir. Böyüklərin uşağın inkişafını dəstəkləmələrində rolu özlərinin bu prosesdə iştirakı ilə əlverişli emosional şərait yaratmaqdan ibarətdir. Bu zaman uşaqlara əşyalarla manipulyasiya və seçim etmək, əşya və ideyaları "tədqiq" etmək, eksperiment aparmaq, "kəşflər etmək" imkanı vermək lazımdır. Bu zaman uşaqlar həm öz yaşıdları ilə, həm də böyüklərlə təhlükəsiz və xoş mühitdə ünsiyyət qurmaq imkanı qazana bilirlər.

Təhsilin qarşısında qoyulan problemlərdən ən başlıcası kamil insanların formalaşdırılması əsasında sağlam ailə və dinamik inkişafda olan cəmiyyətin qurulmasının təmin edilməsidir. Qeyd etmək lazım dır ki, Azərbaycan bu gün milli-mənəvi dəyərlərə sadiq, müasir, güclü ölkə kimi öz hərtərəfli imkanları ilə bütün müsəlman aləmi üçün bir nümunə, parlaq tərəqqi modelinə çevrilmişdir. Təbiidir ki, bu cəmiyyətdə kamil insan, sağlam ailə və sağlam cəmiyyət yalnız ailə– məktəbəqədər müəssisə– məktəb – ictimaiyyət iş birliyindən, milli-mənəvi, ümumbəşəri, dünyəvi və dini mədəniyyət nümunələrinin cəmindən yaranan tərbiyə sistemi əsasında yetişə bilər.

Uşağın tərbiyəsi və inkişafı prosesində ailənin mövqeyini qiymətləndirməmək qeyri-mümkündür. Ailə uşaqların mənəvi, əxlaqi tərbiyəsinə böyük təsir göstərir, onlarda vətənpərvərlik hissi, Vətənə sevgi, əməyə məhəbbət tərbiyə etməklə yanaşı, dostluq, yoldaşlıq, böyüklərə hörmət, doğruluq, sadəlik və təvazökarlıq, qənaətcillik, intizamlılıq və s. müsbət insani keyfiyyətlər formalaşdırır. Ailə tərbiyəsinin əsas xüsusiyyəti ondan ibarətdir ki, emosional mikroiqlimin yaradılması nəticəsində uşağın özünə münasibəti formalaşır, özünüdəyərləndirmə meyarları müəyyənləşir.

Ailə tərbiyəsinin digər mühüm rolu ondan ibarətdir ki, o, dəyərlərin istiqamətləndirilməsinə, bütövlükdə uşağın dünyagörüşünə, ictimai həyatın müxtəlif sahələ-

rində davranışına təsir edir. Məlumdur ki, valideynlərin şəxsi xüsusiyyətləri ailə tərbiyəsinin nəticələrini müəyyənləşdirir. Uşağın inkişafı prosesində ailə tərbiyəsi vacibdir. O, ailə və məktəbəqədər müəssisələrin qarşılıqlı əlaqələrini müəyyənləşdirir, lakin bu əlaqələrə bir sıra amillər də təsir edir. İlk növbədə, valideynlər və pedaqoji kollektivin bir-birindən gözləntiləri arasında ziddiyyətlər meydana çıxır. Son zamanlarda yeni, perspektiv əməkdaşlıq formaları müəyyənləşdirilmişdir. Məktəbəqədər müəssisədə pedaqoji prosesə valideynlərin cəlb olunması təmin olunur, lakin valideynlərlə pedaqoji təbliğatın yalnız bir istiqaməti üzrə iş aparılması nəticəsində ailələrlə əks-əlaqə yaranmır, ailənin tərbiyəvi imkanlarından tam istifadə olunmur.

Bununla əlaqədar olaraq, məktəbəqədər və məktəb təliminin ardıcıl surətdə birindən digərinə keçməsinin təmin edilməsi üçün valideynlərin, müəllimlərin bir-biri haqqındakı məlumatların, birgə işlərinin öyrənilməsi, tövsiyələrin hazırlanmasına, qarşılıqlı əlaqələrin effektivliyinin yüksəlməsinə kömək edən təsir vasitələri, ailə və məktəbəqədər müəssisələr uşağın inkişafında mühüm rol oynayır.

Məktəbəqədər təhsil müəssisələri ilə valideynlərin birgə işinin təşkil olunması mühüm əhəmiyyət kəsb edir. Kiçik yaşlı uşaqlar həm evdə, həm də məktəbəqədər müəssisədə eyni duyğuları paylaşırlar. Oyun və kiçik özünəxidmət əməyi ilə müşahidə olunan fəaliyyət onları özlərini evdəki kimi hiss etmələrinə və sərbəstliyə alışdırır. Ailə münasibətləri, tərbiyəçi-müəllimlərin kiçikyaşlılara münasibəti onların şəxsiyyət kimi inkişaf edib formalaşmalarında əvəzsiz rol oynayır.

Məktəbəqədər müəssisə ilə valideynlər arasında aparılan işlərə aşağıdakı tələblər verilir:

1. Uşaqların şəxsiyyət kimi tərbiyə olunmasında məktəbəqədər müəssisə və valideynlər öz işlərini birgə qurmalı, sıx əməkdaşlıq etməli və tələblərdə vahidlik prinsipinə əməl etməlidirlər. Belə ki, kiçik yaşlı uşaqlar ailə, xeyir-şər haqqında, yoldaşlıq, dostluq, qayğıkeşlik, ədalət, sülh, müharibə, ekoloji problemlər, qanunlar, qənaət, sadəlik, təvazökarlıq, düzlük və s. haqqında təsəvvürlərə, anlayışlara ailədə, məktəbəqədər müəssisədə, məktəblərdə yiyələnirlər. Azərbaycanda pedaqogika elminin inkişafında öz sözünü demiş alimlər də bu sahəni diqqət mərkəzində saxlamış, öz fikirlərini bildirmişlər.

A.Əhmədov və Ə.Abbasov "Məktəbəqədər təhsilin konseptual problemləri" adlı məqalədə bu məsələyə toxunmuş və məktəbəqədər müəssisələrdə aparılan işlərin bir istiqamətinin də ailə ilə əlaqələr olduğunu vurğulamışlar. Məktəbəqədər təhsil müəssisələri ailə ilə əlaqələrin qurulmasında maraqlı olmuş, etibarlı mənəvi resurs kimi valideynlərin potensial imkanlarından istifadə etmişlər [Əhmədov A., Abbasov Ə. 2011]. Araşdırmalar göstərir ki, ənənəvi olaraq, uzun illər ərzində bu əlaqələr inzibati dövrün xarakterinə uyğun qurulmuşdur. Məktəbəqədər müəssisə öz idarəçilik prinsipləri əsasında fəaliyyət göstərmiş, valideynlərlə müxtəlif formalarda əlaqə saxlamışdır. Bu əlaqələr sistemində valideynlər müşahidəçi kimi,

prosesə müdaxilə etmədən fəaliyyət göstərmişlər.

2. Humanist və demokratik prinsiplər əsasında qurulan yeni təhsil sistemində ailə ilə təhsil müəssisəsi arasında əlaqələrin xarakteri də dəyişir. Valideyn sifarişçi mövqeyində çıxış edir. Məktəbəqədər müəssisələrdə bu funksiya daha qabarıq şəkildə təzahür edir. Uşaqlarının inkişafı ilə maraqlanan valideynlər onu təmin və təşkil etmək məqsədi ilə məktəbəqədər müəssisə ilə yaxından əməkdaşlıq edir, təlim-tərbiyə işində onlara dəstək olur, müəssisənin problemləri ilə yaşayır, onların aradan qaldırılması istiqamətində rəhbərliklə birgə fəaliyyət göstərirlər. Beləliklə, "ailə" və "məktəbəqədər müəssisə" xətlərinin kəsişmə nöqtəsində dayanan uşağın ümumi inkişafının təmin olunmasında maraqlı olan hər iki tərəf məqsədlərinə çatmaq üçün bərabər əmək sərf etmiş olurlar [Cəfərova L.Bakı, 2015].

Tərbiyənin və şəxsiyyəti formalaşdırmağın ən vacib xüsusiyyətlərindən biri böyüməkdə olan nəslə düzgün örnək olmaqdır ki, buna da məktəbəqədər təhsil müəssisəsi ilə valideynlərin birgə işinin, əməkdaşlığının təmin olunması yolu ilə nail olmaq mümkündür. Uşağın evdə, ailədə gördükləri ilə ona öyrədilənlər, təlqin edilənlər arasında uyğunsuzluq olarsa, onun tərbiyəsində bir sıra ziddiyyətlər baş qaldıra bilər. Bu ziddiyyətlərin uğurla aradan qaldırılması uşağın tərbiyə və təhsilini düzgün məcraya yönəldir.

Ailə və məktəbəqədər müəssisə daim əlaqədə, ünsiyyətdə olmalı, məktəbəqədər təhsil müəssisəsinin işində valideynlərin də köməyindən ətraflı istifadə olunmalıdır. Alimlər və pedaqoqlar arasında bu barədə fikir müxtəliflikləri mövcuddur.

Görkəmli pedaqoqların bir hissəsi ailə tərbiyəsinə üstünlük verdikləri halda, digərləri birinciliyi ictimai müəssisələrə verirdilər. Belə ki, Y.A.Komenski uşağın anadan ardıcıllıqla qavradığı biliklərin cəmini "Ana məktəbi" adlandırmışdır. Ananın dərsləri fasiləsiz, cədvəlsiz, istirahət günü və tətil olmadan keçir. Uşağın həyatındakı müxtəlif dəyişikliklər, şüurlu qavramalar nəticəsində ananın fəaliyyət dairəsi daha da genişlənir.

Y.A.Komenskinin bu mülahizəsini İ.Q.Pestalotsi də təkrarlamışdır: ailə – tərbiyə prosesinin əsas iştirakçısıdır, o, praktikada öyrədir, canlı söz isə onu tamamlayır. Həyatın şumlanmış torpağına düşdükdə isə tamamilə başqa təsir göstərir. Bunların əksinə olaraq, Robert Quen hesab edirdi ki, ailə yeni formalaşan insanın yolundakı küldür. Uşaq erkən yaşlarından başlayaraq, ancaq ictimai tərbiyə almalıdır.

Uşağın ailədə, yaxud cəmiyyətdə tərbiyə olunmasının müsbət və mənfi cəhətlərini aşağıdakı cədvəldə daha aydın görmək olar.

## İctimai və ailə tərbiyəsinin müsbət tərəfləri və çatışmazlıqları

| Uşaq bağçası | Ailə |
|---|---|
| **Çatışmazlıqlar** | **Üstünlüklər** |
| 1. Tərbiyəçinin uşaqlarla işguzar ünsiyyət forması, emosional çatışmazlıq;<br>2. Bir-birini əvəzləyən tərbiyəçilərin müxtəlif proqramlarla uşağın davranışına təsir metodları;<br>3. Tərbiyəçinin bütün uşaqlara müraciəti, hər bir uşaqla fərdi ünsiyyətin azlığı;<br>4. Gün rejiminin nisbətən ağır olması;<br>5. Eyni yaşlı uşaqlarla ünsiyyət. | 1. Valideynlə uşaq arasında nisbətən "yumşaq", dolğun emosional münasibətlər;<br>2. Valideynlərin davranışı, onların uşaqlara təsiri, pedaqoji proqramın sabitliyi və müddəti;<br>3. Uşaqlara fərdi pedaqoji təsirin yönədilməsi;<br>4. Mütəhərrik gün rejimi;<br>5. Müxtəlif yaşlı qohum uşaqlarla ünsiyyət qurmaq imkanı. |
| **Üstünlüklər** | **Çatışmazlıqlar** |
| 1. Məktəbəqədər yaşlı uşaqların tərbiyə və təlim proqramlarının, müəllimlərdə pedaqoji biliklər, elmi-metodiki vəsaitlərin olması və istifadəsi;<br>2. Uşaqların tərbiyə və təliminin məqsədyönlülüyü. Uşaqlar üçün elmi əsaslarla hazırlanmış tərbiyə və təlim, həyat və məişət şəraiti.<br>3. Tətbiq etməli: tərbiyə metodları, təlim, məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətləri və imkanları, onların mənəvi tələbatının dərk olunması;<br>4. Uşaqların inkişaf stimulu kimi, onların fəaliyyət və davranışının qiymətləndiril məsindən bacarıqla istifadə etmək;<br>5. Uşaqların kollektivdə müxtəlif məzmunlu fəaliyyəti, həmyaşıdları ilə oynamaq və ünsiyyət qurmaq imkanları və s. | 1.Tərbiyə proqramının olmaması, valideynlərin tərbiyə haqqında səthi təsəvvürləri, valideynlərin pedaqoji ədəbiyyatlardan təsadüfi hallarda istifadə etmələri və ya etməmələri;<br>2.Uşağın kor-təbii tərbiyə və təlimi, məqsədyönlü tərbiyəyə yönəldilmiş ənənələrdən və ünsürlərdən istifadə;<br>3.Uşaq üçün mühim olan şəraitin yaradılmasının vacibliyini anlamadan, böyüklər ailədə özləri üçün şəraitin yaradılmasına cəhd edirlər;<br>4.Məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətlərini başa düşmədən, təsəvvürlərində onlara böyüklərin kiçildilmiş surəti kimi baxmaq, tərbiyə metodlarının axtarışında passivlik;<br>5.Uşağın tərbiyə və təlimində qiymətləndirmənin rolunu başa düşməmək, uşağın davranışını qiymətləndirmək əvəzinə, onun şəxsiyyətini qiymətləndirmək cəhdi;<br>6. Uşağın ailədə cansıxıcı və az məzmunlu fəaliyyəti, oyun zamanı uşaqlarla ünsiyyətin çatışmazlığı. Uşağın obyektiv xarakterizə, özünütərbiyə metodlarını təhlil edə bilməməsi və s. |

Cədvələ əsasən, bu nəticəyə gəlmək olar ki, bütün sosial yanaşmaların üstünlükləri və çatışmazlıqları var. Belə ki, yalnız ailədə tərbiyə olunan, ailə üzvlərinin məhəbbətini qazanan, həmyaşıdları ilə ünsiyyət qurmayan uşaq eqoist, həyatın tələblərinə, ətraf mühitə və s. uyğunlaşmadan böyüyəcək.

Deməli, ailədə tərbiyə olunan uşağın tərbiyəsini həmyaşıdlar kollektivində tərbiyə ilə əlaqələndirmək lazımdır. Təhlilin nəticələrinə əsasən, bir-birini tamamlayan, zənginləşdirən ailə və ictimai tərbiyənin təsiri ailə və məktəbəqədər müəssisə əməkdaşlığının olmasından asılıdır.

## Nəticə / Conclusion

Təhsilin ali dəyər kimi xarakterizə edildiyi müasir dövrdə insan tərbiyəsi-onun kamil şəxsiyyət kimi formalaşdırılması və cəmiyyətin tələblərinə uyğun yetişdirilməsinin bünövrəsinin düzgün qoyulması məktəbəqədər təhsil müəssisələri ilə valideynlərin birgə işini, onların əməkdaşlığını zəruri edir.

Məktəbəqədər təhsil müəssisələrinin ailə ilə əlaqəsinin qurulmasının vacibliyi ondan irəli gəlir ki, əgər bu pillədə ailə ilə əlaqələr düzgün müstəvidə qurulmazsa, sonradan ailənin təhsil prosesinə cəlb olunması daha böyük zəhmət tələb edəcəkdir.

Ailələrlə əlaqələrin qurulmasında diqqəti cəlb edən mühüm məqamlardan biri də təhsil müəssisəsinin də bu məsələdə marağının və təcrübəsinin olmasıdır. İşini və strategiyasını düzgün quran məktəbəqədər təhsil müəssisələri bu sahədə, demək olar ki, çətinliklərlə üzləşmirlər. Onlar ailələrin hansı məqamlarda prosesə cəlb edilmələrinin lazım olduğunu bilir və bundan istifadə edirlər.

Məktəbəqədər müəssisələrdə fəaliyyət göstərən hər bir təhsil işçisi ailələrlə sosial əlaqələrin qurulması üzrə peşəkar təlimlərdən keçməli və bu prosesə mənəvi cəhətdən hazır olmalıdırlar. Ailənin meyil və maraqlarının dəyərləndirilməsi uşağın təhsil prosesinə cəlb olunmasında mühüm amillərdəndir. Nəticədə, məktəbəqədər yaşlı uşaqlar hər zaman valideynlərin nəzarətindədirlər və onlar övladlarının öz arzularına, gələcək perspektivlərinə uyğun böyümələrini, təhsil almalarını istəyirlər. Bu amildən düzgün istifadə məktəbəqədər təhsil müəssisələri ilə ailələr arasında sağlam əlaqələrin qurulmasını təmin edir.

Beləliklə, məktəbəqədər təhsil pilləsində başlayan bu əlaqə uşağın sonrakı təhsil həyatında da öz müsbət nəticələrini verir və məktəbin də ailə ilə müvafiq əlaqələrinin saxlanmasını təmin edir.

## Ədəbiyyat / References


1. Abbasov A. (2019). Ailə pedaqogikası. Bakı, "Mütərcim", 270 s.
2. Ağayarova S. Ailə ziyarətlərinin uşaqların təlim-tərbiyəsində rolu. http://genderi.org/aile-ziyaretlerinin-usaqlarin-telim-terbiyesinde-rolu-se-adet-a.html
3. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010-cu illər). (2007). Bakı, "Azərbaycan müəllimi", 13 aprel.
4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası (Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş dir).
5. Cəfərova L. (2015). Məktəbəqədər müəssisə rəhbərinin stolüstü kitabı. Bakı, 350 s.
6. Əhmədov A., Abbasov Ə. (2011). Məktəbəqədər təhsilin konseptual problemləri. "Azərbaycan müəllimi", 13 may.
7. Quliyeva S. (2020). Azərbaycanda ailə-məktəb əməkdaşlığının formalaşdırılması modelləri. "Məktəbəqədər və ibtidai təhsil", № 3. s.67-80.
8. Məktəbəqədər pedaqogika fənni üzrə proqram. (2013). Tərtib edəni Nəzərov A.M. Bakı, 55 s.
9. Sadıqov A. (2018). Məktəb tərbiyəsi və tərbiyə məktəbi. 30 may. https://novator.az/2018/05/30/m-kt-b-t-rbiy-si-v-t-rbiy-m-kt-bi
10. UNESCO-nun və Rusiya Federasiyası hökumətinin təşkilatçılığı ilə kiçikyaşlı uşaqların tərbiyəsi və təhsili məsələlərinə həsr edilmiş "Milli sərvətlərin yaranması" mövzusunda Ümumdünya konfransının açılış mərasimində UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın çıxışı. (2010-cu il, 27 sentyabr, Moskva). http://xalqqazeti.com/az/news/education
11. https://okul.com.tr/okul-oncesi/makaleleri/okul-oncesi-egitimde-yaklasim-modelleri-285

# Müəlliflərin nəzərinə

## «Məktəbəqədər və ibtidai təhsil» jurnalında dərc ediləcək məqalələr üçün texniki tələblər

**Məqalələrin məzmunu**

Məqalələr aktual mövzulara həsr olunmalı, jurnalın məzmun və üslubuna uyğun akademik tələblərə cavab verməli, «Giriş» (Introduction), «Əsas hissə» (Main part) və «Nəticə»dən (Conclusion) ibarət olmalıdır. «Giriş»də mövzunun aktuallığı əsaslandırılmalı, «Əsas hissə»də tədqiq edilən məsələlər, qaldırılan problemlər bölmələr üzrə ətraflı şərh edilməli, «Nəticə»də isə elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi qənaət, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməli, təklif və tövsiyələr irəli sürülməlidir.

**Məqalələrin strukturu, tərtib edilmə qaydaları və həcmi**

1) Redaksiyaya təqdim edilən məqalələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının dövri elmi nəşrlərin qarşısında qoyduğu şərtlər də daxil olmaqla aşağıdakı tələblərə cavab verməlidir:

— Məqalənin adı, müəllifin adı və soyadı, vəzifəsi, elmi dərəcəsi, işlədiyi qurumun adı və ünvanı, elektron poçt ünvanı və telefon nömrəsi məqalənin titul səhifəsində yazılmalıdır.

— «Açar sözlər» (Azərbaycan və ingilis dillərində) 3-5 söz və ya söz birləşməsindən ibarət olmalıdır.

— «Xülasə» (Azərbaycan və ingilis dillərində) eyni məzmunda olmaqla, təxminən, 80-100 söz həcmində verilməlidir.

2) Məqalənin mətni Microsoft Word proqramında, A4 (210x297mm) formatda, Times New Roman — 12 şriftində yığılmalı, həcmi 8-10 səhifə olmalıdır.

3) Məqalənin adı böyük hərflərlə, yarımbaşlıqları isə yalnız ilk hərfi böyük olmaqla, qalın şriftlə, kursivlə yazılmalıdır. Başlıq və yarımbaşlıqlardan, cədvəl və şəkillərdən (həmçinin tənliklər və düsturlardan) əvvəl və sonra bir sətir ara boşluğu buraxılmalıdır. Səhifələr ardıcıl olaraq aşağı sağ küncdə nömrələnməlidir.

4) Cədvəl və şəkillərin adı olmalı və bu ad cədvəllər üçün cədvəlin üstündə sol küncdə, şəkillər üçün şəklin altında sol küncdə yerləşdirilərək, ardıcıl nömrələnməlidir.

5) Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə zəruri istinadlar olmalı, sonda verilən «İstifadə edilmiş ədəbiyyat»da istinad olunan ədəbiyyatlar mətnin içində [Məmmədov A. 2010] kimi verilməli, sonda isə əlifba ardıcıllığı ilə nömrələnməlidir. Elmi ədəbiyyata mətndə onlayn istinad olarsa 1 qoyaraq aşağıda internet linki göstərilməlidir. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam, dəqiq və orijinalın dilində olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir.

Mətndə istinad olunan bütün mənbələr, səhifə nömrələri ilə birlikdə «İstifadə edilmiş ədəbiyyat» siyahısında aşağıdakı nümunələrdə göstərilən qaydada verilməlidir:

a) *Kitablara istinad:*
   Adilov M.İ., Həsənov İ.C. (2012). Qloballaşma və milli mənəvi dəyərlər. Bakı, «Elm». 476 s.
b) *Jurnallara istinad:*
   Kərimova F. (2013) Müasir təlim metodlarından istifadənin zəruriliyi. Məzmun islahatlarının təlimin keyfiyyətinə təsiri. Azərbaycan məktəbi. №4, Bakı: Ərgünəş, səh. 28-31.
c) *Toplularda məqaləyə istinad (konfrans, simpozium və digər):*
   «Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri». (2010). Respublika elmi-praktiki konfransının materialları. Bakı: «Şərq-Qərb», səh. 314-316.
ç) *Dissertasiyalar və avtoreferatlar:*
   Məmmədov H.B. (2013) Azərbaycan Respublikası müasir beynəlxalq siyasi proseslərin aktoru kimi. Elmlər doktoru dissertasiyasının avtoreferatı, Bakı: «Elm», 44 s.
d) *Müəlliflik şəhadətnamələri və patentlər:*
   Алиев С.Г., Джалалов К.Х. А.С. 163514, СССР // Б.И. 1988, № 4, с.50
   Langsam M., Savoca A. C.L. Pat. 4759776, USA, 1988.
e) *İnternet səhifələri (internet səhifələrinə istinadlar tam göstərilməlidir):*
   http://www.journal.edu.az.

Məqalədə son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

6) Məqalə redaksiyaya 2 formada: ya elektron poçtla (editor@journal.edu.az), ya da məqalə müəllifinin özü tərəfindən təqdim edilməlidir. Orijinal nüsxədə müəllif(lər)in imzası vacibdir.

**Məqalələrin qəbul edilməsi və dərci**

Təqdim edilən məqalələr redaksiyada nəzərdən keçirildikdən sonra oxunuş üçün (müəllifin adı gizli saxlanılmaqla) mütəxəssislərə göndərilir. Məqalə jurnalın profilinə uyğun olduğu təqdirdə və tələblərə cavab verərsə, çapa təqdim edilir. Müəllif istəsə, ona məqaləsinin qəbul edilməsi barədə sənəd verilə bilər. Məqalələr növbəlilik prinsipi ilə dərc edilir.

**Müəlliflik hüquqları**

Jurnalda dərc edilən məqalələrdə müəlliflik hüququ qorunur və bu məqalələrin bütün nəşr hüquqları «Məktəbəqədər və ibtidai təhsil» jurnalına aiddir. Jurnalda çap edilmiş məqalələrin eyni ilə digər nəşrlərdə (məqalənin tezis şəklində dərc olunmuş variantı istisnadır) dərcinə yalnız redaksiyanın yazılı icazəsi, sitatların verilməsinə isə mənbə göstərilmək şərti ilə yol verilir.

Əvvəllər çap olunmuş və ya çap olunmaq üçün başqa bir dövri nəşrə göndərilmiş əlyazmaların jurnala təqdim edilməsi müəlliflik etikasına ziddir.

Yuxarıda göstərilən tələblərə cavab verməyən məqalələr qəbul edilmir. Dərc olunmuş məqaləyə görə müəllifə qonorar və jurnalın bir nüsxəsinin verilməsi nəzərdə tutulur.

# For authors

## Requirements to the articles submitted for publication in «Preschool and Primary Education»

**Content of articles**

The articles should be devoted actual topics, meet the academic requirements of journal' s style and content and consist of "Introduction", "Main part", and "Conclusion". The introduction should contain a thesis that will assert the main argument. In the main part, the studied issues and the raised questions should be explained and analyzed in detail in the sections. In the conclusion, the author should reinforce the importance of the main idea, emphasize his scientific contention and appreciate his topic in personally relevant ways, and it is notable to shine the scientific novelty and the benefits of the work and to offer suggestions and recommendations.

**Rules of preparing of articles and scope**

1) The articles submitted for the editorial must meet the following requirements, including the conditions set out for the periodical scientific publications presented by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan:

— Title of the article, author's name, surname, position, academic degree, name and address of the organization where he works, e-mail address and telephone number should be written on the title page of the article.

— Key words (in Azerbaijani and English) should consist of 3-5 words and phrases.

— Abstract (in Azerbaijani and English) should be approximately 80-100 words, with the same content.

2) The text should be typed in Microsoft Word, A4 (210x297mm), Times New Roman — 12, size 8-10 sheets.

3) The title should be capitalized in capital letters, and subheadings should be written in bold, italic, with the first letter in uppercase only. Before and after the headline and subheadings, tables and figures (also equations and formulas), a single line spacing should be added. Pages should be numbered in the lower right corner.

4) The table and pictures must be named, and the name should be placed in the left-hand corner above the table, and pictures name should be placed in the left-hand corner under picture.

5) There should be references to scientific sources related to the topic of the article, as well as the sources noted at the end in "used works" should be mentioned in the text as [Mammadov A. Baku, 2010] and finally numbered in alphabetical order. If there is an online reference in the text, you should put an internet link below and number it from one. The information on each reference in the Literature List must be in full, accurate and the native language. The bibliographic description of the source should be based on its type (monograph, textbook, scientific article, etc.). The name of the article, report or thesis should be cited when referring to scientific articles, materials or theses of symposium, conference or other prestigious scientific events.

All sources referenced in the text should be cited in the "Used Works or References" list, along with the page numbers, as specified in the following examples:

a) *References to books:*
   Adilov M.I., Hasanov I.C. (2012). Globalization and national spiritual values. Baku, “Science” p. 476
b) *References to journals:*
   Kerimova F. (2013) The necessity of using modern teaching methods. Impact of content reform on the quality of training. Azerbaijani school. No 4, Baku: Ergunash, p. 28-31.
c) *Reference to the articles in scientific events:*
   «End of a transitional period in Azerbaijan economy: analysis and conclusions. Problems of National Development Model Formation" (2010). Materials of the scientific-practical conference of the Republic. Baku: "East-West", p. 314-316.
ç) *Dissertation thesis and abstracts:*
   Mammadov H.B. (2013) The Republic of Azerbaijan as an actor in contemporary international political processes. Doctoral dissertation abstract, Baku: "Science", 44 h.
d) *Copyright and Patents:*
   Aliev S.G., Jalalov K.Kh. A.S. 163514, USSR // B.I. 1988, No. 4, p.50
   Langsam M., Savoca A. C.L. Pat. 4759776, USA, 1988.
e) *Internet pages (references to web pages should be indicated in full):*
   http://www.journal.edu.az.

The article should give preference to scientific materials, monographs and other reliable sources for the last 5-10 years.

6) The article should be submitted to the editorial office in two forms: by e-mail (editor@journal.edu.az), or by the author himself. The original signature of the author is important.

**Acceptance and publication of articles**

After review, the presented article will be sent to experts (the author's name confidentiality is maintained) to be read out. If the article corresponds to the journal profile and meets the requirements, the printing is provided. If the author wishes, a document on his / her article acceptance may be issued. Articles are published on the principle of rotation.

**Copyright**

The articles published in the journal are copyrighted and all publishing rights of these articles belong to the "Preschool and Primary Education". The articles published in the journal are allowed to be published in other publications(except the variant of the article published in the form of a thesis) only with the written permission of the editorial board, and the source of quotation must be provided.

It contravenes the authorship ethics to submit manuscripts previously sent or published in another periodical.

Articles that do not meet the above requirements are not accepted.

According to the published article, the author will get a reward and a copy of the journal. Dear Authors don’t send please your conflicts of interests and published articles in anywhere.

# К сведению авторов
## требования к рукописям

**Содержание статей**

Статьи должны быть посвящены актуальным темам, соответствовать академическим требованиям к содержанию и стилю журнала, должны состоять из «Введения» (Introduction), «Основной части» (Main part), и «Заключения» (Conclusion). В «Введении» должно быть обоснована актуальность темы, «в «Основной части» исследуемые задачи и поднятые проблемы должны быть объяснено подробно по разделом, а в «Заключении», также включает научные выводы автора в соответствии с характером области науки и статьи, научная новизна работы, важность применения, экономические выгоды и тд. должно быть четко указано, и должны быть выдвинуты предложение и рекомендации.

**Структура статей, правила составления и объем**

1) Статьи, представленные в редакцию, должны соответствовать следующим требованиям, в том числе условиям, установленным Высшей Аттестационной Комиссией при Президенте Азербайджанской Республики, для периодических научных публикаций:

— На титульном листе статьи должны быть указаны название статьи, имя и фамилия, должность, ученая степень, название и адрес организации, адрес электронной почты и номер телефона автора.

— Ключевые слова (на азербайджанском и английском языке) должны состоять из 3 - 5 слов и фраз.

— Аннотация (на азербайджанском и английском языке) должна составлять примерно 80-100 слов с одинаковым содержанием.

2) Текст статьи должен быть написан в программе Microsoft Word, A4 (210x297 мм), Times New Roman — 12, объем должен быть 8-10 страниц.

3) Названия статьи должен писаться с жирном шрифтом и с курсивом с большой буквой,а подзаголовки только первые буквы прописными. До и после заголовка и подзаголовков , таблиц и рисунков (также уравнений и формул) должен быть выпущен один междустрочный интервал. Страницы должны располагаться последовательно в правом нижнем углу.

4) Таблицы и рисунки должны иметь имя и это имя для таблиц должен перемещаться над таблицей в левом углу ,для рисунков под рисунки в левом углу и последовательно пронумероваться.

5) Необходимые ссылки на научные источники, относящиеся к теме статьи, должны быть приведены в тексте как ссылки на «использованную литературу» в тексте [Мамедов А. Баку, 2010] и в конце должны быть упорядочены в алфавитном порядке. Если в тексте научной литературы есть онлайн-ссылка, разместите интернет-линк ниже. Информация по каждой ссылке в списке литературы должна быть полной, точной и на языке оригинала. Библиографическое описание справочного источника следует представить в зависимости от его типа (монография, учебник, научная статья и т). При ссылке научных статей, симпозиумов, конференций ,тезисов и других престижных научных мероприятий следует указывать название статьи, отчета или тезиса.

Все источники, на которые есть ссылки в тексте, должны быть включены в список «Использованная литература» вместе с номерами страниц в следующих примерах:

а) *Ссылки на книги:*

Адилов М.И, Гасанов И.С. (2012). Глобализация и национальные духовные ценности. Баку, Наука. 476 стр.

б) Ссылка на журналы:

Керимова Ф. (2013) Необходимость использования современных методов обучения. Влияние реформирования контента на качество обучения. Азербайджанская школа. № 4, Баку: Эргунаш, с. 28-31.

в) *Ссылки на статьи в сборнике (конференция, симпозиум и т. д.):*

«Конец переходного периода в экономике Азербайджана: анализ и итоги. Проблемы формирования модели национального развития». (2010). Материалы республиканской научно-практической конференции. Баку: Восток-Запад, с. 314-316.

г) *Диссертации и авторефераты:*

Мамедов Х.Б. (2013) Азербайджанская Республика — современная международная политика

как актер в процессе. Автобиография докторской диссертации, Баку: «Наука», стр. 44.

д) *Авторские свидетельства и патенты:*

Алиев С.Г., Джалалов К.Х. А.С. 163514, СССР // БИИ 1988, № 4, с.50

Langsam M., Savoca A. C.L. Патент 4759776, США, 1988.

е) *Интернет-страницы (ссылки на веб-страницы должны быть полностью показоны): http://www.journal.edu.az.*

В статье предпочтение отдается научным статьям, монографиям и другим надежным источникам написанном последние 5-10 лет.

6) Статья должна быть представлена в редакцию в 2-х формах: по электронной почте (editor@journal.edu.az), или через онлайн SUBMISSION MANUSCRIPT, либо самим автором статьи. В оригинальной копии важна подпись автора(ов).

**Прием и публикация статей**

Представленные статьи после ознокомлений в редакции отправляют (после того, как имя автора останется конфиденциальным) экспертам для прочтение. Если статья соответствует профилю журнала и требованиям, тогда предоставляется в печать. По желанию автора может быть выдан документ о его принятии статьи. Статьи публикуются по принципу очереди.

**Авторские права**

Авторские права на статьи публикуемые в журнале, защищены, и все права на публикации этих статей принадлежит журналу «Дошкольное и начальное образование». Статьи опубликованные в журнале, допускаются только с письменного разрешения редакции для других опубликованных публикаций (кроме статьи, опубликованной как тезис ).А для использование цитатов можно только с одним условиям-показать источника. Рукописи, отправленные для печати в другое периодическое издание или в раннем времени напечатанные в другом журнале подача в редакцию противоречит этику авторов.

Статьи не соответствующие вышеуказанным требованиям, не принимаются. Для опубликования статьей предназначен представить автору гонорар и одну копию журнала.